www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 15 mart 2016-cı il Çərşənbə axşamı № 59 (6380) Qiyməti 60 qəpik

**Xəbər**

## Qazaxda qoca ər-arvadı baltalayıb öldürdülər

yazısı səh.14-də

**Gündəm**

### Borclara görə ölkədə həbslər başlandı- zamin tutuqlandı



**Əkrəm Həsənov:** "Qəbul edilmiş qərar Azərbaycanın qoşulduğu beynəlxalq qanunlara ziddir"

yazısı səh.5-də

### Regionun ən sabit ölkəsi olan Azərbaycana terror təhdidi varmı...

yazısı səh.10-da

*Metyu Brayza:*

### "Putin dilemma qarşısındadır..."

yazısı səh.9-da

### Mingəçevirin icra başçısının qalmaqallı avtomobili ilə bağlı yeni xəbərlər

yazısı səh.5-də

### Bu gün ilaxır çərşənbədir

yazısı səh.3-də

### "OMON" hadisələrinin 21 ili - həbsdə çürüyən ömürlüklər...

yazısı səh.5-də

### Bu gün Artur Rasi-zadə parlamentdə hesabat verəcək

yazısı səh.3-də

### Ankara terroru Azərbaycanda da anılır

yazısı səh.10-da

### Rusiya Qarabağ danışıqlarında yaxasını kənara çəkir

yazısı səh.11-də

### Restoran və şadlıq evlərində yediklərimiz dəhşət saçır...

yazısı səh.13-də

### Azərbaycanın ÜTT-yə üzvlüyü məsələsi aktuallaşır - reallıq və bəhanələr...

yazısı səh.12-də

### "Qanuni oğru" Dadaş Bakinski Rusiyadan Azərbaycana deportasiya edildi

yazısı səh.2-də

## "Üçqat agent" qalmaqalında Eldar Mahmudov "qovluğu"

# "MALİYYƏ NAZİRİNƏ ATƏŞ BAKIDAN AÇILIB" - ŞOK İDDİA

Tanınmış jurnalist Eynulla Fətullayev Samir Şərifova qarşı kompromat materiallarının Yuri Şvetsə ötürülməsini sabiq milli təhlükəsizlik nazirinin təşkil etdiyini iddia edir və həbsini istəyir: "MTN-də baş verən bunca cinayətlərə rəğmən o, hələ də azadlıqdadırsa, niyə müqavimət göstərir? Onu danışdıran və arxasında duran qüvvələr kimdir?"




yazısı səh.6-da

## Dünyaya "olmasın Bakı, olsun Ankara" mesajı - prezident Əliyevin böyük jesti

**Ankara terroru Ərdoğan-Əliyev görüşünü əngəlləyə bilmədi; İlham Əliyevin həmrəylik addımı siyasi ekspertlər tərəfindən yüksək qiymətləndirildi...**

yazısı səh.8-də



*Rəşad Məcid:*

### "Bayrama qədər istənilən gün əfv gözləmək olar"

yazısı səh.4-də



### Vilayət Eyvazov daxili işlər nazirinin birinci müavini təyin olundu

yazısı səh.2-də



*Elxan Şahinoğlu:*

### "İlham Əliyevin ABŞ səfəri yeni mərhələnin başlanğıcı ola bilər"

yazısı səh.9-da



## Daha bir rayonun icra başçısı işdən çıxarıldı

**Elçin Məmməd oğlu Hüseynəliyev Naxçıvan Muxtar Respublikasının Babək Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilib. APA-nın məlumatına görə, Azərbaycan prezidenti İlham Əliyev müvafiq sərəncam imzalayıb. Dövlət başçısının digər sərəncamı ilə Rasim Vaqif oğlu Hüseynov Naxçıvan Muxtar Respublikasının Babək Rayon İcra Hakimiyyətinin başçısı təyin edilib.**



## Vilayət Eyvazov daxili işlər nazirinin birinci müavini təyin olundu

**Azərbaycan daxili işlər nazirinin birinci müavini postuna təyinat olub. APA-nın məlumatına görə, prezident İlham Əliyevin martın 11-də imzaladığı sərəncamla polis general-leytenantı Vilayət Eyvazov daxili işlər nazirinin birinci müavini təyin edilib. DİN-dən APA-ya məlumatı təsdiqləyiblər.**

V. Eyvazov buna qədər daxili işlər nazirinin əməliyyat işləri üzrə müavini olub. Qeyd edək ki, bir neçə gün əvvəl daxili işlər nazirinin birinci müavini postu yaradılıb.

Bu, "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Əsasnaməsinin və strukturunun təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 30 iyun tarixli 518 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin fərmanında əksini tapıb.

## "Qanuni oğru" Dadaş Bakinski Rusiyadan Azərbaycana deportasiya edildi



**"Qanuni oğru" Dadaş Bakinski Moskvadan Bakıya göndərilib. APA-nın "Rosbalt"a istinadən verdiyi xəbərə görə, Rusiya Daxili İşlər Nazirliyinin (DİN) mətbuat xidmətinin məlumatında deyilir ki, o, Rusiyada narkotiklərin qeyri-qanuni dövriyyəsinə görə həbs olunaraq, Krasnoyarsk vilayətində islah-əmək koloniyasında cəza çəkib. 2015-ci ilin yanvarında Dadaş Bakinskinin Rusiya Federasiyası ərazisində qalmasının arzuledilməz sayılması barədə Ədliyyə Nazirliyi tərəfindən qərar verilib.**

Cəzasını bitirib azadlığa çıxan "qanuni oğru" Rusiya DİN əməkdaşlarının nəzarəti altında Moskvanın "Domodedovo" aeroportundan Azərbaycana deportasiya edilib.


## "Qaya Mətbuat Yayımı" MMC!

**- İtənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı sldıqdan sonar abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərində də abunə qəbul olunur


# Elnur Nağızadənin əmisi: "Onu yoxa çıxarıblar"

## Ailə TQDK sədri Məleykə Abbaszadənin də ünvanına bir sıra ittihamlar səsləndirib

**Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının mətbuat xidmətinin sabiq rəhbəri Elnur Nağızadənin qohumları mətbuat konfransı keçirməyə hazılaşır. Lent.az-la əlaqə saxlayan E.Nağızadənin əmisi Tahir Nağıyev bildirib ki, ailə bugünlərdə mətbuat konfransı keçirəcək və Elnura ünvanlanış ittihamlarla bağlı bir sıra məlumatlar açıqlayacaq: "Bizim də deyəcəklərimiz var. Elnura qarşı ittihamlar əsassızdır. İki aydan çoxdur ondan xəbər ala bilmirik, danışa bilmirik. İki uşağı qalıb ortada. Kimlərsə Elnuru yoxa çıxarıb".**

T.Nağıyev onu da bildirib ki, Elnurun həyatı təhlükədədir, ölüm təhdidləri alıb. E.Nağıyevin əmisi TQDK sədri Məleykə Abbaszadənin ünvanına bir sıra kəskin ittihamlar səsləndirib və mətbuat konfransında bütün dediklərini əsaslandıracaqlarını bildirib.

Qeyd edək ki, hüquq-mühafizə orqanları Elnur Nağızadəni axtarışa verib. Baş Prokurorluğun mətbuat xidmətindən bildirilib ki, Elnur Nağızadə ilə bağlı daxil olmuş şikayət əsasında Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində fakta görə Cinayət Məcəlləsinin 178.3.2-ci (dələduzluq), 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə etmə) və 320.1-ci (rəsmi sənədləri, dövlət təltiflərini, möhürləri, ştampları, blankları saxtalaşdırma, hazırlama, satma və ya saxta sənədlərdən istifadə etmə) maddələri ilə cinayət işi başlanıb, istintaq hərəkətləri davam etdirilir. E.Nağızadə başlanmış cinayət işi üzrə təqsirləndirilən şəxs qismində cəlb edilməklə barəsində məhkəmənin qərarı ilə həbs-qətimkan tədbiri seçilərək axtarışa verilib. Hazırda onun tutularaq istintaqa cəlb edilməsi istiqamətində zəruri istintaq və əməliyyat-axtarış tədbirləri davam etdirilir.



Elnur Nağızadə

Bakı şəhər sakinləri Vüsal İbrahimov və Zaur Əsgərov hüquq-mühafizə orqanlarına verdikləri şikayət ərizələrində 2015-ci ilin avqust ayında Elnur Nağızadəyə işə düzəlmək məqsədilə 150 min ABŞ dolları verdiklərini bildiriblər. Onlar işlə təmin olunmadıqlarını və pullarını geri ala bilmədiklərini vurğulayıblar.

**Məsələyə münasibət bildirən TQDK sədri Məleykə Abbaszadə qeyd edib ki, bu ilin yanvarında iki nəfər E. Nağızadə ilə bağlı TQDK-ya müraciət edib:** "Biz xidməti araşdırma aparmışdıq. Həmin şikayətlərin TQDK-nın fəaliyyətinə heç bir aidiyyəti yoxdur. Onunla bağlı bütün sənədləri Korrupsiya İdarəsinə göndərmişik. Biz TQDK olaraq maraqlıyıq ki, onun qanuni və ya qeyri-qanuni fəaliyyəti ilə bağlı məsələlər araşdırılsın".



## "Gündəlik Teleqraf" bağlandı - Aynur Camalqızından açıqlama

**"Çap mediasının qeyri-populyar olduğu, kağızın qiymətinin bahalaşdığı bir məqamda "Gündəlik Teleqraf" qəzetinin nəşrinin dayandırılmasını məqbul saydıq".**

Bu sözləri "Gündəlik Teleqraf" Media Qrupunun rəhbəri Aynur Camalqızı "Gündəlik Teleqraf" qəzetinin bağlanması ilə bağlı axar.az-a açıqlamasında səsləndirib.

A.Camalqızının sözlərinə görə, hazırda bütün ölkədə idarətmədə daha çevik mexanizmlər hazırlanır və perspektivli sahələrin inkişaf etdirilməsi prioritetə çevrilib: "Onlayn medianın çap mediasını bir neçə dəfə üstələdiyini və çevikliyi, informasiya operativliyi baxımından hətta televiziyaları qabaqladığı bir zamanda biz də media qrupuna daxil olan saytların imkanlarını genişləndirmək, ənənəvi mediadan imtina etmək qərarı verdik. Bildiyiniz kimi, onlayn media dünyanın istənilən yerindən əlçatandır və ölkə həqiqətlərinin təbliğ edilməsində müstəsna rol oynayır. Cənab Prezident İlham Əliyev də medianın 140 illik yubileyindəki çıxışında onlayn medianın imkanlarını yüksək qiymətləndirdi və ana dilində olan saytların xarici dillərdə versiyalarının fəaliyyət göstərməsini tövsiyə etdi. Bu tövsiyəyə uyğun olaraq, hazırda media qrupumuza daxil olan axar.az saytının rus və ingilis versiyaları da mövcuddur. "Gündəlik Teleqraf" qəzetinin onlayn versiyası olan teleqraf.com, həmçinin fəaliyyətə başladığı ilk gündən böyük oxucu auditoriyası qazanan publika.az-ın imkanlarını da genişləndirməkdə davam edirik".

**A.Camalqızı müəyyən struktur islahatları aparıldığını da bildirib:** "Bütün islahatlar əlbəttə ki, saytlarımızın daha çevik, mobil və operativ işləməsi üçündür və hazırkı vəziyyətə uyğun buna da nail olacağıq".

## Mərkəzi Bank lisenziyası ləğv edilmiş daha bir bankı məhkəməyə verib

### "Bank of Azerbaijan" qərara qarşı çıxaraq şikayət verib, bank fəaliyyətini bərpa edə bilər...

**Azərbaycan Mərkəzi Bankı (AMB) lisenziyası ləğv edilmiş "Bank of Azerbaijan" Açıq Səhmdar Cəmiyyətini (ASC) məhkəməyə verib. AMB ASC-nin iflas prosedurunun başlanması barədə tələb irəli sürüb. 1 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsi ərizəni təmin edib. Qərardan narazı qalan "Bank of Azerbaijan" ASC-nin səhmdarlarının nümayəndəsi apelyasiya şikayəti verib. İşə Bakı Apelyasiya Məhkəməsində baxılacaq.**

Qeyd edək ki, bu ilin yanvar ayında Mərkəzi Bankın İdarə Heyətinin qərarı ilə məcmu kapitalın minimum məbləği tələbinə əməl etmədiyinə, məcmu kapitalının adekvatlıq əmsalının 3 faizdən az olduğuna, kreditorları qarşısında öhdəliklərini icra edə bilmədiyinə, cari fəaliyyətini etibarlı və prudensial qaydada idarə etmədiyinə görə "Bank of Azerbaijan" ASC-nin bank lisenziyası ləğv edilib. "Banklar haqqında" Qanunun 51-ci və 52-ci maddələrinə uyğun olaraq bu gündən banka müvəqqəti inzibatçı təyin edilib. ASC-də Əmanətlərin Sığortalanması Fondu tərəfindən əhalinin qorunan əmanətləri üzrə qanunvericiliyə müvafiq olaraq kompensasiyaların ödənişi həyata keçiriləcək.

Ekspert Əkrəm Həsənov isə məsələ ilə bağlı musavat.com-a açıqlamasında bildirib ki, bütün bağlanan banklarla bağlı Mərkəzi bank eyni addımı atır. Ancaq "Bank of Azerbaijan"ın şikayət verməsi bankın fəaliyyətinin bərpa edilməsi ehtimallarını artırır. "Bütün banklar üzrə Mərkəzi Bank bu cür müraciət edir. Bank iki halda fəaliyyətini dayandırır. Mərkəzi Bank bankın lisenziyasını alır, bir də bank müflis olur. Bunlar tamam başqa prosedurlardır. Bank lisenziyasının alınması o halda olur ki, bank qanunvericiliyin hansısa tələblərini pozur. Amma ola bilər müflis deyil, vəsaiti çoxdur. Sadəcə, Mərkəzi Bankın göstərişlərini saymır. İkinci əsas odur ki, bank müflisdir. Yəni gözləntiləri icra edə bilmir. Bu haqda qərarı Mərkəzi Bank verə bilməz, məhkəməyə müraciət edir. İndiki halda "Bank of Azerbaijan" qərarla razı deyil və şikayət verib. Ola bilsin, "Bank of Azerbaijan" fəaliyyətini bərpa etmək istəyir. Belə çıxır ki, "Bank of Azerbaijan"ın səhmdarları Mərkəzi Bankın qərarı ilə razı deyillər".

❑ RÖYA

**Başsağlığı**

**Nəsir Əhmədli və Ehtiram İlham professor Məhərrəm Qasımlıya anası Zərri xanımın vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.**



## QHT Şurasındakı seçkilərdə ən çox səsi Azay Quliyev topladı

**Martın 14-də Prezident yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası üzvlüyünə "Təhsil, elm və mədəniyyət" qrupu üzrə seçki keçirilib.**

İclasa açıq səsvermə ilə Məhərrəm Zülfüqarlı sədr, Venera Əsgərova isə katib seçilib. Sonra say komissiyasının 3 nəfərdən ibarət tərkibi müəyyən edilib. Məhərrəm Zülfüqarlı iclasda qeydə alınmış 100 QHT nümayəndəsindən 98-nin iştirak etdiyini deyib və təşkilati-texniki işlər haqqında məlumat verib.

Şura üzvlüyünə namizədlər "XXI Əsr Təhsil Mərkəzi" İctimai Birliyinin sədri Etibar Əliyev, "İntellekt" Elmi-texniki İnkişafa Dəstək İctimai Birliyinin sədri Yasin Kərimov, Beynəlxalq Əməkdaşlıq Mərkəzi İctimai Birliyinin sədri Azay Quliyev, "Balans" İqtisadi Maarifləndirmə İctimai Birliyinin sədri Möhübbəli Nağıyev, "Yaxım" Assosiasiyasının prezidenti Yaşar Zeynalov iclasda çıxış ediblər. Etibar Əliyev namizədliyini Azay Quliyevin xeyrinə geri götürdüyünü açıqlayıb.

Səsvermədən sonra nəticələr açıqlanıb. Ən çox səs toplayan ilk 3 nəfər Azay Quliyev (95 səs), Yaşar Zeynalov ( 15 səs) və Yasin Kərimov (10 səs) olub.

Qeyd edək ki, sabah "Gənclər və vətənpərvərlik tərbiyəsi" qrupu üzrə seçkilər keçiriləcək.

## Qardaş bacısına elçi gələn şəxsi bıçaqladı

**Ağdamda baş verən insidentin təfərrüatı açıqlanıb. APA-nın məlumatına görə, dünən İmamqulubəyli məcburi köçkün qəsəbəsində yaşayan Papravənd kəndindən məcburi köçkün Sərxan Süleymanovun intihara cəhd etməzdən əvvəl bıçaqlanma hadisəsi törətdiyi məlum olub. S. Süleymanov Göyçay rayon sakini olan Nəsib adlı şəxsə 4 bıçaq zərbəsi vurub. Həmin şəxs xəstəxanaya yerləşdirilib.**

Göyçay rayon sakininin ailə üzvləri ilə birgə S. Süleymanovun bacısına elçi gəldiyi bildirilib. Yaxınlarından birinin yenicə dünyasını dəyişdiyini, yas saxladıqlarını deyən Sərxan əsəbiləşərək onu bıçaqlayıb.

Qeyd edək ki, dünən İmamqulubəyli məcburi köçkün qəsəbəsində yaşayan Papravənd kəndindən məcburi köçkün Sərxan Süleymanov ov tüfəngi ilə özünə atəş açacağını bildirib.

Hadisə yerinə gələn polis əməkdaşları onu fikrindən daşındırmağa cəhd ediblər. Danışıqlardan sonra S. Süleymanov silahı polislərə təqdim edib.

İntihar cəhdini qəsəbə sakinlərindən biri ilə aralarında yaranan münaqişə ilə əlaqələndirən S. Süleymanov rayon polis şöbəsinə aparılıb.

Ağdam Rayon Polis Şöbəsindən verilən məlumata görə, Sərxan Süleymanov intihara cəhdinin dəqiq səbəbini həlalik açıqlamır. Ağdam sakinin etirazına səbəb olan şəxsin axtarışı elan olunub.



Yazarımız Tofiq Yaqubluya Azadlıq!



# Bu gün Artur Rasi-zadə hesabat verəcək

## Parlamentdə 10-a yaxın yeni təhsil qanunu qəbul olunacaq

**Martın 15-də Milli Məclisdə Azərbaycan Nazirlər Kabinetinin 2015-ci il üzrə fəaliyyəti haqqında hesabatı dinləniləcək. Parlamentdən verilən məlumata görə, bu gün keçiriləcək plenar iclasda baş nazir Artur Rasi-zadə deputatlar qarşısında hökumətin illik fəaliyyəti barədə hesabatı təqdim edəcək, sonra isə sənəd müzakirə olunacaq.**

Martın 14-də isə parlamentin Elm və təhsil komitəsinin iclası keçirilib. Komitə sədri İsa Həbibbəyli sözügedən komitənin iclasında deyib ki, parlamentdə 10-a yaxın yeni təhsil qanunları qəbul olunacaq. Onun sözlərinə görə, "Məktəbəqədər təhsil haqqında" qanun layihəsinin hazırlanması və qəbulundan sonra təhsillə bağlı daha bir neçə qanun layihəsi nəzərdə tutulur. Deputat bildirib ki, yeni yaradılacaq qanun layihələrindən biri də "Peşə-ixtisas təhsili haqqında" qanun layihəsidir. "Biz belə bir qanun layihəsini də hazırlamağı və gələcəkdə onu müzakirələrə təqdim etməyi nəzərdə tuturuq. Ancaq təbii ki, dediyim kimi, "Məktəbəqədər təhsil haqqında" qanunun qəbulundan sonra. Belə bir qanuna da böyük ehtiyac duyulur".

"Uşaq bağçalarının, bütövlükdə məktəbəqədər təhsil müəssisələrinin yenidən Təhsil Nazirliyinin tabeçiliyinə qaytarılması məsələsindən söhbət getmir və indilikdə belə bir məsələ də yoxdur". Modern.az xəbər verir ki, bunu parlamentin Elm və təhsil komitəsinin sədri İsa Həbibbəyli sözügedən komitənin iclasında "Məktəbəqədər təhsil haqqında" qanun layihəsinin hazırlanması üzrə İşçi Qrupunun yaradılması məsələsinin müzakirəsi zamanı deyib. Komitə sədri belə bir məsələnin və iddianın ortaya çıxmasında daha çox medianı, bəzi KİV-ləri ittiham edib. "Belə bir məsələ yoxdur, belə bir məsələdən söhbət gedə bilməz və indilikdə bu məsələnin ortaya atılması da düzgün deyil".

İ.Həbibbəyli xatırladıb ki, ümumiyyətlə, Azərbaycanda hazırda 3 növ məktəbəqədər təhsil müəssisəsi var- dövlət, bələdiyyə və özəl məktəbəqədər təhsil müəssisələri. "Ancaq dünyada bunun növləri çoxdur - günərzi, ailə tipli məktəbəqədər təhsil müəssisələri və sair. Gələcəkdə, yeni məktəbəqədər təhsillə bağlı qanunun qəbulu və onun icrası ilə bağlı mexanizmlərin ortaya qoyulmasından sonra bizdə də yeni növ məktəbəqədər təhsil müəssisələri yaradıla bilər. Yəni demək istəyirəm ki, uşaq bağçalarının, məktəbəqədər təhsil müəssisələrinin də indilikdə Təhsil Nazirliyinin tabeçiliyinə qaytarılması ilə bağlı konkret mexanizmlər yoxdur. Bu məsələ hazırlanacaq yeni qanun layihəsinin də predmeti deyil. Bu məsələ dövlət başçısının sərəncamı və fərmanı ilə həll olunan bir məsələdir. Ona görə də media bu məsələdə tələskənliyə, çaşbaşlıq yaranmasına yol verməməlidir".



❑ **ELŞAD**



# Bu gün ilxır çərşənbədir

## Küsülülər barışsın..

Bu gün Novruz bayramının sonuncu çərşənbəsi-Torpaq çərşənbəsidir. Sonuncu, həm də ilaxır çərşənbədə bağ-bostan, dirrik yerləri əkinə hazırlanır. Evlərdə süfrəyə yaşıllıq nişanəsi, təbiətin canlanmasının rəmzi olan səməni qoyulur. Axır çərşənbədə yaşından və cinsindən asılı olmayaraq hamı tonqalın üstündən tullanmalıdır, özü də yeddi dəfə, ya bir tonqalın üstündən yeddi dəfə və ya yeddi tonqalın hərəsinin üstündən bir dəfə.

Deyilənə görə, axırıncı çərşənbə gecəsi bütün axar sular dayanır və hamı ona səcdə edir, hətta da ağaclar da başını yerə əyib qalxırlar. İlin axır çərşənbə gecəsini öz evində qeyd etməlisən. Əks halda, Novruzu yeddi il dalbadal başqa yerdə qarşılayacaqsan.

İlaxır çərşənbədə bütün günü davam edən mərasim axşam şənlikləri ilə daha da gurlaşır. Axşam qulaq falları qurulur. Subaylar qonşu evlərin qapısının arxasında gizlənərək ilk eşitdikləri sözə uyğun təzə ildə onları gözləyən hadisələri öncədən bilməyə çalışırlar. Bu səbəbdəndir ki, axırıncı çərşənbə axşamı yalnız yaxşı sözlər danışılması adət hesab olunur. Bayram günü ən çox görülən işlərdən biri də müxtəlif fallardır. Bu fallara adətən gənc qızlar baxırlar. Düzdür, bu adət-ənənələr əvvəlki illərə nisbətən azalıb.

**Öz uşaqlıq, gənclik illərində keçirilən çərşənbələri, Novruz bayramını xatırlayan xalq şairi Fikrət Qoca yeniyetməlik, gənclik illəri müharibə illərindən sonrakı dövrə təsadüf etsə də, kəndlərində əsl bayram əhval-ruhiyyəsinin yaşandığını dedi:** "Bizim kənddə, Ağdaş rayonunun Kotanarx kəndində müharibədən sonrakı dövrlərdə aclıq, səfalət idi. Ancaq bütün çətinliklərə baxmayaraq hər kəsin üzündə bayram sevinci olardı. İnsanlar sevinirdi ki, havalar isinir, yaz gəlir. Hamı bir yerə yığışırdı. Bu bayram indiki kimi qarşılanmırdı, göydəndüşmə bir xoşbəxtlik kimi qarşılanırdı. Hamı kəndin ortasına yığışırdı. Uşaqlar simlər dolayır, tonqal qalayırdıq. Həyətdə oynamağa, tonqal üstündən tullanmağa başlayırdı. Heç kim gileylənmirdi ki, aclıq səfalətdir. Bütün kənd camaatı evində nə varsa gətirirdi və ümumi bir süfrə açırdıq. Hər kəs gətirib xonça qoyurdu. Kim nə bacarırdısa, bişirib gətirib ortalığa qoyurdu. Hamı oturub bəzən iki adama bir boşqab qoyub böyüklü-kiçikli bu təamlardan yeyirdik. Axşam olanda da uşaqlar qaçışıb oynayır, böyüklər isə söhbət edir, hətta oxuyub oynayırdılar. O vaxt heç musiqi alətləri də yox idi, ləyəndə çalırdılar. O vaxt şənlik vardı. Hamı bir-birini tanıyırdı. İndiki kimi deyildi. İndi heç məşəl də yoxdur. İndi bayramı dövlət keçirir. Bizim kənddə küsülülər olmazdı. Küsülü olanlar da Novruz bayramını gözləyər və bu bayramda mütləq barışardı. Bir nəfər də olsa küsülü qalmazdı. Çünki onlar inanırdılar ki, əgər kimləsə küsülü bayramı qeyd etsələr, gələn illəri qaranlıq gələr".

❑ **Günel MANAFLI**

# Dələduzluq cinayətləri niyə artıb?

## Vəkil: "Ağır sosial-iqtisadi durum dələduzluq cinayətlərinin intensivləşməsində katalizator rolunu oynayır"

**Azərbaycanda sosial-iqtisadi durumun səviyyəsinin düşməsi cinayətlərin sayının artmasına gətirib çıxarır. Xüsusən dələduzluq cinayətlərinin çoxalması diqqəti cəlb edir. Dələduzluq cinayətləri ilə əlaqəli xəbərlərin baş qəhrəmanı kimi tanınmışların adları keçir. Hətta bu növ cinayətkarlıqla bağlı məsələ o qədər böyüyüb ki, Ali Məhkəmədə də müzakirəyə çıxarılıb. Bir neçə ay əvvəl baş tutan müzakirələrdə Ali Məhkəmənin sədri Ramiz Rzayev, ədliyyə naziri Fikrət Məmmədov, baş prokuror Zakir Qaralov, Prezident Administrasiyasının hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri Fuad Ələsgərov, apelyasiya, ağır cinayətlər məhkəmələrinin, bir sıra rayon məhkəmələri sədrləri və hakimlər iştirak ediblər. Bildirilib ki, son 3-4 il ərzində birinci instansiya məhkəmələrində dələduzluq cinayətləri ilə bağlı baxılan işlərin sayı 2 dəfədən çox artıb.**



Dələduzluq cinayətlərinin sayı niyə çoxalıb?

Cinayətkarlığın bu növünü tətikləyən sosial-psixoloji səbəblər nədir?

**Tanınmış vəkil Ceyhun Yusifov** deyir ki, dələduzluq cinayətlərinin artmasının bir çox obyektiv və subyektiv səbəbləri var: "Ağır sosial-iqtisadi durum amili dələduzluq cinayətlərinin intensivləşməsində katalizator rolunu oynayır. Sosial durum nə qədər ağırdırsa, bu növ cinayətkarlığın artması da labüddür. Bunun bir neçə səbəbi var. Hüquq maarifləndirilməsi kifayət qədər deyil, hüquq normaları sərtdir. Vətəndaş hüququna çatmaq üçün çox çətin prosedurlardan keçmək məcburiyyəti ilə üz-üzə qalır. Odur ki, qanundan kənarda rahat yol axtarmağa başlayır. Bu halda vətəndaşın dələduzun ağuşuna rahat şəkildə düşüb pul-parasından, mal-mülkündən olmasını da elə qanunlarımızın sərtliyi şərtləndirir. Vətəndaş hüququna çatmaq üçün əl atdığı yolun qanunsuz olduğunu tam şəkildə dərk etmiş olsa da, qanunsuz sövdələşmədən çəkinmir. Belə hallar son vaxtlar demək olar ki, kütləvi xarakter daşıyır. Daha çox MTK-larla bağlanan müqavilələrdə, torpaq sahəsi ilə bağlı əqdlərdə öz əksini tapır".

**Vəkil deyir ki, bir çox hallarda hüquq-mühafizə orqanları, məhkəmələr dələduzluq əməllərinə qarşı mübarizə aparsa da, bu növ cinayətkarlığın geniş yayıldığı sahələr üzrə qabaqlayıcı addımlar atmaq haqda düşünmək belə istəmirlər:** "Mənzil Tikinti Kooperativləri (MTK) dələduzluq yuvasına çevrilib. İllərdir ki, Azərbaycan vətəndaşlarını MTK-lar kütləvi şəkildə aldadır. İnsanlar qəpik-qəpik topladıqları pulu aparıb MTK-ya verir və dələduzluğun qurbanı olur. İsti, rahat ev almaq arzusu vətəndaşın dövlət qurumlarının qapısına gedib-gəldiyi müddətdə ayaqqabıları altında itib aradan çıxır. Belə kütləvi aldadılmaların qarşısını almağın çox sadə yolu var. Bakı Şəhər İcra Hakimiyyətinin Kooperativlər İdarəsi mövcuddur. Hazırda bu qurum formal bir qurumdur, MTK-ların fəaliyyətinə heç bir inzibat-ictimai təsiri mövcud deyil. Bu qurumu işlək hala gətirməklə minlərlə vətəndaşı dələduzların ağuşuna düşməkdən qorumaq olar. Məsələn, hər bir MTK fiziki və hüquqi şəxslə alqı-satqı müqaviləsi bağlayarkən mütləq qaydada həmin müqavilələrin inzibati üsulla BŞİH-in Kooperativlər İdarəsində reyestri aparılmalıdır. Şəxslər hər hansı bir MTK-dan daşınmaz əmlak alarkən həmin sahənin MTK-nın balansında olması və alqı-satqının predmeti olmasına dair arayış verilsin, bundan sonra şəxs həmin vəsaiti MTK-nın bank hesabına köçürsün. Maraqlı məqamlardan biri də Mülki Məcəllənin normalarının hələ də tətbiq edilməməsi ilə bağlıdır. Bu qədər vətəndaşın hüququnu pozan hallara bir növ seyrçi mövqeyindən baxmaqdansa, müvafiq qurumların öz vəzifələrinə məsuliyyətlə yanaşmağa məcbur edilməlidir. Qanunda daşınmaz əmlakın əvvəlcədən qeydiyyatı deyilən anlayış var və bu anlayış tətbiq edilmir. Məgər vətəndaşın almaq istədiyi mənzili əvvəlcədən daşınmaz əmlak kimi qeydə almaq olmaz? Əgər həmin normaların tətbiqi vaxtında baş vermiş olsaydı, bu qədər vətəndaş dələduzluğun qurbanı olaraq bu dərəcədə çarəsiz duruma düşməzdi!"

**Vəkil deyir ki, bələdiyyələrin mülkiyyətində olan torpaqlarla bağlı da qanundakı boşluqlar son nəticədə vətəndaşın dələduzluqla üz-üzə qalmasına səbəb olur.**

**C.Yusifov hesab edir ki, dələduzlara verilən cəza onların islah olunmasına az təsir edir:** "Cəza əmələ verilən adekvat cavabdır, bununla da bir növ cəmiyyətə mesaj verilir ki, cinayət törədən şəxs cəzalandı. Dələduzluqla əlaqəli cinayətlərdə isə bir növ əməlin aqibətinin ifşasına hesablanmış inzibati davranışdır. Eyni zamanda dələduzluqla bağlı tövsifedici əlamətlərin özü də mütərəqqi deyil. Yəni bir növ bu norma ilə verilən cəza əksər hallarda məqsədinə çatmır".

❑ **E.MƏMMƏDƏLİYEV**



# Eyxman kimi asılmadı, Napoleon kimi yaşayır

Xalid KAZIMLI

**İndi oturub Türkiyə dövləti rəhbərliyinin PKK terroru ilə mübarizədə buraxdığı səhvləri uzun-uzadı müzakirə etməklə bir nəticəyə varmaq mümkün deyil.**

Bu mövzuya baxışlar müxtəlif olacaq, ortalığa yüzlərlə arqument, tezis və antitezlər töküləcək və kələf çox dolaşacaq.

Ortada olan budur ki, o səhvlər çox ciddi olub və bugünlərdə baş verən hadisələrə, müdhiş terror aktlarına gətirib çıxarıb.

O səhvlər o qədər böyük olub ki, Türkiyə kimi demokratiya və insan haqları sahəsində ildən-ilə əmin addımlarla irəliləyən ölkə artıq Pakistana dönüb, hələ bununla da qalmayıb, avtoritarizmin bir addımlığındadır.

Türkiyədə terror ötən əsrin 80-ci illərindən əvvəl də vardı, o vaxtdan sonra daha da şiddətləndi. Amma bir neçə il öncəyə qədər terrorla mübarizə daha effektiv idi.

17 il öncə Türkiyə dövlətinin qətiyyətli liderləri terrorçubaşı Öcalana dünyanı dar etdilər, Suriya-Rusiya-Yunanıstan-İtaliya-Keniya marşrutu ilə qaçıb canını qurtarmağa çalışan Aponu tutub Türkiyəyə gətirtdilər.

O zaman Türkiyə dövləti PKK liderini mənən sındırmış, onu edamdan yaxa qurtarmaq üçün öz yoldaşlarını keçi qiymətinə satan satqına, bir qaşıq qanından qorxub yalvaran qorxağa, dövlətə işləməyə hazır olan dönüyə çevirmişdi. Öz qurduğu təşkilatı, eləcə də "kürd millətçiliyi" ideyası ətrafında birləşən fanatiklər ordusu ondan üz döndərməyə hazır idi.

Bircə qalırdı Aponu mühakimə etdikdən sonra terrorçu kimi, gününü bildirmədən edam etmək və külünü dənizlərə sovurmaq (məzarı ibadət yerinə çevrilməsin deyə). Bu, baş versəydi, PKK liderini fetişləşdirənlərlə yanaşı, onun personasına ikrahla yanaşanlar da olacaqdı.

Ancaq Türkiyə dövlətinin yeni rəhbərliyi bunu etmədi. Öcalanı tutub ölkəyə gətirən rəhbərlik iş başından getdikdən sonra onu qolubağlı dustaq olaraq təhvil alan hökumət qüdrətli dövlətlərin təzyiqi ilə qatil terrorçubaşının canını bağışladı. Bu, böyük səhv idi.

ABŞ-da olsaydı, bu adamı əfv etməzdilər, elektrik stulunda oturdub canı çıxana qədər titrədərdilər. İsraildə olsaydı, Öcalan bu ölkənin tarixində nasist Eyxmandan sonra edam olunan ikinci qatil olardı. *(Ya da onu ümumiyyətlə tutmaz, ilk gördükləri yerdə, məhkəməsiz-filansız məhv edərdilər).* İngiltərə də, Fransa da, Almaniya da onunla yumşaq davranmazdı.

Türkiyənin məhkəmə hakimiyyəti Öcalana ömürlük cəza kəssə də, hökumət onunla Müqəddəs Yelena adasına sürgün edilmiş Napoleon Bonapart kimi davrandı - adamı xüsusi adada saxladılar, sərəncamına nökər-naib verdilər, bir neçə otaqdan ibarət mənzillə təmin etdilər, yanına gəlib-gedənlərə məhdudiyyət qoymadılar və s.

Bu minvalla satqınlığına, qorxaqlığına görə kürd xalqının gözündən düşmüş Apo yavaş-yavaş öz nüfuzunu bərpa etdi. Xalq gördü ki, dövlət bu şəxslə hesablaşır, ona görə də onun ətrafında daha da sıx birləşdi.

Bu böyük səhvdən sonra buraxılan ikinci səhv baş nazir (hazırkı prezident) Ərdoğanın öz şəxsi hakimiyyətini daha da gücləndirmək və kürd xalqından səs almaq üçün yeritdiyi "kürd açılımı" siyasəti oldu. "Analar ağlamasın", "axan qan dursun", "göz yaşları qurusun" deyə başladılan sülh prosesində PKK-nın əli-qolu açıldı, dünənki terrorçular meqapolislərlə daraşdılar, partiya üzvü oldular, iş qurdular, eyni zamanda silahlanmaqda, sursat toplayıb depolamaqda davam etdilər.

Bununla paralel, vaxtilə Aponu tutub ölkəyə gətirənlər, kürd separatizminin önündə duran hərbçilər repressiya edildilər, ordunun əli-qolu bağlandı, döyüş ruhu öldürüldü.

Bir gün belə bir acı həqiqət ortaya çıxdı ki, artıq PKK dağlardakı mağaralardan enib və iri şəhərlərdəki villalarda özlərinə komfortlu şərait qurublar, amma eyni döyüşkən ruhdadırlar.

Məhz ona görə qos-qoca Türkiyə ordusu adi bir qəsəbəni terrorçulardan təmizləmək üçün yüzlərlə şəhid verdi və bu, 100 gündən artıq vaxt apardı.

Halbuki bu müddət ərzində Türkiyə orta boylu bir xarici dövlətə müdaxilə etsəydi, onun paytaxtını işğal edər, tam və qəti qələbə qazana bilərdi.

Martın 13-də baş vermiş dəhşətli terror aktının xarici sifarişçilərinin hansı dairə olmasından asılı olmayaraq, bu teraktın PKK-nın əl işi olması şübhə doğurmur. Dəst-xətt eynidir. PKK maşa ola bilər, amma o da ona maddi, hərbi, siyasi dəstək verənlərdən istifadə edir, bu cinayətləri "azad Kürdüstan" naminə törədir.

Türkiyə rəhbərliyi vaxtında qonşuya baxaraq, görməliydilər ki, Rusiya çeçen separatizminin öhdəsindən necə gəldi.

# Əfv həftəsi...

**Məhbus ailələri, ictimai-siyasi təşkilatlar həftəsonu veriləcək əfv sərəncamını səbirsizliklə gözləyirlər. Məlumata görə, əfv sərəncamının martın 17-si və ya 18-də imzalanacağı gözlənilir.**

Əfv Komissiyası və siyasi məhbuslarla bağlı siyahı hazırlayan hüquq müdafiə təşkilatları işlərini ötən həftə yekunlaşdıraraq, ölkə başçısının qərarını gözləyirlər. İnsan Haqları üzrə Birgə İşçi Qrupu 22 nəfərlik siyasi məhbus siyahısını Əfv Komissiyasına göndərib. Qurum Yeni ildəki siyahısına əlavələr etməyib. Əfv Komissiyası isə 500-ə yaxın məhbusun müraciətinə baxaraq, onların içərisindən 200-dək məhbusun adını prezidentə təqdim edib. Siyasi məhbus ailələrinin də əfvlə bağlı gözləntiləri böyükdür.

Onu da qeyd edək ki, qarşıdan gələn Novruz əfvini əvvəlki illərdə verilən sərəncamlardan müsbətə doğru fərqləndirən bir sıra səbəblər var. Öncəliklə hazırkı vəziyyətdə Azərbaycanla Qərb arasındakı münasibətlərdə yumşalma var. Hər keçən gün münasibətlər daha da istiləşir. Digər səbəblərdən biri də martın sonu, aprelin əvvəllərində nüvə sammiti çərçivəsində Azərbaycan prezidentinin ABŞ-a gözlənilən səfəridir. Ekspertlər Azərbaycan prezidentinin Qərbə səfərindən öncə qənaətbəxş əfv imzalayacağını proqnozlaşdırırlar. Hakimiyyət Qərblə münasibətlərdə siyasi məhbus probleminin həllinin böyük önəm kəsb etdiyini bilməmiş deyil.



**Rəşad Məcid: "Bayrama qədər istənilən gün əfv gözləmək olar"**



**Səadət Bənəniyarlı: "Hamını sevindirəcək əfv sərəncamı veriləcək"**

**Əfv Komissiyasının üzvü, "525-ci qəzet"in baş redaktoru Rəşad Məcid "Yeni Müsavat"a açıqlamasında həftəsonunda əfvin veriləcəyini bildirdi:** "Əfv sərəncamını gözləyirik. Prezidentin fərmanı çıxandan sonra onun əsasında daha ətraflı danışmaq mümkün olacaq. Bugünlərdə əfv veriləcək. Biz işimizi gördük. Son qərar ölkə başçısınındır. Siyahıya əlavələr də ola bilər. Bu, prezidentin müstəsna səlahiyyətidir. Yəqin ki, Novruz bayramına qədər əfv olacaq. Bu da həftəsonuna təsadüf edir. Bayrama qədər istənilən gün əfv gözləmək olar".

**İnsan Haqları üzrə Birgə İşçi Qrupunun üzvü Səadət Bənəniyarlı da bu həftə əfv gözlədiklərini qeyd etdi:** "İnanırıq ki, həftəsonu hamını sevindirəcək əfv sərəncamı veriləcək. Əfv Komissiyasının indiki vəziyyətdə fəaliyyəti ilə bağlı hər hansı bir fikir bildirmək doğru olmazdı. Sərəncam verilsin, ondan sonra komissiyasının işinin müsbət olub-olmaması ilə bağlı mövqe söyləmək olar".

Xatırladaq ki, sonuncu əfv fərmanı Yeni ildə imzalanıb. Fərman ictimaiyyətin gözlədiyi kimi olmayıb. Təsadüfi deyil ki, həmin sərəncamla bir nəfər siyasi məhbus belə azadlığa buraxılmamışdı. Çoxları bunu ötən ilin dekabrının sonlarında Qərbdən gələn məlum təzyiqlərlə əlaqələndirmişdilər. İndi isə hələ ki Qərbdən təzyiqlər gəlməyib və Novruza qədər olmayacağı ehtimalı da böyükdür. Gözləyək...

❑ Cavanşir ABBASLI

# İcra başçılarının "yarpaq tökümü" niyə dayandı?

**Martın ilk həftəsində ölkə başçısının sərəncamları ilə Cəbrayıl, Laçın və Salyan rayonlarının icra başçıları vəzifələrindən azad olundular, Yardımlının icra başçısı isə Salyana rəhbər gətirildi.**

Bu prosesin davamlı olacağı, hakimiyyətin kadr islahatlarına başladığı deyilirdi. Xalqın narazı olduğu icra başçılarının bir-birinin ardınca vəzifələrindən uzaqlaşdırılacağına inam yaranmışdı. Hətta vəzifələrini itirəcək icra başçılarının adları da mətbuatda hallanmağa başladı. Amma prosesin dayandığını desək, yanılmarıq.

Ekspertlərin icra başçılarının "təmizlənməsi" islahatları ilə bağlı proqnozlarında ikitirəlik yaranıb. Onların bəziləri hesab edirlər ki, Azərbaycan hakimiyyəti bu prosesi mərhələli şəkildə aparmaq istədiyinə görə hələlik fasilə verib. Bir qisim isə iddia edir ki, ölkə iqtidarı kütləvi şəkildə rayon rəhbərlərini vəzifələrindən uzaqlaşdırmaqdan ehtiyatlanır, daxildə narazılıqlar baş qaldıra bilər. Çünki hər rayonun icra başçısı konkret hakimiyyətdaxili müəyyən qruplara bağlıdır...

**Deputat Fərəc Quliyev bildirdi ki, icra başçılarının vəzifələrindən uzaqlaşdırılmaları kampaniya xarakterli deyil:** "Hər hansı bir məmur işinin öhdəsindən gəlmirsə, müvafiq cəzasını almalıdır. Belə şəxslər nazir, icra başçıları və hər hansı bir səlahiyyətli məmur ola bilər. İşini yerinə yetirə bilməyənlər vəzifələrini itirirlər, hətta həbs belə olunurlar. İcra başçılarının çıxarılmasından 10 gün keçib və yenilərinin çıxarılmamasını faciəyə çevirmək lazım deyil. Çünki bu proses kampaniya xarakteri daşımır. İslahatlar paketi ortaya qoyulubsa, müəyyən şəxslər vəzifələrindən azad olunursa, bu prosesə mane olanların zərərsizləşdirilməsi prosesi aparılırsa, inanıram ki, ölkə başçısı tərəfindən davamlı olacaq. Kimliyindən mane olmayaraq, bu prosesə mane olmaq istəyənlərin cəzalandırılması qaçılmazdır. Kimlərin işdən azad olunub-olunmaması ilə bağlı konkret fikir söyləyə bilmərəm. Çünki bu, prezidentin müstəsna səlahiyyətidir".



**Fərəc Quliyev: "İcra başçılarının vəzifələrindən uzaqlaşdırılmaları kampaniya xarakterli deyil"**



**Natiq Miri: "Hakimiyyətin hətta istənilən naziri bir anda bitirmək şansları var"**

**Deputat bir çox məmurların dəyişdirilməsinə ehtiyacın olduğunu da qeyd etdi:** "İslahatlara hazır olmayan, Azərbaycanın inkişafına mane olan, yeni dövrün çağırışlarına uyuşmayan bacarıqsız məmurlar var. Bu şəxslər heç gizlədilmir də. Bu baxımdan bəzi məmurların vəzifələrindən uzaqlaşdırılması prosesi davam edəcək. Başqa yol da yoxdur. Amma bu prosesin kampaniya xarakteri olması məqsədəuyğun olmazdı. Hamımız Azərbaycan vətəndaşıyıq. Hər gün keçən həyatımızda neqativləri biz də yaşayırıq. Hamımızın arzumuzdur ki, Azərbaycan oturuşmuş demokratik dövlətə çevrilsin. Bu baxımdan korrupsiyaya qurşanan məmurların "təmizlənməsi"nə ehtiyac var. Prezidentin bu kursu davam etdirəcəyinə inamım tamdır. Ölkə başçısının çağırışları onu göstərir ki, ortada güclü siyasi iradə var. Həm hakimiyyət daxilində kadrların dəyişdirilməsi, həm çevik idarəetmə sisteminə keçilməsi, cəmiyyətin inkişafı üçün tətbiq olunan qanunlar onu göstərir ki, mane olan personaların proseslərdən kənarda qalmaları labüddür".

**Politoloq Natiq Miri hesab edir ki, icra başçılarının "yarpaq tökümü" prosesi dayanmayıb:** "Amma dəyişmə olmasının müsbət nəticələnəcəyini də düşünmürəm. Çünki bu vəzifəyə təyinatın dəyərləri dəyişməlidir. Bizdə isə tamam fərqli situasiyadır. Hakimiyyətə sadiqlik prosesi, yaxud daxildə müəyyən şəbəkəyə bağlılıq əsas götürülür. Ona görə də həmin icra başçıları xalq üçün çalışmırlar. Təşəbbüskar gənc belə icra başçısı təyin olunsa, müsbət effekti olmayacaq. Ola bilsin ki, sistemvari dəyişiklik nəticəsində bəzi icra başçıları vəzifələrini itirsinlər. Amma indiki vəziyyətdə hakimiyyətin "kadr bankı"nın yetərincə olduğunu düşünmürəm. Bunun olması üçün müəyyən qədər zaman lazımdır".

**Politoloq iqtidarın kütləvi şəkildə icra başçılarını çıxarılması prosesindən ehtiyatlanmadığını düşünür:** "Vəzifəsini itirən istənilən şəxsin hakimiyyətə qarşı çıxmaq lüzumu yoxdur. Çünki zamanında bu tipli şəxslər müəyyən qanunsuzluqlarda iştirakçı olduqlarına görə onların həbs edilmələri an məsələsidir. Ona görə də sabiq məmurlar, sadəcə, susmağa məcbur olurlar. Bu baxımdan hakimiyyətin çıxarılan məmurlarla bağlı əndişəyə düşəcəyini düşünmək doğru deyil. İstənilən naziri belə hakimiyyətin bir anda bitirmək şansı var. Bunları düşünsək, qarşıdakı zamanda icra başçılarından bəzilərinin vəzifələrini itirəcəklərini düşünmək olar. İstənilən rayona gedib, onların bölgələrdə törətdikləri qanunsuzluqların şahidi olmaq olar. Əhali icra başçılarından cana doyub. Ona görə də onların vəzifələrindən uzaqlaşdırılmaları nəinki hakimiyyət üçün təhlükə törədir, əksinə, ictimaiyyət tərəfindən rəğbətlə qarşılanır. Sadəcə, yeni vəzifəyə təyinat alanlar perspektivli, əhalini düşünən olmalıdır".

❑ Cavanşir ABBASLI

**1995-ci ilin martında baş verən "OMON" hadisələrindən 21 il ötür. Həmin il martın 13-də Qazaxdan başlayan proses martın 16-dan 17-nə keçən gecə Bakının 8-ci kilometr qəsəbəsindəki "OMON" qərargahında yekunlaşdı.**

# "OMON" hadisələrinin 21 ili - həbsdə çürüyən ömürlüklər...

## Novella Cəfəroğlu: "Onlar əfv oluna bilərlər"



Elçin Əmiraslanov



Arif Kazımov



Səfa Poladov

Qərargahda baş verən atışmada rəsmi statistikaya görə 22 hərbçi, 7 mülki şəxs, 1 polis əməkdaşı həlak olmuş, Xüsusi Təyinatlı Polis Dəstəsinin 8 əməkdaşı öldürülmüş, 105 nəfər yaralanmışdı. XTPD rəhbəri Rövşən Cavadov isə aldığı güllə yarasından DİN-in hospitalında vəfat etmişdi.

Üstündən 21 il keçməsinə baxmayaraq, hələ də Azərbaycan həbsxanalarında "OMON"-çu məhbuslar var. Həmin dövrün hadisələri zamanı həbs edilənlərdən yalnız üç məhbusdan başqa, qalanları azadlığa buraxılıb. Ömürlərinin ən gözəl illərini həbsxanalara qurban verənlər "OMON"un Qazax bölməsinin rəhbəri olmuş Elçin Əmiraslanov, eləcə də Arif Kazımov, Səfa Poladovdur. İndiyə qədər "OMON"-çu məhbusların, eləcə də onların yaxınlarının dəfələrlə ölkə başçısına bağışlanmaları üçün müraciət etmələrinə baxmayaraq, hələ ki azadlığa çıxmaq onlara nəsib olmayıb. Digər "OMON"-çu məhbusların siyasi məhbus adı ilə azadlığa buraxılmalarına baxmayaraq, bu şəxslərin adları belə siyasi məhbus siyahısına salınmır. Ölkəmizin hüquq müdafiə təşkilatları da hər üç ömürlük "OMON"-çu məhbusu unudublar...

Bir faktı qeyd edək ki, Cənubi Qafqaz ölkələrindən yalnız Azərbaycanda ömürlük məhkumların cəzaları illə əvəzlənməyib. Gürcüstan və Ermənistan ömürlük məhbusların cəzalarını 15 illə əvəzləyib və nəticədə əksər belə məhbuslar azad olunublar. Azərbaycanda da bu cür qərar verilsə, üç "OMON"-çu məhbus başda olmaqla, əksər ömürlük məhbuslarımız azad olunar. Çünki həbs müddətləri 15 ili, hətta 20 ili ötən ömürlüklər kifayət qədərdir...

**İnsan Haqları üzrə Birgə İşçi Qrupunun üzvü Novella Cəfəroğlu "OMON"-çu məhbusların cəzalarının illə əvəzlənməsi üçün çalışdıqlarını bildirdi:** "Bu şəxslərin cəzalarını 15 ilə keçirmək üçün əlimizdən gələni edirik. Onlar 15 ildən çox cəza çəkiblər. Çalışırıq ki, yenidən onların məhkəmələri olsun. Daim onların məsələsini gündəmdə saxlayırıq. Sadəcə olaraq, "OMON"-çu məhbuslarla siyasiləri qarışdırmırıq. Dövlətçilik üçün azacıq da olsa çalışan, müharibədə iştirak edən istənilən şəxsi unutmuruq. Əfv prezidentdən asılıdır. Onlar əfv də oluna bilərlər".

**İşçi Qrupunun digər üzvü Mirvari Qəhrəmanlı hakimiyyətin indiyə qədər bu şəxslərə qarşı qəzəbinin qaldığına inanmadığını qeyd etdi:** "Həmin hadisələrdən uzun zaman keçib. Nəticədə həmin şəxslər ictimaiyyət tərəfindən unudulub. Çox böyük hadisə oldu, Rövşən Cavadov öldürüldü, ölkədə qarışıqlıq yarandı. Amma bununla belə, hakimiyyətin bu şəxslərə qarşı qəzəbinin qaldığını düşünmürəm. Çünki bu insanların sosial bazaları qalmayıb, hökumət üçün təhlükəli deyillər. Onların yaşıdlarının da öz həyatları var. Onların unudulması, sadəcə, acı reallıqdır. Siyasi məhbus siyahısında belə deyillər. Əlahidə "OMON"-çular gedirlər. Hətta onların vəkilləri üçün də vəsaitlər ayrılmır. Ailələri də köməksiz qalıblar. "Yeni Müsavat" qəzetindən başqa bu şəxsləri gündəmə gətirən heç bir orqan yoxdur. Burada günahkar vətəndaş cəmiyyəti və onların yaxınlarıdır. Özümüzü də qınayıram. "Yeni Müsavat"a təşəkkür edirəm".

**Hüquq müdafiəçisi "OMON"-çu məhbusların İşçi Qrupuna müraciət etmələrinin vacibliyini də vurğuladı:** "Çünki xatırlatmalar olmalıdır. Məhkəmələrinin konkret zamanını, həbsdə olduqları müddətdə işləri ilə bağlı bizə lazım olan məlumatları onların yaxınlarından başqa kimsə bilməz. İşçi Qrupunun növbəti iclasında bu məsələni gündəmə çıxarmaq mümkündür. Həvəsdən düşmək olmaz. "OMON"-çu məhbusların özləri daim müraciət etməlidirlər. Xüsusilə Əfv Komissiyasına. Çünki ərizələr həmişə dəyişir, əlavələr olunur. Bütün aidiyyəti orqanlara müraciətlər etmək lazımdır. İnanıram ki, gələcəkdə onlar azad olunacaqlar. Çünki onların yaşları keçib, mühit də dəyişib".

❑ **Cavanşir ABBASLI**

# Borclara görə ölkədə həbslər başlandı - zamin tutuqlandı

## Əkrəm Həsənov: "Qəbul edilmiş qərar Azərbaycanın qoşulduğu beynəlxalq qanunlara ziddir"



Əkrəm Həsənov

**Artıq ölkədə bank borclarına görə həbslərə başlayıb. Bu barədə tanınmış hüquqşünas Əkrəm Həsənov bildirib. Onun sözlərinə görə, 11 mart tarixdə Səbayel Rayon Məhkəməsinin hakimi Rauf Əhmədov 28 yaşlı Vahid Kərimovu zamin olduğu kredit borcuna görə 10 gün müddətinə həbs edib: "İşin qısa mahiyyəti belədir. Bir vətəndaşın "Rabitəbank"a 7225,7 manat borcu var. Həmin borc üzrə girov da var. Üstəlik, 3 zamin də var. Zaminlərdən biri cümə günü həbs edilən Vahid Kərimovdur. Kərimovun 2 və 3 yaşında körpə uşağı var. Özü və həyat yoldaşı işləmirlər. Buna baxmayaraq, zamin olduğu borc üzrə birtəhər 200 manat tapıb ödəyib. Borclu və digər zaminlər isə heç nə ödəməyib, onları narahat edən də yoxdur. İcra məmurları girovu hərraca çıxarmağa da tələsmir. Yalnız fağır gördükləri Kərimovu təqib edirlər ki, gəl, filankəsin borcunu ödə. Nəhayət, 11 martda icra məmuru protokol tərtib edərək Kərimova qarşı inzibati xəta haqqında işin icraatına başlayıb. Dərhal da hakim Əhmədov İnzibati Xətalar Məcəlləsinin 528.1-ci maddəsinə ("Məhkəmə və digər orqanların qərarlarının icrası ilə əlaqədar icra məmurunun tələblərinin yerinə yetirilməməsi") əsasən Vahid Kərimovu həbs edib. Bu qanunsuzluqdur! Çünki sözügedən maddəyə görə məsuliyyət yalnız borcun üzürsüz səbəbdən ödənilməməsi halında ola bilər. Hakim qərarının əvvəlində özü Kərimovu "iki azyaşlı uşağı olan, işləməyən" kimi xarakterizə edir. Gəliri olmayan, heç 2 körpəsini saxlamağa pulu olmayan şəxs başqasının borcunu nəyin hesabına ödəməlidir? Gəliri yoxdursa, deməli, məhkəmə qərarını üzürlü səbəbdən icra etmir. Yəni bunu anlamaq belə çətindir hakim üçün? Kərimovun təqsiri nədir?"**

Ekspert bildirir ki, qəbul edilmiş qərar Azərbaycanın qoşulduğu "Mülki və siyasi hüquqlar haqqında beynəlxalq Pakt"ın 11-ci maddəsinin və "Avropa İnsan Hüquqları Konvensiyası"nın 4-cü Protokolunun 1-ci maddəsinin kobud şəkildə pozulmasıdır: "Həmin sənədlərə görə heç kəs yalnız hər hansı bir müqavilə öhdəliyini ödəmək iqtidarında olmadığına görə azadlıqdan məhrum edilə bilməz. Buna görə də iş Avropa Məhkəməsinə getsə, məsələ birmənalı olaraq Kərimovun xeyrinə həll olunacaq. Kərimov elə martın 11-də özü qərardan apelyasiya şikayəti verib. Martın 12-də isə onun ailəsi antikollektora müraciət edib. Vahid Kərimovun vəkiliyəm. Martın 14-də 16.00-da Bakı Apelyasiya Məhkəməsində hakim Qail Məmmədovun sədrliyi ilə apelyasiya şikayətinə baxıldı".

**Vəkil dedi ki, prosesdə hakim onların şikayətini təmin etməyib və vətəndaşı həbsdə saxlayıb:** "Bankın nümayəndəsi bildirdi ki, vətəndaş qeyri-rəsmi işləyir və 300 manat alır. Vətəndaş da bunu təsdiq edir. Mən isə bildirdim ki, onun aldığı bu pul ailəsinə yetmir, yaşayış minimumundan artıq qalmır. Düşünürəm ki, bu, banklar tərəfindən düşünülmüş bir addımdır. Banklar əhalini qorxutmaq istəyirlər ki, borclara görə tutarlar, əsl məqsəd budur. Vətəndaşlara tövsiyəm var ki, bu kimi məsələləri Avropa Məhkəməsinə verməsək, çıxarmaq lazımdır. Avropa Məhkəməsinədək gedəcəyik. Görəsən, qanunları kobud şəkildə pozaraq əhalini narazı salan və Avropa Məhkəməsində dövlətimizin birmənalı uduzacağı işlərə təkan verərək bizi dünyada rüsvay edən kimlərdir? Görəsən, ilk qaranquşun "Rabitəbank" olması təsadüfdürmü? Axı həmin bankın Müşahidə Şurasının sədri Zakir Nuriyev həmçinin Banklar Assosiasiyasının da prezidentidir. Avropa Məhkəməsi birmənalı olaraq deyəcək ki, belə qərarlar qanunsuzdur və bu presendent kəsiləcək. Vətəndaşlar Avropa Məhkəməsinə şikayət verməsələr, belə halların sayı artacaq və banklar əhalinin üstünə gedəcək. Bu, bizim və "Antikollektor" MMC-nin apardığı maarifləndirmə işinə qarşı düşünülmüş bir işdir. Bu gündən elan edirəm ki, özüm və "Antikollektor" MMC borca görə həbs edilən vətəndaşlara tam pulsuz xidmət göstərəcəyik. Avropa Məhkəməsinə də onların şikayətlərini pulsuz hazırlayıb göndərəcəyik. Kimin belə problemi varsa, mütləq bizə müraciət etsin".

❑ **RÖYA**

# Mingəçevirin icra başçısının qalmaqallı avtomobili ilə bağlı yeni xəbərlər

## Niyazi Bayramovun xidməti maşınında görüntülənən xanımın kimliyi ilə bağlı bəzi məlumatlar var; İcra hakimiyyəti ağıllardakı şübhələri aradan qaldırmaq əvəzinə susur; "yol polisinə sorğu verəcəyik" vədi isə "unudulub"

**Bir müddət öncə Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramovun xidməti avtomobilinin fotoları yayıldı və bu fotolar geniş səs-küyə səbəb oldu.**

Yayılan məlumatda iddia edilirdi ki, Mingəçevirin icra başçısının xidməti avtomobilində, salonda, qabaq oturacaqda oturan xanım açıq-saçıq hərəkətləri ilə ətrafdakıların diqqətini cəlb edib. Əl-qol hərəkətləri, ucadan oxudulan pop musiqi səsi, gülüş sədaları...

Məsələnin bu qədər böyük səs-küyə səbəb olmasını nəzərə alaraq, Mingəçevir Şəhər İcra Hakimiyyəti ilə əlaqə saxlayıb, məsələ ilə maraqlanmışdıq. İcra hakimiyyətindən musavat.com-a verilən açıqlamada bildirmişdilər ki, həmin fotodakı kadrlar saxtadır və həqiqəti əks etdirmir. Bununla yanaşı, onlar lazımi qurumlara müraciət edərək, məsələni araşdıracaqlarını bildirmişdilər: "Biz əvvəlcə Mətbuat Şurasına, bundan sonra əgər ehtiyac olsa, digər rəsmi qurumlara, hüquq-mühafizə orqanlarına da müraciət edəcəyik".

Məsələnin üzərindən bir müddət keçdiyi üçün yenidən mövzuya qayıtmağa ehtiyac duyduq. Çünki irəli sürülən iddialar çox ciddidir. Əgər iddialar həqiqətdirsə, bu, icra başçısının işdən çıxarılması ilə belə nəticələnə bilər. Buna görə də icra hakimiyyəti ilə əlaqə saxlamağa çalışdıq. Lakin cəhdlərimiz boşa çıxdı. İcra hakimiyyətindən heç kim telefon zənglərimizə, məsajlara cavab vermədi.



Niyazi Bayramov

**Baş Dövlət Yol Polisi İdarəsinin ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi, polis polkovniki Kamran Əliyevlə əlaqə saxladıq. K.Əliyev müraciətlə bağlı onda məlumat olmadığını bildirdi:** "İcra hakimiyyətindən müraciət olunması ilə bağlı məndə heç bir məlumat yoxdur. Ola bilər ki, katiblikdə bu haqda məlumat var. Ümumiyyətlə hər hansı bir rəsmi qurum və ya səlahiyyətli orqan tərəfindən nəqliyyat vasitəsinin hansı təşkilata və yaxud da şəxsə məxsusluğu ilə bağlı sorğu göndərilərsə, sözsüz ki, ona cavab veriləcək. Rəsmi sorğu olmasa, biz bu barədə məlum verə bilmərik. Bu, qanunla tənzimlənir".

Mingəçevir Şəhər İcra Hakimiyyətinin "fotodakı avtomobil başçının xidməti maşını deyil" sözünü sübuta yetirmək üçün hərəkətə keçməməsi, bu böhtanı təmizləmək istiqamətində addım atmaması ağıllarda bəzi suallar yaradır. Əgər həqiqətən fotolarda göstərilən avtomobil Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramovun xidməti maşını deyilsə, niyə bunu sübut etmək üçün səy göstərmir? Mətbuata bu barədə bilgi verilmədi? Sanki Mingəçevir İH məsələnin səngiməsinə, unudulmasına çalışdı.

"Yeni Müsavat"a verilən məlumata görə, həmin maşında olan xanım şou-biznes nümayəndəsidi. Onun Niyazi Bayramovun xidməti maşınında hara getdiyi, ümumiyyətlə, məmur avtomobilinə necə, hansı statusla mindiyi hələlik məlum deyil. Bu istiqamətdə araşdırmalarımız davam edir.

Bu və digər sualların cavabını bizə icra hakimiyyəti verməli idi. Lakin telefon zənglərimizə cavab verən tapılmadı. Buna baxmayaraq, Mingəçevir Şəhər İcra Hakimiyyətinin məsələ ilə bağlı rəsmi mövqeyini dərc etməyə hazırıq.

❑ **Məhəmməd TÜRKMƏN**

## "Maliyyə nazirinə atəş Bakıdan açılıb" - şok iddia

# "Uçqat agent" qalmaqalında Eldar Mahmudov "qovluğu"

**Sovet kəşfiyyatçısı olmuş, hazırda isə Amerikada maliyyə analitiki kimi fəaliyyət göstərən Yuri Şvetsin Ukraynanın "Qordon" agentliyinə müsahibəsində maliyyə naziri Samir Şərifovu üç ölkənin-Rusiya, Türkiyə və ABŞ-ın "ağenti" adlandırmasından sonra mediada ən müxtəlif versiyalar müzakirə edilməkdədir. Əsas versiyalardan biri budur ki, maliyyə naziri baş nazirlik uğrunda mübarizədə əsas simalardan biri olduğu üçün hədəf seçilib. Hakimiyyətin bu məsələdə susqunluğu daha bir versiyanı aktuallaşdırıb - manatın dəyərdən düşməsi iqtisadi-maliyyə siyasətində yaranmış gərginliyin səbəbkarı kimi maliyyə naziri bu qalmaqal bəhanəsi ilə qurban verilə bilər. Üçüncü versiya isə Beynəlxalq Bankdakı mənimsəmə qalmaqalında Samir Şərifovun adının da hallanmasıdır.**




Tanınmış jurnalist Eynulla Fətullayev Samir Şərifova qarşı kompromat materiallarının Yuri Şvetsə ötürülməsini sabiq milli təhlükəsizlik nazirinin təşkil etdiyini iddia edir və həbsini istəyir; amma ortaya yenə suallar çıxır: "MTN-də baş verən bunca cinayətlərə rəğmən, o, hələ də azadlıqdadırsa, niyə müqavimət göstərir? Onu danışdıran və arxasında duran qüvvələr kimdir..?

### Naziri hədəfə gətirən üç versiya

**"Yeni Müsavat" ötən həftəsonu "Samir Şərifov baş nazirliyin bir addımlığında imiş..." başlıqlı manşet yazısında əsasən üçüncü versiya üzərində dayanmışdı. Həmin yazıdan bir sitatı xatırladaq:** "Beynəlxalq Bankdakı mənimsəmə qalmaqalı ortaya çıxanda Samir Şərifov "sudan quru çıxdı". İndi Eldar Mahmudov evdə, Cahangir Hacıyev Kürdəxanıda dustaqdır. Mahmudov susur, Cahangir Hacıyev isə həbsdən Samir Şərifovu ittiham edir. Amma bu ittihamların heç biri, hətta devalvasiyaya görə sərt qınaqlar belə Samir Şərifovun tükünü tərpətmədi, mövqeyinə təsir etmədi. İndi isə nazir gözlənilmədən ən sərt ittihamlar qarşısındadır. Diqqət etsək, bu Beynəlxalq Bankda mənimsəmə qalmaqalı ortaya çıxandan sonra "trioda" yeganə salamat qalan Samir Şərifov idi. Korrupsiya ittihamı nədir ki? Oğulsan, buna döz..." Həmin məqalə "olmaya ölkəni elə içəridə oturub Amerikadan qarışdırırlar..." cümləsi ilə yekunlaşırdı.

### Atəş Bakıdan açılıb, bəs əmri kim verib?

Martın 14-də haqqın.az saytının və virtualaz.org saytının təsisçisi Eynulla Fətullayev Samir Şərifova yönəlik ittihamlarla bağlı prezident İlham Əliyevə sensasion müraciət edib. E.Fətullayev əldə etdiyi özəl informasiyalara və apardığı təhlilərə əsasən S. Şərifovun "üçqat agent" olması barədə dosyenin keçmiş KQB zabiti, hazırda ABŞ-da fəaliyyət göstərən Yuri Şvetsə ötürülməsini təşkil edən keçmiş milli təhlükəsizlik naziri Eldar Mahmudov olduğunu yazıb. Jurnalist yazır ki, E.Mahmudovun mütəşəkkil cinayət qruplaşmasının üzvlərinin əksəriyyəti zərərsizləşdirilsə də, o, hələ də azadlıqdadır və dövlətə qarşı təxribat əməllərini davam etdirir.

**"Niyə məhz Samir Şərifov" sualına cavab axtaran müəllif yazır:** "Samir Şərifov ölkənin siyasi rəhbərliyinə daxil deyil, xarici siyasətin formalaşmasına, beynəlxalq istiqamətin müəyyənləşdirilməsinə və xarici siyasət seçiminə təsir göstərmir. Güclü dövlətlərin xüsusi xidmət orqanları belə şantaj növünə yalnız ən müstəsna hallarda əl atırlar ki, ölkənin taleyində həlledici rola malik qərarların qəbul edilməsi öncəsi nüfuzlu şəxsə təzyiq göstərsinlər. Şərifov isə bu cür addımlara görə cavabdeh simaların siyahısına daxil deyil.

Bundan əlavə, S.Şərifov qərbyönümlü şəxs kimi tanınır və ölkə iqtisadiyyatının sürətli islahatlarının tərəfdarıdır. Eyni zamanda məhz o, Beynəlxalq Bankdakı korrupsiya piramidasının ifşa olunmasında və Cahangir Hacıyev başda olmaqla, "kredit oliqarxları" işinin başlanmasında başlıca rol oynayıb. Bax indi biz, deyəsən, S.Şərifova qarşı bu təxribatın əsas səbəbinə yaxınlaşdıq.

Beləliklə, azərbaycanlı nazir nə Qərbə, nə Rusiyaya, nə İrana, nə də Türkiyəyə mane olmurdu. Bu işdə xarici iz, həm də sifarişin çox primitiv səviyyədə icra edilməsini nəzərə alsaq, tamamilə nəzərdən çıxarılmalıdır. Nəhayət, çox nümunəvidir ki, Şvetsin səs-küylü çıxışı sosial şəbəkələrin Azərbaycan seqmentində məhz o gün tirajlanmağa və yayılmağa başlayır ki, həmin gün heç bir şeydən xəbəri olmayan S.Şərifov xüsusi vacib missiya ilə ABŞ-a yollanır. Cənub Qaz Dəhlizi (TAP) layihəsi nəinki Azərbaycan üçün, həm də Qərb üçün, ilk növbədə bu meqalayihəni Avropanın energetik və geoiqtisadi təhlükəsizliyinin zəmanəti kimi açıq şəkildə dəstəkləyən ABŞ hökuməti üçün strateji əhəmiyyətə malikdir. Hazırda nümayəndə heyətinin başçısı kimi S.Şərifov dünyanın maliyyə mərkəzlərində - Londonda, Nyu-Yorkda, Los-Ancelesdə, San-Fransiskoda, Bostonda TAP layihəsi üçün istiqrazların "road-show"sunu (ilk nümayişini) keçirir. Bununla birgə, qiymətli kağızların yerləşdirilməsi üzrə səlahiyyətli təşkilatlar kimi aparıcı Amerika bankları - Citi Bank, UniCredit və JP Morgan müəyyən olunub, Lazard FresresSAS şirkəti isə Azərbaycan tərəfinin maliyyə məsləhətçisi kimi çıxış edir. Daha hansı arqumentlər lazımdır ki, bu çirkin, həddən artıq qarışıq, amma şok effekti yaradan işin əsl səbəbini müəyyən edəsən? Birmənalı olaraq, Samir Şərifova atəş Bakıdan açılıb!"

**Məqalənin sonunda E.Fətullayev prezident İlham Əliyevə müraciət edir. Müraciətdə deyilir:** "MTN-dəki mütəşəkkil cinayətkar qruplaşma ilə bağlı situasiya Sizin üçün şübhəsiz ki, bizlərdən daha ağrılı və məyusedicidir. Axı etibar etdiyiniz, dövlətin təhlükəsizliyinin, maliyyə sisteminin taleyini həvalə etdiyiniz adamlar Sizə qarşı satqınlıq ediblər. Eldar Mahmudov və Cahangir Hacıyev təkcə Sizi yox, bütün Azərbaycanı satıblar. Yalnız Sizin qətiyyətiniz, dönməz siyasi iradəniz sayəsində Azərbaycan xalqı bu cəhənnəm məkanından-sosial nifrət və quldurluq aşılayan bu strukturdan xilas oldu. Bu quldur yığınının zərərsizləşdirilməsindən sonra ölkə necə də azad nəfəs aldı. Lakin düzünü desəm, ölkə ictimaiyyəti bu kriminal qruplaşmanın lideri Eldar Mahmudovun hələ də azadlıqda dolaşmasını, dövlətimizin dayaqlarını sarsıdan fəaliyyətini davam etdirməsini başa düşə bilmir.

Birmənalıdır ki, maliyyə naziri Samir Şərifova qarşı təxribatın, eləcə də bir çox digər cinayətlərin arxasında Eldar Mahmudov dayanır! Bu, təkcə xalqa qarşı çağırış deyil, Sizin şəxsinizdə bütün xalqa qarşı çağırışdır! Bütün bunlar göstərir ki, məhz Eldar Mahmudov Azərbaycanda əsas dağıdıcı qüvvəyə çevrilib. Düzdür, onun başçılıq etdiyi mütəşəkkil cinayətkar qruplaşmanın böyük hissəsi həbs olunub, lakin 10 il ərzində bu qrupa rəhbərlik edərək, deyəsən, öz cəzasızlığına və günahlarının bağışlanacağına şübhə etmədən o, hakimiyyətlə açıq mübarizəyə başlayıb.

Bunlar üzdə olanlardır: Mahmudov Samir Şərifova deyil, Sistemə, Prezidentə, Dövlətə və bütün hakim sinfə qarşı çıxıb. Bu, bir nazirin nüfuzunun qaralanması cəhdi deyil, ölkənin dövlət maraqlarına zərbədir!

Sizdən və Sizin şəxsinizdə dövlətimizdə möhkəm yer tutmuş yüksək ədalətdən səmimi şəkildə xahiş edirəm ki, bu şər qüvvənin törətdiyi cinayətlərə görə qanunun bütün ciddiyyəti ilə cəzalandırılmasını təmin edəsiniz!"

### Eldar Mahmudov niyə müqavimət göstərir?

Eldar Mahmudovun keçmiş KQB zabitinə bu cür kompromat materiallar ötürə bilməsi realdır. Çünki məlumatlar var ki, məhz Beynəlxalq Bankda üzə çıxan maliyyə yeyintiləri E.Mahmudovun sonrakı taleyində həlledici rol oynayıb. Beynəlxalq Bank qalmaqalı olmasaydı və bu işdə Eldar Mahmudov adı əsas fiqurant kimi keçməsəydi, yəqin ki, MTN-dəki cinayətlər də indilikdə üzə çıxmayacaqdı. Məlumdur ki, 2015-ci ilin mart ayının 18-də Cahangir Hacıyev Beynəlxalq Bankın İdarə Heyətinin sədri vəzifəsindən "səhhətində yaranmış problemlərə" görə istefa vermişdi. C.Hacıyevin həbsi dərhal gündəmə gəlsə də, onu hakimiyyətdə ən ciddi dayağı olan qudası Eldar Mahmudov qoruyurdu. Müşavirələrin birində prezident ad çəkməsə də, belə bir fikir işlətmişdi ki, bəzi vəzifəlilər yaxın adamlarının cinayətlərini ört-basdır etməyə çalışırlar. Mayda başlayan "Beynəlxalq Bank işi"nə görə bir sıra oliqarxlar həbs olundu, amma C.Hacıyev arxalı adamına söykənərək müqavimət göstərdi, məsuliyyəti təkcə həbsdəkilərin deyil, o cümlədən Beynəlxalq Bankda əsas səhmdarlara nəzarət edən maliyyə nazirinin üzərinə yönəltməyə çalışdı. Samir Şərifov da Beynəlxalq Bankla bağlı danışarkən daima dövləti talayanların məsuliyyətini "o vaxtkı rəhbərliyin səhv maliyyə siyasəti" ilə izah edirdi.

Beynəlxalq Bankdakı talama prosesində Eldar Mahmudovun hansı dərəcədə iştirak etdiyi hələ də rəsmən açıqlanmayıb, çünki MTN şefi barədə rəsmi cinayət işi belə yoxdur. Amma əgər deyilən doğrudursa, yəni Samir Şərifov Cahangir Hacıyevin ifşasında əsas rol alıbsa, Eldar Mahmudov da tifaqının dağılmasında məhz maliyyə nazirini suçlu görə bilərdi. Sabiq səfir Arif Məmmədov agent qalmaqalından dərhal sonra iddia edib ki, Eldar Mahmudov "Azərbaycanda dövlətə qarşı işləyən şəbəkə"nin-yəni Samir Şərifov da daxil qrup haqda prezidentə məruzə edib. Belə bir görüşün olub-olmaması barədə dəqiq bilgi heç kimdə yoxdur. Amma mümkündür ki, Samir Şərifov haqda indi yayılmış məlumat məhz Eldar Mahmudovun qovluğunda olub. Hətta o da mümkündür ki, Eldar Mahmudov məhz bu şantaj materiallına görə görəvdən alınıb, hakimiyyətin içində qarışıqlıq salmaq niyyətinin qarşısı alınıb. Yada salaq ki, E.Mahmudov vəzifədən çıxarılandan sonra onun bir çox iş adamının şantaj etdiyi, yuxarı instansiyalara vəzifəli şəxslər barəsində "donos" xarakterli məlumatlar ötürdüyü üzə çıxıb. Ona görə də Eldar Mahmudovun və qudasının əsas düşməninə çevrilmiş maliyyə nazirinin bu cür hədəfə çevrilməsi versiyası inandırıcıdır.

Amma "Eldar Mahmudov suçludur" deməklə iş bitmir, əksinə, ortaya yenə suallar çıxır. Ləğv olunmuş MTN-də əsas general heyəti həbsdə və ya işdən qovulduğu halda, Eldar Mahmudovu doğrudan da niyə indiyədək həbs etmirlər? Daha bir maraqlı sual da var: Eldar Mahmudov MTN-də baş verən bunca cinayətlərə rəğmən hələ də azadlıqdadırsa, niyə müqavimət göstərir? Niyə dinc oturmur? E.Mahmudovun təsir imkanları qalmayıbsa, taleyi ilə barışmaqdansa, niyə hələ də içərisindən atıldığı hakimiyyətə qarşı çıxır?

Onu danışdıran və arxasında duran qüvvələr kimdir?

❑ **"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 59 (6380) 15 mart 2016

# "Vəziyyət belə davam edərsə, ölkəmizdə kataklizmlər qaçılmaz olacaq"

## Taleh Əliyev: "Bu terrorun arxasında Yaxın Şərqdə aparılan müharibədə Türkiyə ilə əks qütbdə dayanan ölkələrin xüsusi xidmət orqanları dayanır"

**Ümid Partiyasının İcra Aparatının rəhbəri, politoloq Taleh Əliyev ölkədə və dünyada baş verən son olaylar barədə Partiyanın Mətbuat Xidmətinin suallarını cavablandırıb.**

***- Taleh bəy, qısa bir müddətdə qardaş Türkiyənin paytaxtı Ankara şəhərində üçüncü terror aktı törədildi. Baş verənləri necə qiymətləndirirsiniz?***

- Türkiyənin paytaxtı Ankara şəhərində və digər bölgələrində törədilən terror aktları Yaxın Şərqdə daha dəqiq ifadə etsək Suriya və İraq ərazisində aparılan üçüncü dünya müharibəsinin fəsadlarıdır. Türkiyə coğrafi mövqeyinə, həm bölgədə ciddi söz sahibi olan bir ölkə kimi, həm də Qərbin regionda ən etibarlı müttəfiqi olaraq, Suriya və İraq ərazisində aparılan müharibənin ilk günlərindən bu prosesə cəlb edilmiş bir ölkədir. Ona görə də hesab edirəm ki, analoji terror aktlarının bundan sonra da qardaş Türkiyə dövlətinin ərazisində, xüsusilə də paytaxt Ankara başda olmaqla digər böyük şəhərlərində törədilməsi ehtimalları çox böyükdür. Acılarımız nə qədər böyük olsa da, baş verənlərə müharibə reallıqları aspektindən baxmaq lazımdır. Terroru hansısa terrorçu təşkilatların öz üzərinə götürməsi sadəcə olaraq iz azdırmaqdır. Bu terrorun arxasında Yaxın Şərqdə aparılan müharibədə Türkiyə ilə əks qütbdə dayanan ölkələrin xüsusi xidmət orqanları dayanır. Bütün bunları Türkiyənin xüsusi xidmət orqanları da bilməmiş deyil. Məncə müharibəyə bir başa qatılmaq riskindən yayınmaq üçün hələlik baş verənləri öz adıyla adlandırmırlar. Amma, qeyd etdiyim kimi analoji terror aktları həm miqyasına, həm də fəlakət dərəcəsinə görə çoxaldıqda qardaş Türkiyə dövləti adekvat cavab verməkdən çəkinməyəcək.

***- Xatırlayırsınızsa, Türkiyə prezidenti cənab Rəcəb Tayyib Ərdoğanın Azərbaycana səfəri ərəfəsində terror törədildi və yenə də növbəti terror növbəti səfər ərəfəsində baş verdi. Sizcə, burda bir bağlılıq varmı?***

- Əlbəttə var. Bilirsiniz ki, Azərbaycan və Türkiyə strateji müttəfiqlərdir. İstər regional, istərsə də beynəlxalq məsələlərdə çox vaxt vahid mövqe nümayiş etdirirlər. Vahid mövqe mümkün olmadıqda isə bir-birinə qarşı kəskin əks mövqe tutmurlar. Nə Azərbaycanın nə də Türkiyənin ikinci belə müttəfiqi yoxdur. Ona görə də belə həssas dövrdə iki dövlət başçısının bir araya gəlib region üçün əhəmiyyətli məsələlərdə ortaq mövqe formalaşdırması təbii ki, çoxlarını qane etmir. Bunun qarşısını almaq üçün isə hər vasitədən istifadə edirlər. Amma nə qədər mane olmağa çalışsalar da regionun və hər iki dövlətin gələcək müqəddəratının həll edildiyi indiki mərhələdə Azərbaycan və Türkiyə dövlət başçılarının bir araya gəlib vahid mövqe nümayiş etdirməsi son dərəcə vacib və əhəmiyyətli bir məsələdir.



***- Taleh bəy, ölkədəki mövcud sosial-iqtisadi və ictimai-siyasi vəziyyəti necə dəyərləndirirsiniz?***

- Baxmayaraq ki, birinci devalvasiyanın baş verməsindən bir il keçdi. Təəssüflər olsun ki, hökumət bu istiqamətdə əməli addımlar atmır. İmitasiya xarakterli kosmetik dəyişikliklər, ziddiyyətli qərarlar və gözləmə mövqeyi vəziyyəti getdikcə ağırlaşdırır. Məhz belə bir siyasətin nəticəsi o oldu ki, bir ilin içində ikinci devalvasiya baş verdi. İstər müxalifətin, istərsə də vətəndaş cəmiyyətinin böhrandan çıxışla bağlı etdiyi təkliflərə hökumətdə ciddi söz sahibi olmayanlar ironik münasibət bildirdilər.. Amma vəziyyət bir müddət də belə davam edərsə, ölkəmizdə kataklizmlər qaçılmaz olacaq. Sosial iqtisadi vəziyyətin getdikcə ağırlaşması isə istər - istəməz ictimai-siyasi gərginliyi artıracaq.

***- Böhran demişkən, müxalifət partıyalarının və ictimai hərəkatların təşəbbüsü ilə bu ilin əvvəlində antiböhran koalisiyası yaradıldı. Ümid Partiyası da bu qurumda təmsil olunur. Bu koalisiya haqqında nə deyə bilərsiniz?***

- Antiböhran koalisiyasının məqsədi adından da göründüyü kimi ölkədə yaşanan böhranın bütün təzahürlərinin - sistem böhranının, maliyyə kredit böhranının və s. aradan qaldırılması üçün həm hakimiyyətə, həm də cəmiyyətə çıxış yolları barəsində təkliflər verməkdir. Bu istiqamətdə qurumun iki dəfə respublika müşavirəsi keçirilib. Hətta koalisiyaya daxil olmayan qurumların və şəxslərin fikirləri dinlənilib və ümumiləşdirilərək hakimiyyətə və cəmiyyətə təqdim edilib. Eyni zamanda hər həftə işçi qrupun iclasları keçirilir.

## Ümid Partiyası Türkiyə xalqına başsağlığı verdi

**Martın13-də axşam saatlarında Türkiyənin paytaxtı Ankara şəhərində növbəti dəfə dəhşətli terror hadisəsi baş verib. Hadisə nəticəsində 34 nəfər həyatını itirib, 125 nəfər yaralanıb.**

Ümid Partiyasının sədri İqbal Ağazadə baş vermiş qanlı terror hadisəsi zamanı ölənlərin yaxınlarına, Türkiyə xalqına və Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğana başsağlığı verib.

**Başsağlığında deyilir:**

- Martın 13-də Türkiyənin Ankara şəhərində törədilmiş növbəti qanlı terror hadisəsindən son dərəcə hiddətlənir, baş vermiş hadisəni qəti şəkildə pisləyirik. Bu terror aktının qurbanı olmuş şəxslərin ailələrinə və qardaş Türkiyə xalqına dərin hüznlə başsağlığı verir və yaralıların tezliklə şəfa tapmasını diləyirik.

Terrorizmin bütün forma və təzahürlərini kəskin şəkildə qınayır və qardaş Türkiyə ilə həmrəyliyimizi bir daha vurğulayırıq.

Türkiyə hökuməti terrorla mübarizədə qəti və sərt addımlar atmalıdır. Terror və terrorçular durdurulmazsa təkcə insanlarımızı itirməyəcəyik, həm də regionda vəziyyət Türkiyə və Azərbaycanın ziyanına sürətlə dəyişəcək.

**Dünən qardaş Türkiyənin başkəndi Ankarada 34 günahsız insanın ölümünə, onlarla vətəndaşın yaralanmasına səbəb olan növbəti terror aktı bir daha hamımızı üzdü. Fevralın 17-də 29 nəfərin ölümünə səbəb olan terrordan heç bir ay keçməmiş hədəf yenə həmin məkan- Türkiyə Cumhuriyyətinin başkəndi Ankaranın baş meydanı Kızılay oldu. Həmin Kızılay ki, beş ayda artıq üçüncü kez eyni səhnə ilə qarşılaşır. Hər iki saldırının PKK və uzantılarının törətdiyi haqda Türkiyənin ən yüksək səviyyədə rəsmiləri də bəyanat verdilər. O cümlədən dünən YPG, bu gün isə PKK..**

**Rüfət MURADLI**
**Ümid Partiyası sədrinin müavini**



# Dünya birliyi Ankaranın yanında olmağa borcludur

## Hələ şubat yaraları sağalmamış Kızılay daha bir xain saldırıya məruz qaldı

Lakin dünənki partlama olayından sonra çoxlarını düşündürən suallar var ki, cavabları əslində hadisənin motivini ortaya qoyur.. Türkiyə Böyük Millət Məclisində 80 millət vəkili ilə təmsil olunan bir partiya( HDP) tərəfindən dəstəklənən bu terror qruplaşmalarına sifariş haradan gəlir? Onlarla suçsuz insanın qanına susamış bu canilərin növbəti vəhşiliyinə terrorçu Sömer üçün yas mərasimi saxlayan kürd millət vəkillərinin reaksiyası dəyişəcəkmi? (Əlbəttə şübhə etmirəm ki, həmin millət vəkilləri eyni mövqeyi yenə sərgiləyəcək.) Həmçinin terrorun dövlət modeli Rusiyanın siyasilərinin "Türkiyə qan gölündə boğulacaq" kimi bəyanatlarını görməzdən gələ bilərikmi? Təbii ki, baş verən olayla bağlı suallar çoxdur. Amma terrorun Türkiyə prezidentinin Azərbaycana səfəri ərəfəsinə təsadüf etməsi də diqqət çəkir. Nəzərə alsaq ki, fevralın 17-də də həyata keçən terror hücumu oxşar situasiyada baş verdi. Şübhəsiz Ərdoğanın Bakıya səfəri, Türkiyə ilə enerji anlaşmaları, Rusiyanın TANAP-la bağlı əndişəsini, enerji tranzitində alternativ kimi İran yolunun ortada olmasını göz ardına vurmaq olmaz. Amma dəhşət saçan bu terrorun, əslində silsilə terrorların arxasında daha böyük təhlükələrin olmasını istisna etmək olmaz. Əsas qərargahını şəhərləşmə formatında İraqdan Suriyaya köçürən PKK və onun uzantılarının bu qədər aşkar şəkildə terror hücumlarına əl atmasının Türkiyəni yeni bir savaşa soxmaq anlamında olmasını inkar etmək isə bəlkə də sadəlövhlük olardı. Şübhəsiz bu gün Türkiyə Cümhuriyyəti öz dövlətini və vətəndaşını qorumaq üçün qanuni haqqından faydalanıb və daha sərt mexanizmlər düşünməlidir. Amma baş verənlər kontekstində, Türkiyə dövlətinin terrorla bağlı yaşadıqlarının dünya üçün daha ağır sonuclara səbəb ola biləcəyini nəzərə alaraq olaya dünya ictimaiyyətinin daha obyektiv yanaşması mütləqdir. Özəlliklə Avropa Birliyinin Türkiyə üçün qoyduğu 72 şərtin həyata keçirdiyi bir vaxtda bunları görməzdən gəlməsi əslində Türkiyəyə qarşı münasibətin göstəricisidir. Türkiyədə baş verən terrorlara Dünya birliyinin daha sərt müdaxiləsi gərəkir. Ötən il Fransada baş verən terrora münasibətdə biz bu yanaşmanın bariz nümunəsini gördük. Və məhz bu gün bəşəriyyəti bu nəhs, çirkin, ölüm saçan fenomendən qurtarmaq üçün dünya birliyi Ankaranın yanında olmağa borcludur.

**Bu səhifə Ümid Partiyası tərəfindən təqdim edilmişdir**

YENİ MÜSAVAT
N 59 (6380) 15 mart 2016



# İndi nə zəmanədir...

Zamin HACI
zaminhaci@gmail.com

**Oxucumuz Vasif Həsənov akademiya üzvləri arasında özlərini "Hacı", "Məşədi" kimi təqdim edən "alimlərin" artması səbəbiylə təklif irəli sürür ki, gərək indən belə biz AMEA-nı "Axund və Mollaların Elmlər Akademiyası" kimi açaq.**

Olsun. Şəxsən mən etiraz eləmirəm, dəstəkləyirəm. Bu arada Şamaxı rəsədxanasından ciddi nigaran qaldığımı bildirməliyəm, çünki xeyli vaxtdı rəsədxana namaz vaxtlarının səhih cədvəlini açıqlamır. Belə getsə, Ramazanda Ayın doğmasını da qaçıracaqlar.

Təklifə qayıdıb deyərdim ki, hətta yas məclislərinin yola verilməsi, qəbirlərin qazılması tipli axirət işlərinin yönə salınmasında gərək biz AMEA-nın qüvvəsindən yararlanaq. Özü də orda akademiklərin orta yaşı hardasa 85-dir, o dünyaya hamıdan yaxındırlar, axirəti canlı öyrənmək imkanları vardır. Niyə bu alimlərimiz yas yerlərində fatihə verib milləti maarifləndirməsin? Çünki bəzən görürsən cüvəllağının biri mollaya naqolay sual verir, molla da çaşır qalır, deyir, səni lənətə gələsən. Çox nadir hallarda savadlı molla olur. Örnək üçün, bir dəfə məclisdə bir lotu guya molla əmini dolaşdırmaq üçün sual verdi: "Əgər Əzrayıl bir dənədirsə, eyni anda ölən minlərlə insanın canını necə alır?" Molla müdrikcəsinə gülümsünüb dedi: "Bala, Mingəçevirdən elektrik stansiyasının rubilnikini fırlatsalar, bütün ölkənin işığı eyni vaxtda keçirmi? Bax, cənabi-Əzrayıl da eyni vaxtda minlərlə canı bu cür alır". Hamımız cavabın mükəmməlliyinə mat qaldıq, hətta ayağa qalxıb molla əmini sürəkli və gurultulu alqışlarla çəpiklədik. *(Keçmiş vaxtlarda belə gözəl adətlər vardı, indiki uşaq-muşaq bilməz. Dahi rəhbər danışanda əl çalmağın bir neçə növü olurdu: "sürəkli alqışlar", "gurultulu alqışlar", "gurultulu və sürəkli alqışlar", "gurultulu və sürəkli alqışlar, hamı ayağa qalxır". Bunun hamısı yüksək dəqiqliklə "Pravda", "Kommunist" qəzetlərində göstərilirdi).*

Mən sonra fikirləşdim ki, gör mağar altında necə alimlər çürüyür, bu adamda əsl Tesla, Edison, canım sənə desin, Faradey ruhu vardır. Bəlkə yaxşı maya buraxsan Güneş enerjisi ilə işləyən mürdəşir, külək enerjisi ilə çalışan qəbristanlıq qurar.

Yadımdan çıxmamış, bu aralar hökumətimiz də qəbristanlıq işinə ciddi fikir verir, 3-4 aydır deputat Səyavuş müəllim deyir qəbirlərin hamısını eyni ölçüdə qazmaq haqda qanun qayıracağıq. Düzü, problemli işə girişib, çünki bəzən baxırsan mərhum adamın peysəri dönmür, eni də Milli Məclisin qapısı boydadır. Başqa adam isə ünvanlı sosial yardım ərizəsi yazmaqdan qələmə oxşayır. Bunların ikisinə eyni ölçüdə qəbir qazmaq çətin olmazmı? Axı deputatı nə qədər yığıb-yığışdırsan da azı bir ayağı həmin yetimin qəbrinə girəcək. Belə olan halda 3-4 yetimi bir qardaşlıq qəbrində basdırmaqla hansısa deputatla balans əldə etmək mümkündürmü?

Gərək AMEA bu məsələləri ciddi analiz eləsin. Müdriklər demişkən, əsas məsələ ölçü deyil, əsas məsələ iş qabiliyyətidir, funksionallıqdır.

Keçən cümə axşamı AMEA üzvləri geniş toplantı keçiriblər, istərdim o haqda da uca millətimizin məlumatı olsun. İdarənin müdiri, baş akademik Akif müəllim iclasın qərarını oxuyub, deyir, gərək biz saatı dala-qabağa çəkməyi yığışdıraq. Ölkəmiz balacadır, burda saat qurşağı bir dənədir, hər yayda-qışda əqrəbi çəkməklə saatımızın mexanizmi yeyilirmiş.

Məncə düzgün qərardır, ancaq dala-qabağa keçməni əbədi dayandırmazdan öncə saatı bir neçə dövrə fırlatmaq qərarı verilsə, yaxşı olardı. Bəlkə arada baş nazirimiz yuxudan oyanardı.

Sonda dəyərli alimlərimizdən Şirməmməd müəllimin jurnalist Qulu Məhərrəmlini müdafiə məqsədi ilə yazısından bir cümləyə fikir bildirim. *(Anormal cümlə alındı, üzürlü sayın, düzəltməyə vaxt yoxdur, saatı dala çəkirəm).* Demək, AzTV şefi Alışanov öz mütəşəkkil dəstəsini bu saat tökub Qulu bəyin üstünə, hətta onu tutdurmaq istəyir. Səbəb isə belədir ki, Qulu Məhərrəmli AzTV-nin indiki fəaliyyətini tənqid edibmiş. Uzun sözün qısası, Şirməmməd müəllim görün bu münasibətlə nə deyir. Sitat: "İndi nə zəmanədir ki, mütəxəssisin dediyi tənqidi mülahizəsinə görə ona məhkəmə açasan?".

Tragikomik cümlədir. Ümid edirəm Şirməmməd müəllim tarix kitablarını belə yazmayıb. Rəhmətliyin oğlu, ölkənin az qala yarısını tənqidi mülahizəsinə görə zindana salıblar, "indi nə zəmanədir" sözdür? İndi elə o zəmanədir.

# Dünyaya "olmasın Bakı, olsun Ankara" mesajı - prezident Əliyevin böyük jesti

## Ankara terroru Ərdoğan-Əliyev görüşünü əngəlləyə bilmədi; İlham Əliyevin həmrəylik addımı siyasi ekspertlər tərəfindən yüksək qiymətləndirildi...

**Martın 13-də Ankaranın "Kızılay" meydanında canlı intiharçı-terrorist tərəfindən bomba yüklü maşının partladılması ilə həyata keçirilən terror nəticəsində 37 nəfər ölüb, 125 nəfər yaralanıb.**



Paytaxt Ankarada törədilən terror aktı səbəbindən Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın 15 martda Azərbaycana nəzərdə tutulan səfəri son bir ayda ikinci dəfə təxirə salındı. Lakin bunun qarşılığında Azərbaycan prezidenti planlaşdırılan Strateji Əməkdaşlıq Şurasının V iclasının Bakı əvəzinə Ankarada keçirilməsi barədə təşəbbüslə çıxış edib və Türkiyəyə səfər etməyə qərar verib.

Türkiyənin rəsmi "Anadolu" agentliyinin məlumatına görə, toplantının Ankarada keçirilməsi təşəbbüsü Azərbaycan prezidentindən gəlib (APA). Agentlik Türkiyə Prezident Administrasiyasındakı mənbəyə istinadən Ərdoğanın bu jestə və terrorla mübarizədəki həmrəyliyinə görə Azərbaycan prezidenti İlham Əliyevə təşəkkür etdiyini də yazıb. Qeyd edək ki, Rəcəb Tayyib Ərdoğanın bu il fevralın 18-də Azərbaycana böyük nümayəndə heyəti ilə planlaşdırılan səfəri Ankarada terror aktının törədilməsi səbəbindən təxirə salınmışdı.

Bölgədə olduqca ciddi proseslərin cərəyan etdiyi bir şəraitdə, hətta Türkiyə kimi dünya nəhənglərindən birinin ağır proseslərlə üz-üzə qalması faktdır. Bu mənada Azərbaycan rəhbərliyi R.T.Ərdoğanın Azərbaycana səfərini əngəlləmək üçün dinc vətəndaşları belə qətlə yetirməkdən çəkinməyən xain qüvvələrin qəzəbinə tuş gələ biləcəyinin fərqindədir. Lakin dostluq və qardaşlıq münasibətləri, tarixi əlaqələr, tale bağlılığı riskli də olsa, ən doğru addımı seçməyə vadar edir. Prezident İlham Əliyev növbəti dəfə bir qardaşlıq, bir həmrəylik addımı ataraq, ən çətin situasiyada, ən ağır şərtlər daxilində belə Türkiyənin yanında olduğunu açıq şəkildə bütün dünyaya nümayiş etdirdi. Müşahidəçilər hesab edir ki, Azərbaycanın dövlət başçısı "olmasın Bakı, olsun Ankara" mövqeyi ilə əslində bir millətin iki dövlətinin paytaxtları arasında fərq görmədiyini bütün dünyaya nümayiş etdirdi və bir nümunə ortaya qoydu.

Siyasi analitiklərimiz də Azərbaycan prezidentinin bu addımını yüksək dəyərləndirdi.

**"Şərq-Qərb" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Ərəstun Oruclu musavat.com-a bildirdi ki, bu görüşün yüksək səviyyədə baş tutması müsbət haldır:** "Əgər Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın Bakıya səfərinə bu cür sərt müdaxilələr, terror vasitəsilə bu səfərin qarşısını almaq cəhdləri ortaya qoyuldusa və bundan sonra Azərbaycanın dövlət başçısı Türkiyəyə getməyə qərar veribsə, bu, əslində ciddi bir mesajdır. Bu, Azərbaycan-Türkiyə münasibətlərini, Azərbaycan-Türkiyə tərəfdaşlığını pozmağa cəhd edən və bu yolda dəridən-qabıqdan çıxan bütün terrorçu dövlətlərə bir mesajdır ki, bu strateji tərəfdaşlığın qarşısını heç bir vasitə ilə almaq mümkün deyil, bu, istənilən halda baş tutacaq. Mən düşünürəm ki, bu, Azərbaycanın gələcəyi, Azərbaycan-Türkiyə əməkdaşlığı, Azərbaycanın Avroatlantik məkana inteqrasiyası üçün son dərəcə zəruridir və hətta hadisələrin bu cür cərəyan eləməsinin özü daha da müsbət tendensiyadır".

**Politoloq Arzu Nağıyev öncə qeyd etdi ki, prezident Ərdoğanın Bakıya səfərinin əsas məqsədi birgə komissiyanın iclasında iştirak etmək, geosiyasi və mühüm problemlərin həlli istiqamətində müzakirələr aparmaq idi:** "Azərbaycan prezidentinin belə bir məqamda Ankaraya səfər etməklə bağlı qərar verməsi təqdirəlayiq bir addımdır və həm də dost ölkənin belə bir ağır vaxtında birgə olmaq baxımından həm humanist olmaqla bərabər, mühüm bir jestdir. Düşünürəm ki, son hadisələr kontekstində prezidentlərin müzakirə edəcəkləri məsələlər həddən artıqdır. Bura Türkiyə-Suriya, Türkiyə-Rusiya münasibətləri, Dağlıq Qarabağ münaqişəsinin həlli və iqtisadi layihələri aid etmək olar".

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu isə Ankarada-kı terror partlayışından sonra Türkiyə prezidentinin Azərbaycana səfər edib-etməməklə bağlı çətin dilemma qarşısında qaldığını xatırlatdı:** "O, bir tərəfdən indiki ağır vəziyyətdə - terror aksiyasından iki gün sonra Azərbaycana səfərinin ölkəsində doğru anlaşılmayacağını düşünüb. Digər tərəfdən, Ərdoğan onu da düşünüb ki, Azərbaycan prezidenti İlham Əliyevlə ikinci dəfə eyni səbəbdən görüşün təxirə salınması PKK terrorçularına və onların arxasındakı qüvvələrə yanlış siqnal ola bilər. Bu çətin dilemmadan Ərdoğanı azərbaycanlı həmkarı qurtardı. İlham Əliyev Ankaraya getməklə Türkiyəni parçalamağa və zəiflətməyə, o cümlədən Türkiyə-Azərbaycan hərbi-siyasi ittifaqını hədəf alanlara aydın ismarış göndərib: strateji əməkdaşlıq mövzularını terrorçuların 5 ayda 3-cü dəfə hədəf aldığı Ankarada da müzakirə etmək mümkündür".

İlham Əliyevin bu addımı artıq ikinci dəfədir ki, iki qardaş ölkənin rəhbərinin görüşünü əngəlləmək istəyən güclərə tərs sillə, eyni zamanda Türkiyəyə böyük jest kimi qiymətləndirilir. Ərdoğanın səfərinin təxirə salınması, Bakıda planlaşdırılan tədbirin Ankaraya köçürülməsi və İlham Əliyevin bütün qrafikini dəyişərək Ankaraya getmək qərarı verməsi olduqca mühüm məsələdir. Bu, Azərbaycanın Türkiyəyə hansı səviyyədə önəm verməsinin göstəricisidir...

Ərdoğanın Bakıya səfəri öncəsi ikinci qanlı terror törədən Türkiyə düşmənlərinə bir növ cavab xarakteri daşıyan bu jest həm də onları qarşısına almaq deməkdir.

Azərbaycan bir qardaşlıq, bir həmrəylik addımı ataraq, hər hansı şərtlər daxilində Türkiyənin yanında olduğunu açıq şəkildə bütün dünyaya nümayiş etdirir. Ərdoğan Bakıya gələ bilmirsə, onu Azərbaycana gəlməyə qoymurlarsa, İlham Əliyev Türkiyəyə gedər; hər hansı bir vəziyyətdə qardaşları bir-birindən heç kim ayıra bilməz - bu addımın mənası budur!

**Xatırladaq ki, Avropadakı böyük tədbirlərdən birində erməni iftira və hücumlarına münasibətdə prezident Əliyev belə demişdi: "Burada Türkiyə rəhbərləri yoxdur, lakin mən varam, Azərbaycan var..."**

❑ **Elşad PAŞASOY**

YENİ MÜSAVAT
N 59 (6380) 15 mart 2016

# İlham Əliyevin ABŞ səfəri yaxınlaşır

## Bu səfər Azərbaycan-Amerika münasibətlərində yeni mərhələnin başlanğıcı ola bilər

**Azərbaycan prezidenti İlham Əliyev martın 31-də Vaşinqtonda keçiriləcək nüvə təhlükəsizliyi sammitində iştirak edəcək. ABŞ-ın Bakıdakı səfirliyi bir müddət öncə Azərbaycan prezidentinin Vaşinqtona gedəcəyini açıqlamışdı. Səfirlik Azərbaycanın dövlət başçısının Amerika prezidenti Barak Obamanın dəvətini müsbət cavablandırdığını bildirmişdi. Diplomatik nümayəndəlikdən qeyd olunub ki, bu gün Bakı və Vaşinqton münasibətləri daha müsbət və qarşılıqlı faydalı etməyin üzərində işləyir.**

Qeyd edək ki, ABŞ prezidenti Barak Obama dekabrın 3-də Azərbaycan prezidenti İlham Əliyevə bu il martın sonunda Vaşinqtonda keçiriləcək IV nüvə təhlükəsizliyi sammitində iştirak üçün dəvət məktubu göndərib.

Amerika lideri məktubunda qeyd edib ki, Azərbaycan qlobal nüvə təhlükəsizliyinə qətiyyətli dəstək nümayiş etdirir və Bakının bu istiqamətdə səylərini davam etdirəcəyinə ümid ifadə edib.

Azərbaycanla ABŞ-ın münasibətlərində müəmmalı vəziyyətə prezident İlham Əliyevin martın sonunda Barak Obamanın dəvəti ilə gerçəkləşəcək Vaşinqton səfərinin son qoyub-qoymayacağı ilə bağlı siyasi analitiklər müxtəlif fikirlər bildirirlər. Bu mövzuda "Yeni Müsavat"a danışan **"Atlas" Araşdırmalar Mərkəzinin sədri Elxan Şahinoğlu** bildirdi ki, 2010-cu ildə də belə bir nüvə təhlükəsizliyi konfransı Vaşinqtonda keçirilmişdi. O zaman Barak Obama Azərbaycan prezidentini həmin toplantıya dəvət etməmişdi. Halbuki Gürcüstan və Ermənistan prezidentlərini dəvət etmişdi. O dövrdə də ABŞ-ın demokratiya və insan haqları məsələləri ilə bağlı Azərbaycan hakimiyyətinə çox sərt tələbləri var idi. İndi üstündən xeyli vaxt keçib, Azərbaycan prezidentini Barak Obama nüvə təhlükəsizliyi konfransına dəvət edir: "Bu, mesaj xarakterli dəvət ola bilər ki, Azərbaycanın əhəmiyyətini ABŞ yüksək qiymətləndirdiyini göstərmək istəyir. Sadəcə, Azərbaycana belə bir incə mesaj da göndərirlər ki, əgər Azərbaycan Vaşinqtonda keçiriləcək sammitə qədər siyasi və mübahisəli məhbus adlandırılan insanları həbsdən azad etsə, bu, İlham Əliyevin Vaşinqton səfərinin əhəmiyyətini bir az da artıracaq. Bu, bizim dövlət başçısının özünə də lazımdır ki, Vaşinqtonda yalnız nüvə təhlükəsizliyi konfransında iştirak etməsin, Barak Obama ilə təkbətək fikir mübadiləsi apara bilsin. Bu bir şansdır ki, Vaşinqtondakı konfrans çərçivəsində Barak Obama ilə ikitərəfli danışıqlar aparılsın".



**Ekspertin fikrincə, Azərbaycan yaxın müddətdə ABŞ-ın əsas şərti olan siyasi və mübahisəli məhbuslar məsələsinə aydınlıq gətirsə, daha çox adlandırılan insanlar həbsdən azad olunsa, bu amil prezidentin ABŞ səfərinin əhəmiyyətini artıracaq və Barak Obama ilə təkbətək görüş imkanı yaradılacaq.**

**E.Şahinoğlu qeyd etdi ki, siyasi və mübahisəli məhbus məsələsinin həlli başqa istiqamətdə də Azərbaycana xeyir gətirə bilər. Kristofer Smitin Azərbaycana və onun hakimiyyətinə sanksiyaları nəzərdə tutan qanun layihəsinin Konqresin müzakirəsinə çıxarılmasının qarşısını ala bilər:** "Hakimiyyət üçün gözəl şans yaranıb ki, bir iki addım atmaqla çox ciddi bir neçə problemin yoluna qoyulmasına nail olunsun. Artıq bu gün ABŞ-da kimsə Azərbaycanda rəngli inqilablar düşüncəsində deyil. Əksinə, Azərbaycanla pozitiv mənada əməkdaşlığın genişlənməsində, islahatların aparılmasında maraqlıdırlar. Bu baxımdan hesab edirəm ki, münasibətlərdə heç də uçurumlu durum yoxdur. Sadəcə, bir istiqamət var ki, o, münasibətlərə hələ də kölgə salır. Bu, ABŞ-ın Azərbaycanla əməkdaşlıq etdiyi üçüncü istiqamətdir. İnsan haqları və demokratiya məsələsi. Azərbaycanda siyasi məhbus məsələsinə son qoyulsa, bəzi siyasi islahatlara gedilsə, ABŞ-Azərbaycan münasibətlərində qeyd etdiyimiz həmin çatışmayan istiqamətdə pozitiv inkişaf edəcək".

❑ **Etibar SEYİDAĞA**

# "Newsweek" jurnalı: "Ərdoğanın mövqeyi Putindən güclüdür"

## Sabiq ABŞ səfəri iki lider arasında barışığı mümkün sayır, ancaq..; **Metyu Brayza:** "Putin dilemma qarşısındadır..."

**Türkiyə paytaxtındakı son qanlı terror aktı bəzi siyasi təhlilçilərin diqqətini yenidən Ankara-Moskva, Ərdoğan-Putin münasibətlərinə yönəldib. Məsələn, o sırada Türkiyə iqtidarına yaxın "Haber 7" saytının köşə yazarı Sərkan Üstünər "Ankara terroru Rusiyanın planlı işidir?" adlı məqaləsində olayda "Rusiya izi"nə işarə vurub.**

"Bütün dövlətlər gözünü bu regiona çevirib və planlarını həyata keçirir. Yenə terror, yenə ağrı... Bu, Ankaradakı üçüncü terrordur... Bundan öncəkinin oxşarıdır. Və yenə də Ərdoğanın Azərbaycan səfərindən öncə... Prezident Ərdoğan martın 15-də Azərbaycana getməli idi. Səfər zamanı "Şahdəniz" qaz yatağı və TANAP layihəsinin sürətləndirilməsi müzakirə olunacaqdı. Terrorun üslubu bundan öncəki ilə eynidir... Əsl sual budur: Rusiya Ərdoğanın Bakı səfərini nə vaxta qədər təxirə sala biləcək? Terror təşkilatlarına daha nə qədər yardım edib, əmr verə bilər?", - deyə şərhçi yazısının sonunda sual edib.

Bəzi analitiklərə görə, Suriya böhranı davam etdikcə və prezidentlər Ərdoğan və Putun arasında soyuq münasibətlər qaldıqca, Türkiyəyə qarşı terror hücumları da ara verməyəcək. Çünki belə hesab olunur ki, həm Suriya böhranı, həm də iki lider arasında gərginlik bölgədə Türkiyəni hədəf seçmiş terror qruplaşmalarının işinə daha çox yarayır, onların əlinə işləyir, çörəkləri üzərinə yağ sürtür. Eyni zamanda bu terror hörgütlərini Türkiyəni istəməyən xarici qüvvələr üçün asan "yem"ə çevirir *(Bu yerdə qeyd edək ki, Rusiya prezidenti 13 mart terror aktı ilə bağlı dərhal Türkiyə xalqına başsağlığı verib)*.

***

Bəs Əroğan-Putin ədavəti daha nə qədər sürə bilər, yoxsa iki dövlətin əlaqələrinin normal məcraya düşməsi üçün onlardan biri mütləq siyasi səhnəni tərk eləməlidir? Bu mövzuda ABŞ-ın **Azərbaycandakı və ATƏT-in Minsk Qrupundakı sabiq səfiri Meyti Brayzanın** Amerikanın "Newsweek" jurnalında dərc olunmuş yanaşması maraq kəsb edir.

"Putinlə Ərdoğanın xarakterləri arasında çoxlu oxşarlıq olduğundan, Rusiya və Türkiyə arasında hazırkı "gizlənpaç oyunu" bir neçə ay sürəcək", - deyə sabiq səfir Brayza münasibətlərin mövcud durumunu şərh edərkən söyləyib. Onun fikrincə, Ərdoğanın mövqeyi Ptininkindən güclüdür: "Ərdoğan NATO-da sayına görə ikinci olan bir ordunun Ali Baş komandanıdır".



**Brayza hesab edir ki, hər iki lider şəxsi hakimiyyətlərini möhkəmlətmək üçün dəmir qətiyyət nümayiş etdirib:** "Onların hər ikisi şəxsiyyətlərinə qarşı həqarətlərə dözümsüzdür və zəif siyasətçilər kimi göstərəcək istənilən addımdan qaçırlar. Bununla belə, Türkiyənin Rusiyadan kardinal fərqləri yekunda hər ikisini qarşıdurmanı dayandırmağa sövq edəcək".

**Eks-diplomat bu fərqləri belə sıralayıb:** "**1.** Rusiya avtoritar ölkədir, Türkiyə isə - yetkin olmasa da, demokratik rejimə sahibdir. Ərdoğan parlament müxalifətini öz siyasi kursunun doğruluğuna inandırmaq zorundadır. Türkiyə hökuməti KİV-ə təzyiq edir. Ancaq türkiyəli jurnalistlər öldürülə biləcəklərindən narahat deyillər. Onların rusiyalı həmkarları isə daima belə bir qorxu içində yaşayırlar. **2.** Türkiyə seçiciləri dinc həyat istəyirlər və çətin ki, Rusiya ilə uzunmüddətli çəkişməni bəyənsinlər".

Brayzaya görə, Putin Türkiyə elektoratının məhz bu istəyi üzərində oynamağa çalışır: "O, iqtisadi sanksiyalar yolu seçib *(Türkiyəyə qaz təchizatının məhdudlaşdırılması, AES tikintisinə dair anlaşmanının ləğvi hədəsi)*. Lakin uzunmüddətli perspektivdə bu, Rusiyaya daha güclü zərbə vuracaq, nəinki Türkiyəyə. Moskva hətta müxalif qüvvələri və dinc sakinləri bombalamaqla Suriyadan Türkiyəyə qaçqın axınının stimullaşdırıb. Ancaq bu, yalnız ona gətirib ki, Türkiyə və Avropa Birliyi daha yaxın əlaqələr qurmaq haqa anlaşma imzalayıb".

**Keçmiş səfirin qənaətincə, Kreml başçısı hazırda dilemma qarşısındadır:** "O, bir yandan Türkiyəni cəzalandırmalıdır ki, rusiyalılar əziz olan əvəzolunmaz lider kimi qalsın. Fəqət, tətbiq elədiyi taktika Rusiyaya strateji ziyan hesabına başa gələ bilər. Elə ona görə də Putin ehtiyatlı danışır və Ərdoğanın üzrxahlığına nail olmağa çalışır".

**Lakin Brayza üfüqdə Ərdoğanın belə bir üzrxahlığını görmür:** "Bunun əvəzində Ərdoğan Ukrayna və Avropa Birliyi ilə əlaqələri möhkəmlədəcək, Rusiya qazına alternativlər axtaracaq. Hərgah, Türkiyə prezidenti də ləyaqətini saxlamaq şərtilə gərginliyi azaltmağın yolunu axtarır".

"Putin Ərdoğanın görüş təklifini qəbul edib, elə təsəvvür yarada bilər ki, bu, elə onun üzrxahlığıdır. O zaman bu iki liderin ortaq xüsusiyyətləri yenidən əməkdaşlıq üçün dayağa çevrilə bilər - necə ki, "Su 24" təyyarəsi vurulanadək elə belə idi" - sonda əlavə edib keçmiş diplomat.

❑ **Siyasət şöbəsi**

# Samir Şərifov Şvetsi necə cəzalandıra bilər?




**Hazırda ABŞ-da maliyyə analitiki qismində çalışan eks sovet kəşfiyyatçısı Yuri Şvetsin Azərbaycanın maliyyə naziri Samir Şərifovu "üç ölkənin agenti" adlandırmasından sonra nazirin özünü necə müdafiə etməli olduğu gündəmə gəldi. Bəzi ekspertlər bildirdilər ki, Samir Şərifov ictimaiyyətə açıqlama verməklə yanaşı, Yuri Şvetsi də məhkəməyə verməlidir. Lakin musavat.com-a açıqlamasında hüquqşünas Müzəffər Baxış söylədi ki, Samir Şərifov məhkəməyə verməklə Şvetsə heç nə edə bilməz: "Şvetsin hazırda vətəndaşı olduğu ABŞ demokratik bir dövlətdir. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi ABŞ-da təsbit olunmayıb. Şvets isə fikirlərini ABŞ-da səsləndirib. Bu baxımdan baş verən hadisənin cinayət adlandırılması üçün bu, həm ABŞ-da, həm də Azərbaycanda cinayət hesab olunmalıdır".**

Məsələ ilə bağlı hüquqşünas Ələsgər Məmmədli isə başqa fikirdədir. O, musavat.com-a məsələnin hüquqi tərəflərini aşağıdakı kimi izah edib:

"Burada iki cür məsuliyyət məsələsi var. Əgər söhbət yalan informasiyanın yayılmasından gedirsə, bu zaman şəxsin şərəf və ləyaqətinə, işgüzar nüfuzuna zərər vermiş, yaxud da ona böhtan atmış olur. Böhtan bizdə Cinayət Məcəlləsinə görə müəyyən olunur. Ancaq yalan informasiya mülki qaydada da mübahisələndirilə bilər. Dünyanın hər yerində yalan mülki qaydada mübahisələndirilir. Buna heç bir problem yoxdur. Yəni əgər Samir Şərifov ona böhtan atıldığın iddia edirsə, o zaman istər orqanın yayıldığı, istərsə də şəxsin olduğu yerdə həm təkzib verilməsi, həm də dəyən zərərin kompensasiya edilməsini tələb edə bilər. Bunun üçün Cinayət Məcəlləsində maddəyə ehtiyac yoxdur. Çünki bu, cinayət əməli kimi yox, mülki qaydada aparılır. Belə olan halda da qarşı tərəfi məhkəməyə vermək mümkündür".

❑ **Əli RAİS**

**Region və dünya ölkələrində baş verənlər Azərbaycan cəmiyyətində də narahatlıqla izlənilir. Xüsusən qardaş Türkiyədə baş verən ardıcıl terror olayları, bu ölkənin paytaxtında ictimai yerlərdə partlayışların həyata keçirilməsi Azərbaycan insanını da sarsıdır. Azərbaycan isə region ölkələrində baş verən bu hadisələr fonunda təhlükəsiz və sabit bir ölkə sayılır. Lakin bu təhlükəsizliyin nə dərəcədə kövrək və ya möhkəm olması insanlarda sual yaradır: Ankarada baş verən terror Bakıda da ola bilərmi? Ölkəmizin təhlükəsizliyinə hansısa daxili və xarici təhdidlər varmı?**

# Regionun ən sabit ölkəsi olan Azərbaycana terror təhdidi varmı...

**"Yeni Müsavat"ın suallarını şərh edən politoloq, "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu bildirdi ki, Azərbaycan sabitliyini qorumağa çalışsa da, hazırda təhlükəsizliyimizi təhdid edən faktorlar az deyil:** "Unutmayaq ki, Qarabağda bu sabitlik hər gün pozulur. Bu səbəbdən demək olmaz ki, Azərbaycanda tam sabitlikdir. Qarabağ münaqişəsi həll olunmayana qədər tam sabitliyin yarandığını söyləmək mümkün deyil. Düzdür, Azərbaycanda terror aksiyaları törədilmir, bu mənada güclü nəzarət var, bu da yaxşı haldır. Ancaq bu heç də o demək deyil ki, Azərbaycanda bu hadisə heç vaxt olmayacaq. Dünyanın ən böyük kəşfiyyata malik ölkəsi olan Amerika belə 2001-ci ildə böyük bir terrorla üz-üzə qaldı, 3 min vətəndaşını itirdi. Bu gün görürük ki, Türkiyənin ən çox qorunan şəhəri Ankara belə terrorçuların hücumuna məruz qalıb, mülki insanları hədəf seçib öldürürlər. Bu səbəbdən Azərbaycanda nə qədər nisbi sabitlik olsa da, o demək deyil ki, bu terrordan tam sığortalanmışıq. Bu səbəbdən tam təhlükəsizlik baxımından da düşünməliyik və təhlükəsizliyimizin artırılması ilə bağlı tədbirlər görməliyik".

**Politoloqun sözlərinə görə, Türkiyədə terror aksiyası törədən təşkilatlar Azərbaycandan heç də uzaq deyil və ölkəmizdə də onların üzvləri mövcuddur:** "Terrorçu təşkilatlar, istər PKK, istər DAEŞ (İŞİD) bizdən o qədər də uzaq məsafədə deyil. Bunların Azərbaycanda da maraqları var, müəyyən qədər fəaliyyətləri var. Bu haqda məlumatlar da var. Təsadüfi deyil ki, Azərbaycanda nə qədər İŞİD-lə əlaqəsi olan insanlar ələ keçirilib. Bu mənada Azərbaycan çox həssas bir bölgədə yerləşir. Bundan başqa, Ermənistan kimi işğalçı bir ölkə ilə həmsərhədik. Bu ölkə də hər an Azərbaycana qarşı diversiya keçirə bilər. Bu hadisələri nəzərə alaraq, biz təhlükəsizliyimizin daha da gücləndirilməsi ilə bağlı düşünməliyik"

**Azərbaycana yönəlik təhdidlərdən danışan ekspert vurğuladı ki, qonşu ölkələrdə baş verənlərin Azərbaycana da təsiri ola bilər:** "Qonşu Suriya, İraq, Türkiyəyə yönəlmiş terror təhdidlərinin Azərbaycana da müəyyən təsirləri var. Birincisi, coğrafi baxımdan o qədər də uzaqda deyil. İkincisi, həmin o terrorçu təşkilatların Cənubi Qafqazda müəyyən maraqları var. Həmçinin Ermənistan terrorçu dövlətdir, ASALA kimi terrorçu təşkilatla əlaqəsi var. Üstəgəl, şimaldan və cənubdan da zaman-zaman bəzi təhlükələrlə üz-üzə qalırıq. Məsələn, bir neçə il öncə, Azərbaycanda "Eurovision" mahnı yarışması ərəfəsində "Hizbullah"a bağlı bir neçə şəxs həbs edildi ki, onlar İsrail səfirliyində terror aksiyası törətmək istəyirdilər. Bütün bunlar onu göstərir ki, çox həssas bir məkandayıq və istənilən tərəfdən bizə təhlükə yarana bilər".



**Arzu Nağıyev:** "Nə qədər ki, Dağlıq Qarabağ münaqişəsi həll olunmayıb, bu, bizim təhlükəsizliyimizə ən böyük təhdiddir"



**Elxan Şahinoğlu:** "Ölkəmizdə nə qədər nisbi sabitlik olsa da, o demək deyil ki, terrordan tam sığortalanmışıq"

**Elxan Şahinoğlu dünyanın ən təhlükəsiz və sabit ölkələrinin Skandinaviya ölkələri olduğunu vurğulayaraq, bunun təkcə daxili deyil, xarici amillərlə də bağlı olduğunu bildirdi:** "Dünyanın ən sabit ölkələri Skandinaviya ölkələridir. Orada uzun zamandır terror hadisələri baş vermir. Həm də o ölkələrə qonşu olan dövlətlərdən də təhdidlər yoxdur, həyat rəvan gedir, inkişaf edirlər. Sonuncu belə hadisə, İsveçin baş nazirinin 1986-cı ildə qətlə yetirilməsi oldu ki, onun qətlinin üstü bu günə qədər açılmayıb. Bir də Norveçdə sağçı bir radikalın törətdiyi bir hadisə var idi. Lakin buna baxmayaraq, bu ölkələr, eləcə də Danimarka sabit ölkələr sayılır. Çünki ətrafda bu ölkələrə təhdid olacaq bir qüvvə də yoxdur. Lakin Azərbaycan özü nə qədər təhlükəsizliyi gücləndirməyə çalışsa da, ətrafda terror varsa, qonşu ölkələrdən təhdid varsa, bu sabitliyi əngəlləyir. Yəni tək özünün sabit olması yetərli deyil, gərək ətrafındakı ölkələrdə də sabitlik olsun ki, oradan sənə təhlükə gəlməsin".

Politoloq **Arzu Nağıyev "Yeni Müsavat"a açıqlamasında bildirdi ki**, ümumiyyətlə, dünyada milli təhlükəsizliyə və dövlət təhlükəsizliyinə bir neçə təhdidlər var: "Bu təhdid sıralayanda, iqtisadi, siyasi, təbii fəlakətlər, terror, dini radikalizm təhdidi və sair. Yəni təxminən 12 cür təhdid var. Bu təhdidlərin sayı 3-dən artıq olanda, dövlətlər təhlükəsizlik haqqında düşünməyə başlayır. Məsələn, Amerika 3 təhdid forması var idi, 11 sentyabr hadisələrindən sonra onlar dini radikalizmi də təhdid kimi qəbul etdilər və bu istiqamətdə müvafiq addımlar atdılar. Azərbaycan elə bir coğrafi mövqedə, elə bir geosiyasi məkanda yerləşib ki, həm də Şərqlə Qərbin vəhdət tapdığı bir nöqtədir. Yəni burada hansısa təhdidlərin olması təbii ki, qaçılmazdır. Unutmaq lazım deyil ki, Suriyadan 400 kilometr aralıda yerləşirik. Bir tərəfdən İran, bir tərəfdən Rusiyanın elə bir sərhədində yerləşirik ki, Şimali Qafqazda baş verən proseslər daim Azərbaycana təsir edir".

**Politoloqun sözlərinə görə, hazırda Azərbaycanın ən böyük problemi Dağlıq Qarabağ münaqişəsinin həll olunmamasıdır:** "Nə qədər ki, Dağlıq Qarabağ münaqişəsi həll olunmayıb, bu bizim təhlükəsizliyimizə ən böyük təhdiddir. Bu baxımdan müəyyən dərəcədə narahatçılıq var və bu narahatçılığın qarşısını almaq üçün istər hüquq-mühafizə orqanları, istər hərbi qüvvələrimiz müvafiq addımlar atır. Yəni Türkiyə ilə və digər böyük dövlətlərlə müqayisədə Azərbaycan böyük dövlət deyil və bu təhlükəsizliyə təhdidlərin qarşısını almaq daha asandır. Dövlət qurumları bu istiqamətdə müvafiq addımlar atır və bu gün qorxulu heç nə baş vermir. Heç bir dövlət terrordan sığortalanmayıb. Lakin bunun qarşısını almaq üçün yerli sakinlər də dövlət orqanları ilə əlaqəli olmalıdır. Metropoliten, hava limanları, dəmiryolu və sair kimi strateji əhəmiyyətli yerlərdə ayıq-sayıqlığı əldən verməmək olmaz".

❑ **Nərgiz LİFTİYEVA**

# Ankara terroru Azərbaycanda da anılır

## Siyasi partiyaların təmsilçiləri Türkiyə səfirliyinə başsağlığı verməyə gedirlər

**Türkiyənin paytaxtı Ankarada baş verən dəhşətli terror aktı zamanı dünyasını dəyişənlərin xatirələri Azərbaycanda da anılır. Sosial şəbəkələrdə sıravi vətəndaşlar, ictimai-siyasi xadimlər bu terror hadisəsini pisləyərək, qardaş ölkənin yanında olduqlarını bildirdilər. Eyni zamanda bir çox siyasi qurumlar Ankarada baş verən terror zamanı dünyasını dəyişənlərin xatirəsini Türkiyə səfirliyinin qarşısına toplanmaqla yad edəcəklərini söylədilər.**

Məsələ ilə musavat.com-a danışan **Vətəndaş Həmrəyliyi Partiyasının sədri Sabir Rüstəmxanlı** bildirib ki, terror qurbanlarını anmaq məqsədi ilə Türkiyə səfirliyinin qarşısına gedəcəklər: "Bu, çox ağır bir faciədir. İnsanlığa, dinə yaraşmayan bir şəkildə dinc əhaliyə qarşı edilən vəhşilikdir. Türkiyəyə qarşı artıq təkcə içəridə deyil, bir sıra beynəlxalq güclər tərəfindən dəstəklənən türk düşmənçiliyi prosesi gedir. Dinc əhali isə bundan əzab çəkib, qorxu içərisində yaşayır. Biz bunu çox pisləyirik. Türkiyənin başı sağ olsun. Türk xalqının dərdinə şərikik".

**Müsavat Partiyasının başqan müavini Elman Fəttah musavat.com-a bildirib ki, partiyanın başqanı terror hadisəsi baş verən günü öz başsağlığını verib:** "Müsavat Partiyasının başqanı bu terrorun nəinki Türkiyə, Azərbaycanı da hədəfə alması haqqında münasibətini bildirib. Ən incəliyinə qədər də bu məsələlərə, həm mənəvi, həm də siyasi baxımdan yüksək səviyyədə diqqətlə yanaşacağıq. Mümkündür ki, Müsavat Partiyası Türkiyə səfirliyinin qarşısına gedərək, terror qurbanlarının xatirəsini ansın".

**Ana Vətən Partiyasının sədri Fəzail Ağamalı da baş verən terror hadisəsi ilə bağlı Türkiyəyə başsağlığı verib:** "Türkiyəyə qarşı çox böyük cəbhə açılıb. Təəssüf ki, bu cəbhə açıq şəkildə deyil, terror vasitəsilə həyata keçirilməkdədir. Dünyada söz sahibi olan Türkiyəni zəiflətmək, regiondakı mövqeyinə zərbə vurmaq üçün müəyyən qüvvələr terrora əl atırlar. Lakin əminəm ki, onlar öz məqsədlərinə nail ola bilməyəcəklər. Türk dövləti öz xalqı ilə bərabər qısa zaman kəsiyində terrorçulara çox ağır zərbələr vuracaq. Hadisə ilə bağlı partiyamızda müzakirələr aparacağıq. Baş verən hadisəyə çox üzülürük".

**KXCP sədrinin müavini Xəzər Teyyublu musavat.com-a bildirib ki, Ankarada baş verən terrorla əlaqədar partiya daxilində toplantı edəcəklər:** "Baş verən faciə ilə bağlı müzakirələr aparacağıq. Ötən dəfə də Ankarada terror olan zaman gənclərimiz Türkiyə səfirliyinin qarşısına toplaşaraq, terror qurbanlarının xatirəsini andılar. Yəqin ki, bu dəfə də belə olacaq. İdarə heyətinin toplantısından sonra məsələ dəqiqləşəcək. Hesab edirəm ki, Ankarada baş verən terror hadisəsi türk dünyası üçün böyük bir təhlükənin başlanğıcıdır. Allah hadisə zamanı dünyasını dəyişənlərə rəhmət eləsin!".

**N!DA Vətəndaş Hərəkatının üzvləri də Türkiyə səfirliyinin qarşısına gedərək, orada terror qurbanlarının xatirəsini anacaqlarını bildiriblər.**

**ADP sədri Sərdar Cəlaloğlu isə musavat.com-a açıqlamasında bildirib ki, baş verən hadisə ilə bağlı səfirliyin qarşısına getməyə gərək yoxdur:** "Partiyamızın idarə heyəti ilə terrorla bağlı məsələni müzakirə etmişik. Öz mövqeyimizi səfirliyə bildirəcəyik. Hesab edirəm ki, səfirliyin qarşısına getməyə ehtiyac yoxdur. Çünki bu terror hadisələri artıq intensiv bir xarakter alıb. 30 ildir ki, Türkiyənin müxtəlif ərazilərində terror hadisəsi törədilir. Hər dəfə də səfirliyin qarşısına getməyin ciddi siyasi mənası yoxdur. Sadəcə olaraq, bu hadisədə türk xalqının yanında olmağı hər hansı bir formada ifadə etmək məqbuldur. Hər bir Azərbaycan vətəndaşı qardaş Türkiyə dövlətinin yanında olduğunu nümayiş etdirməlidir. Biz də bir partiya olaraq bunu bəyanat şəklində ifadə edirik. Terroru lənətləyirik, bunu bölgədə marağı olan güclərin Türkiyəyə qarşı apardıqları çirkli oyunların tərkib hissəsi hesab edirik. Terrorun kökünün kəsilməsi üçün bütün dünya dövlətlərinin Türkiyəyə dəstək verməsini vacib bilirik. Terrorçuların arxasında duran hansı dövlət olursa-olsun, onlar cavab verməlidir. Əslinə baxarsaq, terror bölgədə Türkiyənin təsirini azaltmaq istəyən qüvvələrin əlində bir maşadır. Bunun "dəstəyindən kim tutubsa" o da dünya ictimaiyyəti qarşısında cavab verməlidir".





❑ **Əli RAİS**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 59 (6380) 15 mart 2016

**Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi ilə bağlı illərdir aparılan yalançı sülh prosesinin özü də son zamanlar dondurulmuş vəziyyətdədir. Ermənistanın aqressiv siyasətini görməzliyə vuran, üstəlik, Avropa Şurasının Parlament Assambleyasının işğalçıya qarşı ortaya qoyduğu sənədin qəbuluna imkan verməyən ATƏT-in Minsk Qrupunun həmsədrlərinin fəaliyyətindən rəsmi Bakının imtinasından sonra qəribə durum müşahidə olunmaqdadır.**



Elxan Şahinoğlu



Üzeyir Cəfərov



# Rusiya Qarabağ danışıqlarında yaxasını kənara çəkir

## Həmsədrlərin öz etibarını itirməsi şəraitində meydana Almaniya girir; Berlin Azərbaycan və Ermənistan parlamentarlarını bir araya gətirəcək; politoloq: "Bakı Kremlin münaqişənin həllində ədalətli mövqeyinə bel bağlamamalıdır..."

Məsələ burasındadır ki, rəsmi Moskva da münaqişənin həlli prosesindən yaxasını kənara çəkmək siyasəti yürüdür. Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskovun bir müddət öncə açıqladığı mövqe elə Rusiya hakimiyyətinin iradəsini əks etdirir. "Dağlıq Qarabağ münaqişəsinin həlli beynəlxalq vasitəçilər tərəfindən deyil, yalnız onun iştirakçıları tərəfindən tapıla bilər. Bununla yanaşı, Rusiya münaqişənin həllinə yardım etmək üçün beynəlxalq formatlarda ardıcıl işlər görür" -deyən Rusiya rəsmisi bununla məsuliyyəti qarşı duran tərəflərin üzərinə qoyub. Onun "münaqişə ilə bağlı yekun qərar yalnız münaqişənin iştirakçıları tərəfindən verilə bilər. Nə beynəlxalq vasitəçilər, nə də Rusiya Ermənistan və Azərbaycanın əvəzinə münaqişəni nizamlaya bilməz" sözləri şübhəsiz ki, balanslı mövqedən xəbər vermir. Əgər biz nə vaxtsa Rusiyanın İrəvana işğaldan əl çəkməsi ilə bağlı təzyiqlərinin şahidi olsaydıq, o halda Peskovun mövqeyində saf niyyətdən bəhs etmək mümkün idi.

Adətən Rusiya nəinki Cənubi Qafqazdakı, hətta dünyanın ucqar nöqtələrindəki münaqişələrə də təsir imkanlarını saxlamaq üçün çeşidli planlar qurur. Hətta Azərbaycan və Ermənistan prezidentlərinin Avropa ölkələrində nəzərdə tutulan görüşləri ərəfəsində Moskvanın narahatlıq keçirməsinin və cəbhədə süni gərginliyin məhz Kremlin işarəsi ilə yaranmasının dəfələrlə şahidi olmuşuq. Qarabağ münaqişəsinin həllinin "açarı"nın Moskvada olması barədə fikirlər də hələ ki bəzi çevrələrdə aktuallığını qoruyub saxlayır. Belə olan təqdirdə Rusiyanın öz yaxasını kənara çəkməsi sözsüz ki, səbəbsiz deyil.

**Politoloq Elxan Şahinoğlu da "Yeni Müsavat"a açıqlamasında Moskvadan münaqişə ilə bağlı verilən son reaksiyanı səbəbsiz saymır:** "Rusiya prezidentinin mətbuat katibinin sözlərini belə anlamaq lazımdır ki, Azərbaycan və Ermənistan prezidentləri Rusiyadan Dağlıq Qarabağ münaqişəsinin həllini gözləməsinlər. Əslində Ermənistanın heç belə bir gözləntisi də yoxdur. Dmitri Peskovun mesajı daha çox rəsmi Bakıya ünvanlanıb. Çünki məhz Azərbaycan hakimiyyəti Rusiyanın Ermənistana təsir edəcəyini gözləyir. Rusiya prezidenti Vladimir Putin isə mətbuat katibinin vasitəsilə demək istəyir ki, Moskva İrəvana təsir etməyəcək və Dağlıq Qarabağla bağlı status-kvo Kremli narahat etmir, tam əksinə, indiki vəziyyətdən razıdırlar. Peskovun dediyi kimi, əgər münaqişənin həlli beynəlxalq vasitəçilər tərəfindən deyil, yalnız onun iştirakçıları tərəfindən tapılmalıdırsa, Putin niyə ara-sıra Azərbaycan və Ermənistan prezidentlərini görüşdürür və ya keçmiş dövlət başçısı Dmitri Medvedyev niyə azərbaycanlı və erməni həmkarını düz 10 dəfə bir araya gətirmişdi?"

**E.Şahinoğlu hesab edir ki, Azərbaycan məsələyə ötəri münasibət göstərməməlidir:** "Məncə, rəsmi Bakı Peskovun mesajını düzgün oxumalı və Rusiyanın münaqişənin həllində ədalətli mövqeyinə bel bağlamamalıdır. Sadəcə, mənim üçün bir məsələ qaranlıq qalır: əgər Rusiya münaqişənin həlli ilə bağlı neytrallığını elan edirsə, sabah Azərbaycan ordusu Dağlıq Qarabağ ətrafındakı rayonları boşaltmağa başlayarsa, Moskva neytrallığına davam edəcəkmi? Mən buna inanmıram. Rusiya əlindən gələn hər şeyi edəcək ki, Azərbaycan Dağlıq Qarabağ münaqişəsini öz xeyrinə həll etməsin. Yaxın tarixdə baş verənlər də bundan xəbər verir. Ona görə də Peskovun sözləri diqqəti yayındırmaq məqsədi daşıyır". Ekspertin fikrincə, onsuz da hər iki tərəfin ümidi daha çox Moskvayadır: "Ancaq Kremlin indiki status-kvonu dəyişməyə həvəsi yoxdur".

**Maraqlı və həm də təəccüblü situasiya yaranıb. Kreml adətən təşəbbüsü əldə saxlamağa çalışırdı, hətta Qərbin önə keçməsinə, danışıqlara ev sahibliyi etməsinə imkan vermirdi . Amma indi yaxasını kənara çəkir. Özü də bu mövqe Putin-Sərkisyan görüşündən sonra açıqlanıb. Nə baş veirir, Rusiya prosesləri Qərbin ixtiyarına verir, yoxsa Amerika və Avropanın müdaxilə imkanlarının zəifliyindən bu qədər arxayınçılıq nümayiş etdirir?**

**E.Şahinoğlu:** "Qərbin Dağlıq Qarabağ münaqişəsinin həllinə marağı yoxdur. Ona görə də Kreml özünü o qədər də rahatsız hiss etmir ki, ABŞ və ya Avropa İttifaqı münaqişənin həllində təşəbbüsü ələ almaq istəyir. Əgər Kreml öz maraqları üçün belə təhlükəni hiss etsə, münaqişənin həllində yalançı fəallıq nümayiş etdirəcək. İndiki halda isə Kreml özünü komfort hiss edir".

Məhz bugünlərdə Azərbaycan-Ermənistan qoşunlarının təmas xəttində gərginliyin yaranması, təxribat-diversiya hərəkətlərinə cəhd edən düşmənə ordumuzun tutarlı cavab verməsi düşmən üçün gözlənilməz olub. Hətta erməni tərəf etiraf edir ki, o, belə bir cavabı gözləmirmiş. Xüsusilə də Sərkisyanın Moskvada olduğu saatlarda Azərbaycanın ona sarcıdıcı zərbə vurmağa cəsarət etməyəcəyini düşünən erməni tərəf bu dəfə ciddi dərs alıb. Putin-Sərkisyan görüşündən sonra müdafiə naziri Zakir Həsənovun cəbhədə verdiyi mesaj-xəbərdarlıqlar da diqqət çəkir.

**Hərbi ekspert Üzeyir Cəfərov hesab edir ki, qoşunların təmas xəttində son günlər baş verən hadisələr həm miqyasına, həm də ciddiliyinə görə bundan əvvəl baş verənlərdən çox fərqlənir:** "Əvvəla, ilk dəfə idi ki, Azərbaycan tərəfi düşmənə ən sərt və ən kəskin formada təkcə ön xətdə yerləşən mövqelərinə deyil, düşmənin ikinci eşelonunda yerləşən bölmələrinə də zərbələr endirdi. İndiyə kimi Silahlı Qüvvələrimizin yalnız cavab atəşinə öyrənmiş işğalçı orduya bu dəfə əməlli-başlı "toy" tutuldu. Hətta Ermənistan tərəfinin özünün də etiraf etdiyi kimi, onlar belə sarsıdıcı zərbəni gözləmirlərmiş və bu, onlara bir növ "soyuq duş" təsirini bağışlayıb". **Hərbi ekspert şübhə etmir ki, gərginliyin Moskvada keçirilən Putin-Sərkisyan görüşü ilə birbaşa əlaqəsi var idi:** "Heç kim deyə bilməz ki, bu, belə deyil. Birincisi, son vaxtlar Bakıya gəlmiş xeyli sayda NATO rəsmilərinin, ABŞ nümayəndələrinin, eləcə də Rusiya hökumətinin yüksək çinli nümayəndələrinin - baş nazirin müavini Dmitriy Roqozin və xarici işlər nazirinin müavini Qriqoriy Karasinin təcili səfərləri də onu deməyə əsas verirdi ki, bəzi dairələr çox narahatdırlar. Hələ üstəlik, ənənəvi IV Qlobal Bakı Forumunun çox yüksək səviyyədə keçirilməsi də cəbhədəki ümumi vəziyyətə ciddi təsir edən amillərdən idi. Bir sözlə, rəsmi Bakının sərbəst şəkildə müstəqil siyasət yürütməsi əlbəttə ki, Azərbaycanı istəməyən qüvvələr üçün bir bəhanə idi ki, onlar nankor qonşularımız vasitəsilə vəziyyəti gərginləşdirsinlər. Belə ağılsız siyasətin nəticəsi idi ki, erməni tərəfi xeyli canlı qüvvə və texnika itkisinə məruz qaldı".

Ü.Cəfərov xatırladtı ki, onsuz da bu ərəfədə Azərbaycan və qardaş Türkiyə Silahlı Qüvvələrinin "Turaz şahinləri-2016" birgə hərbi hava və hava hücumundan müdafiə qüvvələrinin təlimləri bəzi qüvvələrin yuxusuna haram qatmışdı: "Ümumiyyətlə, atəşkəsin pozulması xronikasına diqqət yetirsəniz, asanlıqla görə bilərsiniz ki, hər ilin bu aylarında sanki erməni tərəfinin" əsəbləri pozulur". Onlar daha çox Novruz bayramı günlərində təmas xəttində vəziyyəti gərginləşdirməyə və şəxsi heyətə maksimum ziyan vurmağa çalışırlar. Ona görə də yerlərdə komandanlıq bu məqamları diqqətə alsa, yaxşı olar. Bütün baş verənlərin fonunda düşünürəm ki, lokal toqquşmalar genişmiqyaslı hər hansı bir aktiv döyüş əməliyyatlarına gətirib çıxartsın. Hətta nəzəri baxımdan belə bir halın olacağını düşünsək belə, ordumuzun bütün hərbi hissə və bölmələri istənilən varianta hazır vəziyyətdədir".

****

Rusiyanın sülh prosesində moderatorluq etməyə belə həvəsli görünmədiyi bugünlərdə Avropadan diqqətçəkən reaksiya müşahidə olunmaqdadır. ATƏT-in Minsk Qrupunun həmsədri olmağa ən real namizədlərdən biri Almaniya tərəfləri bir araya gətirməyi planlaşdırır. «Dailykarabakh»a açıqlamasında Azərbaycanın ATƏT Parlament Assambleyasındakı nümayəndə heyətinin rəhbəri, **Milli Məclisin sədr müavini Bahar Muradova** deyib ki, Azərbaycan və Ermənistan nümayəndə heyətlərinin iştirakı ilə Almaniyada toplantının keçirilməsi nəzərdə tutulur. B.Muradova bildirib ki, aprel ayında Almaniyanın özünün təcrübəsində mövcud olan bir münaqişənin həlli, Saar bölgəsinin Almaniyaya qaytarılması ilə bağlı təcrübə mübadiləsinə əsaslanan seminarın keçirilməsi nəzərdə tutulub. Həmin tədbirə Azərbaycan və Ermənistan nümayəndə heyətləri də dəvət edilib. Vitse-spiker qeyd edib ki, Azərbaycan həmin tədbirdə iştirak etməyə öz razılığını verib: "Ermənistan tərəfi hələ də düşünür. Bu seminarda iştirakın özü Almaniyanın ATƏT-ə sədrliyi dövründə Minsk konfransının keçirilməsinə bir dəstək ola bilər. Ermənistanın razılaşması olarsa, bu, Almaniyanın sədrliyi dövründə Dağlıq Qarabağ probleminin həllinə bir töhfə verəcək".

**B.Muradovanın sözlərinə görə, belə bir tədbir baş tutarsa, Azərbaycanın işğal faktı, müharibənin Azərbaycan ərazisində olması, qurbanların daha çox azərbaycanlıların olması müzakirə ediləcək. Vitse-spiker hesab edir ki, Azərbaycan haqlı olaraq Minsk Qrupunun həmsədrlərinin fəaliyyətini tənqid edir:** "Çünki nəticə yoxdur. Nəticə olmayan təqdirdə necə fəaliyyətdən danışmaq olar. Minsk Qrupu həmsədrləri öz imkanları və səlahiyyətlərindən lazımınca istifadə etmir. İldə bir dəfə heç olmasa, Minsk konfransı keçirilməlidir. Yalnız həmsədr ölkələr münaqişənin həlli məsələsini öz monopolasiyasına alıb. Digər beynəlxalq təşkilatlar da müzakirəni istəmirlər. Həmsədr ölkələrin fəaliyyəti status- kvonun saxlanmasına xidmət edir".

Almaniyanın kansleri Anjela Merkel ötən il atəşkəsin Ermənistan tərəfindən pozulmasına görə həm də Rusiyanı günahlandırmaqla ədalətli mövqe sərgiləmişdi. Almaniya Bundestaqı da Azərbaycan ərazilərinin işğalına etiraz edib. Hesab olunur ki, Türkiyə ilə bərabər Almaniyanın da həmsədr olaraq fəaliyyət göstərməsi danışıqların dalandan çıxarılmasına ciddi təkan verər və münaqişənin tənzimlənməsində mühüm rol oynayar. Apreldə keçiriləcək görüşün müzakirə mövzusu da Azərbaycan üçün əlverişli və cəlbedicidir. Söhbət Saar bölgəsinin Almaniyaya qaytarılması ilə bağlı təcrübə mübadiləsinə əsaslanan seminarın keçirilməsindən gedir...

**"Azərbaycan Qarabağda genişmiqyaslı müharibəyə getməyəcək, lakin Türkiyə və Almaniyanın dəstəyi ilə münaqişəni öz xeyrinə həll etmək istəyir". Publika.az xəbər verir ki, bu barədə Ermənistanın keçmiş müdafiə naziri Vaqarşak Artünyan deyib. Eks-nazir hazırkı vəziyyətin qorxulu olduğunu və Ermənistanın məğlub duruma düşəcəyini qeyd edib.** "Təbii ki, biz Rusiyaya inanırıq, lakin kim zəmanət verə bilər ki, Rusiya Qarabağ müharibəsində Azərbaycanın uduzmağını istəyəcək" - o bildirib.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 59 (6370) 15 mart 2016

# Azərbaycanın ÜTT-yə üzvlüyü məsələsi aktuallaşır - reallıq və bəhanələr...

## Ekspertlər neftin ucuzlaşması və iqtisadi böhranın fonunda məsələyə bir daha diqqət çəkirlər, amma...

**Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına (ÜTT) üzvlüyü ilə bağlı müzakirələr ötən ilin ortalarında dayandırılsa da, iqtisadi vəziyyət səbəbindən məsələ yenidən aktuallaşıb. Ötən il dayandırılan müzakirələrin sonucu olaraq bildirilirdi ki, bununla bağlı ikitərəfli və çoxtərəfli danışıqların növbəti raundu 2016-cı ilin ortalarından əvvəl baş tutmayacaq. Bu ilin fevralında isə Avropa İttifaqının xarici əlaqələr və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Federika Mogerini bildirib ki, Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına üzvlüyü səmərəli addım olar. O qeyd edib ki, ÜTT-yə üzvlük daha dərin iqtisadi inteqrasiyaya gətirib çıxaran bir addımdır. "Bu, Azərbaycanda keçirilən iqtisadi islahatlara da öz töhfəsini vermiş olardı".**




Ekspertlər isə musavat.com-a bildiriblər ki, indiki dövrdə ÜTT ilə bağlı müzakirələr çox əhəmiyyətlidir. **Ekspert Fikrət Yusifovun** sözlərinə görə, Ümumdünya Ticarət Təşkilatı ölkələr arasında ticarətin ümumi qaydalarını müəyyənləşdirən yeganə beynəlxalq təşkilatdır: "Bu təşkilatın başlıca vəzifəsi ticarətin səmərəli və maneəsiz bir şəkildə aparılmasını təmin etməkdən ibarətdir. Məqsəd üzv ölkələrin əhalisinin rifah halını yaxşılaşdırmaqdır. ÜTT çoxtərəfli ticarət sazişləri əsasında ölkələrarası ticarət münasibətlərinin tənzimlənməsini həyata keçirir. ÜTT-nin 160 üzvü var və 24 ölkə burada müşahidəçidir. Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına üzvlük məsələsi 1990-cı illərin ortalarından müzakirə edilir və 1997-ci ildən ölkəmizin ÜTT ilə müşahidəçi keyfiyyətində əlaqələri mövcuddur. Əslində bu illər ərzində təşkilata üzv olmaqla bağlı danışıqlar davam edilib, çoxlu sayda müzakirələr keçirilib və bu proses bu gün də davam edir. Bəs nə üçün məsələnin həlli bu qədər uzanır? Başlıca səbəb budur ki, Azərbaycan hökuməti təşkilata üzv olmazdan öncə, bunun ölkə üçün nə kimi nəticələr verə biləcəyinin fərqindədir və bu da çox təbii bir haldır. Bu gün Azərbaycan iqtisadiyyatının neftdən asılılığı kifayət qədər yüksəkdir. İqtisadiyyatın real sektoru isə hələ ki lazımi səviyyədə inkişaf etməyib. Hazırkı dönəmdə hökumət ölkədə real sektorun sürətli inkişafı üçün mümkün ola biləcək bütün addımları atır. Bu hər kəsin gözü qarşısında baş verir. Lakin bu sektorun lazım olan bir səviyyəyə qədər qalxımı üçün bir neçə il vaxt lazımdır. Azərbaycan ÜTT-yə üzv olarsa, ölkəyə idxal edilən məhsullar gömrük vergilərindən azad ediləcək. Bu isə o deməkdir ki, ölkə ərazisində istehsal edilən eyni məhsullar daxili bazarda rəqabət qabiliyyətini itirəcək və nəticə etibarı ilə bu məhsulları istehsal edən müəssisələr öz fəaliyyətini dayandırmalı olacaqlar. Çünki xaricdən gətirilən məhsulların qiymətləri, onların gömrük vergilərindən azad olunması səbəbindən, yerli istehsal məhsullarının qiymətlərindən əhəmiyyətli dərəcədə aşağı olacaq. Bu isə yerli istehsalın çökdürülməsi ilə nəticələnə bilər. Bu gün dövlət yerli istehsalın artırılmasına dəstək verməklə, onun inkişafına mane olan məqamları aradan qaldırmaqla, ilk növbədə, daxili bazarın yerli istehsal məhsullarına olan tələbatını tam ödəmək məqsədlərini reallaşdırmaq istəyindədir. Real sektorun inkişafının bu mərhələsi başa çatdıqdan - yəni yerli istehsal hesabına daxili bazarın tələbatı tam təmin edildikdən sonra həmin məhsulların xarici bazarlara ixracı ən mühüm məsələlərdən biri olacaq. Heç şübhə yoxdur ki, bunun üçün də hökumət ixracı stimullaşdıra bilən addımlar atmalıdır. Bu addımların ən vacib olanlarından bir neçəsi artıq atılıb. Ölkənin milli valyutası ixracı stimullaşdıra biləcək bir səviyyəyə qədər yumşalıb. Manatın iki devalvasiya nəticəsində kəskin şəkildə ucuzlaşması arzuedilən bir hal olmasa belə, bütövlükdə bu ucuzlaşma ixracı stimullaşdırmaq üçün başlıca alətə çevrilə bildi. Digər tərəfdən, gömrük sistemində aparılan islahatlarla burada şəffaflıq təmin edildi, ixracın təşviq edilməsi barədə qərar qəbul olundu və digər zəruri addımlar atıldı. Azərbaycanın ÜTT-yə üzvlüyü ilə bağlı dediklərimizi qısaca olaraq belə ümumiləşdirmək mümkündür. Azərbaycanın ÜTT-yə üzvlük məsələsi məhz real sektorun məhsullarının xarici bazarlara kifayət qədər böyük həcmlərdə çıxarılmasına nail olunduqdan sonra, yəni ölkə iqtisadiyyatının neftdən asılılığı optimal həddə endirildikdən sonra mümkündür. Bu isə o deməkdir ki, yaxın 2-3 ildə ölkəmizin ÜTT-yə üzv olması real deyil".

Qeyd edək ki, ekspertlər ÜTT-yə üzv olmağın Azərbaycan iqtisadiyyatı üçün neftin qiymətinin aşağı düşməsi fonunda daha vacib olduğunu vurğulayırlar. Ekspertlərin fikrincə, Azərbaycanın bu quruma nə vaxt üzv olacağı bəlli deyil. Yəni hökumət üzvlüyün yaxın illərdə mümkün olacağına o qədər də inanmır. Həmçinin qeyd edilir ki, Azərbaycan ÜTT-yə üzvlüyünü gecikdirməklə çox böyük risk altına girir. Gecikmə ölkəni gələcəkdə əsassız tələblərlə üz-üzə qoya bilər. Ancaq ortalıqda siyasi iradə olsa, Azərbaycanın qısa zamanda təşkilata üzv olması mümkündür.

**Ekspert Vüqar Bayramov qeyd edib ki, MDB ölkələrinin Ümumdünya Ticarət Təşkilatına üzv olması Azərbaycanın bu qurumla danışıqlarının sürətlənməsinə gətirib çıxara bilər:** "Bu, birmənalı şəkildə həm də ona görə vacibdir ki, Azərbaycan üçün daxili bazarda rəqabətin güclənməsi, eyni zamanda ixracatın artırılması baxımından kifayət qədər müsbət təsirlərə malik olacaq. Azərbaycan iqtisadiyyatının MDB üzvlüyünə hazır olması olduqca vacibdir. Yalnız müsbət deyil, müəyyən neqativ də təsirləri olacaq. Məsələn, aqrar sektorda və daxili bazarda rəqabətin qorunması və xarici kapitalın ölkəyə daxil olması səbəbindən yerli iş adamlarının rəqabət qabiliyyətinin aşağı düşməsi ehtimalı var. Və bəzi kiçik və orta müəssisələrin müflis olması kimi müəyyən risklər var. Amma bu risklərə rəğmən, ölkənin ÜTT-yə üzvlüyü olduqca vacibdir. Quruma danışıqlar xeyli müddətdir, 1997-ci ildən davam edir. Bu, əslində göstərir ki, bu müddətdə Azərbaycanla ÜTT arasında standartlarla bağlı 80 fazə yaxın məsələlər razılaşdırılıb. O baxımdan, Azərbaycan qərar verərsə, bu halda növbəti bir il ərzində üzv olması realdır. ÜTT-yə üzv olmaq Azərbaycan iqtisadiyyatı üçün neftin qiymətinin aşağı düşməsi fonunda daha vacibdir".

**Ekspert Natiq Cəfərli isə qeyd edib ki, Azərbaycan hökuməti 1997-ci ildən bəri ÜTT ilə danışıqlar aparır. Amma bütün ölkələr üzv olmaq üçün danışıqlar apardığı təqdirdə, Azərbaycan hökuməti sanki üzv olmamaq üçün danışıqlar aparır.** "Yəni bütün maneələr Azərbaycan hökuməti tərəfindən yaradılır. Gürcüstana, Ermənistana üzvlük təklif olunanda, onlarla birlikdə Azərbaycana da təklif olunmuşdu. Amma Azərbaycan imtina etdi. İmtina edərkən Azərbaycan hökumətinin bircə gətirdiyi arqument var ki, Azərbaycan daxili bazarını qorumaq istəyir. Daxili bazarını qorumaq üçün də quruma üzv olmur. Bu, çox bəsit və yalan bəhanədir. Çünki daxili bazarı qorumaq istəyən ölkə yerli istehsalı gücləndirərdi. Son illərdə biz əksini görürük",- deyə ekspert qeyd edib. Onun sözlərinə görə, Azərbaycanın ÜTT-yə üzv olmamasının yeganə səbəbi odur ki, oraya üzvlük gömrükdə və vergidə yeni oyun qaydalarının, beynəlxalq standartlara uyğun qaydaların götürülməsinə xidmət etməlidir: "Azərbaycan Beynəlxalq Ticarət Arbitrajının yuridiksiyasını qəbul edir. Gömrükdə və vergidə istədiyi qaydaları tez-tez dəyişərək, istədiyi inhisarçı qaydalar gətirməkdən məhrum olacaq. Ona görə də Azərbaycan hökumətində iri çaplı məmurlar bu işi sabotaj edirlər ki, Azərbaycan ÜTT-yə üzv olmasın. Çünki onların birbaşa şəxsi maraqlarına toxunur, ticari maraqlarına toxunur. Əgər ölkə ÜTT-yə üzv olsa, əsasən də istehlakçılar üçün ciddi irəliləyiş olacaq, ciddi üstünlüklər olacaq. Azərbaycan bazarı keyfiyyətli və ucuz mallara açıq olacaq. Azərbaycan gömrüyündə şəffaflıq artacaq. Azərbaycanın yerli biznesmenləri də xaricə mal ixrac edərkən daha şəffaf qaydalardan istifadə edəcəklər".

❑ **Röya RƏFİYEVA**

# Rusiyada neft gəlirləri 43 faiz azalıb, bəs bizdə?

## Ekspertlər itkilərin 65 faizdək olduğunu deyirlər

**2016-cı ilin yanvarında Rusiyanın neft ixracından əldə etdiyi gəlirlər keçən ilin yanvarının göstəricisi ilə müqayisədə 43,71 faiz - 4,42 milyard dollaradək azalıb. Bu barədə Federal Gömrük Xidmətin məlumatında bildirilir.**



Məlumata görə, Rusiya neft ixracının həcmini 2,26 faiz-19,197 milyon tonadək azaldıb. Uzaq xarici ölkələrə neftin ixracı 2,45 faiz- 17,206 milyon tonadək azalıb. İxracın həcmi pul vahidində 4,159 milyard dollar təşkil edib (2015-ci ilin yanvar göstəricinsən 44,7 faiz az). MDB ölkələrinə neftin ixracı 0,55 faiz- 1,99 milyon tonadək azalıb, pul vahidində bu göstərici 19,4 faiz- 261 milyon dollaradək azalıb. Neft məhsullarının ixracı 2016-cı ilin yanvarında 25,1 faiz-10,803 milyon tonadək azalıb. Pul vahidində bu göstərici 3,052 milyard dollar azalıb (2015-ci ilin yanvar göstəricindən 1,3 dəfə azdır).

Yerli ekspertlər Rusiya ilə Azərbaycanın bu sahədə müqayisəsini aparırlar. Ortaya fərqli rəqəmlər çıxıb. Bildirilir ki, hər iki ölkənin neftdən asılılığı olduğundan, gəlirlərin azalması təbiidir. Azərbaycanda isə vəziyyət Rusiya ilə müqayisədə daha pisdir. Çünki ölkənin ixracatında neftin payı daha çox - 94 faizdir.

**Ekspert Natiq Cəfərli məsələ ilə bağlı musavat.com-a bildirib ki, Azərbaycanın neft gəlirlərinin müqayisəsini apardıqda, təxminən Rusiyadakı vəziyyətin olması ortaya çıxır:** "2015-ci ilin gəlirləri ilə 2014-cü ili müqayisə etdikdə, vəziyyət aşağı-yuxarı o səviyyələrdədir. Bu ilin yanvar ayında da keçən ilin yanvarına nisbətən gəlirlərdə təxribən 30 faizə yaxın azalma müşahidə olunur. Fevral və mart ayının statistikası hələ açıqlanmayıb. Tendensiya belədir. Təbiidir, neftin qiyməti düşür və Rusiyada da, Azərbaycanda da ixracatda dominant rolu neft oynayır. Hətta Rusiya bu mənada bizdən daha yaxşı durumdadır. Çünki ixracatda neftin payı 50 faiz civarındadır. Amma bizdə ixracatda enerjidaşıyıcılarının payı 94 faizdir. Biz daha pis durumdayıq. Bizdə də neftin qiymətinin azalması təbii ki, ölkənin gəlirlərinin azalması ilə müşahidə olunur. Ölkənin gəlirləri azaldıqca da bu gün yaşanan problemlər ortaya çıxır".

**Rəşad Həsənov isə musavat.com-a bildirib ki, ötən il ölkənin neft gəlirlərinin 65 faizə qədər azaldığını söyləmək olar:** "Bununla bağlı konkret rəqəmlər olmasa da, ümumiyyətlə, 2014- cü il ərzində Azərbaycanın satdığı neftin orta qiyməti təxminən 100 dollar ətrafında olub. Amma bu, 2015-ci ildə 54 dollara qədər azalıb. Nəticədə hər barel üçün ölkənin neft gəlirlərində 46 faizə yaxın azalma baş verib. Nəzərə almaq lazımdır ki, bu, xalis mənfəətə daha kəskin təsir göstərir. Neftin maya dəyərinin düşmədiyini nəzərə alsaq, ümumi ölkəyə daxilolmalar fonunda maya dəyəri çıxılmaq şərti ilə hasilatın pay bölgüsü əsasında əldə etdiyi gəlirlərin daha artıq azalmasını görə bilərik. Amma onu da vurğulamaq lazımdır ki, parelel olaraq da Azərbaycan neft sektorundan dövlət büdcəsinə vergi daxilolmalarından gəlirlər əldə etdi. Neftin maya dəyərinin azalması vergi ödənişlərinin həddinə də mənfi təsir göstərib. Ümumiyyətlə isə təxminən 2015-ci il ərzində Azərbaycanın neftdən mənfəətinin 65 faizə qədər azalma ehtimalı var".

❑ **RÖYA**

YENİ MÜSAVAT
N 59 (6380) 15 mart 2016

**Sosial şəbəkələrdə yayılan Bakıdakı şadlıq saraylarının birində lüləkababın hazırlanmasını əks etdirən görüntülər insanları dəhşətə gətirib. Sən demə, toylarda yediyimiz lülə kababın içinə həm də toyuq ayağı (dırnağı ilə birlikdə), toyuq qanadı, dəri və sair də qatılırmış. Üstəlik, həmin ətlərin keyfiyyətsiz olduğu ilk baxışdan anlaşılır.**

# Toyuq ayaqlarından lüləkabab...

## Restoran və şadlıq evlərində yediklərimiz dəhşət saçır; ekspertlər xəbərdarlıq edir; Azərbaycanda hələ də qida təhlükəsizliyi ilə bağlı qanun yoxdur...

Bu durum sağlamlığımızın nə dərəcədə təhlükədə olmasından xəbər verir. Digər bir problem isə odur ki, restoranlarda verilən yeməklərin təhlükəsizliyinə heç bir qurum tərəfindən nəzarət olunmur. Təəssüflər olsun ki, insanlar restoranlarda yedikləri qidadan zəhərlənəndə belə kimsə məsuliyyətə cəlb edilmir.

**Azad İstehlakçılar Cəmiyyətinin rəhbər Eyyub Hüseynov "Yeni Müsavat"a danışarkən bildirdi ki, restoranlarda mümkün olan nə varsa, hamısı farşlara qarışdırılır, keyfiyyətə isə heç kim nəzarət etmir:** "Elə olur ki, farşlar ətdən daha ucuz başa gəlir. Çünki içinə nə gəldi qatırlar. Bu problem bütün dünyanın diqqətindədir. 15 mart Beynəlxalq İstehlakçılar Günüdür. Beynəlxalq İstehlakçılar Təşkilatı bütün ölkələrə bəyanat yayıb ki, heyvan ətləri ilə ümumiyyətlə ehtiyatlı olmaq lazımdır. Çünki onların tərkibində antibiotiklər, yəni baytarlıq dərmanlarının qalıqları qalır. Belə getsə, yaxın 20 ildə insanların dərmanlara adaptasiyası əmələ gələcək və dərmanlar insanlara heç cür təsir etməyəcək, böyük problemlər yaşanacaq".



**E.Hüseynov təəssüflə qeyd etdi ki, ölkə prezidentinin yaratdığı bu cür rahat şəraitdən 4 aydır sahibkarlar tam sui-istifadə edir:** "Ona görə bu yaxınlarda Standartlaşdırma və Patent üzrə Dövlət Komitəsinin sədri Ramiz Həsənov da bu məsələyə toxundu. Hesab edirəm ki, bu məsələdə dövlət qurumları da konkret iş görməlidir və bunun qarşısı alınmalıdır. Bu məsələdə dövlət orqanları tam biganəlik göstərir. Belə getsə, insanların səhhətində ciddi mənada problemlər olacaq, onları apteklərdə daha çox görəcəyik. Odur ki, ictimai nəzarəti həyata keçirmək üçün mütləq KİV də bu yoxlamalarda təmsil olunmalıdır. Yaxşı olar ki, bu, komitənin nəzdində olsun. Dövlət orqanı media və ictimai təşkilatlarla birgə işləməlidir. Çox təəssüf ki, biznes qurumları hazırda insanları ölümə aparır".

**Ekspertin sözlərinə görə, Azərbaycanda qida təhlükəsizliyi ilə bağlı qanun hələ də qəbul olunmayıb və bu durum qidaların keyfiyyətinə nəzarət etməyə imkan vermir:** "Dəfələrlə bu qanun layihəsi hazırlanıb, beynəlxalq təşkilatlar tərəfindən tövsiyələr verilib. Lakin Milli Məclisdə bu qanun nə müzakirə olunur, nə də qəbul edilir. Ümumiyyətlə, heç gündəliyə də salınmır. Bunun iki səbəbi ola bilər. Əhalinin səhhətində problemlərin olmasında maraqlı qüvvələr var. Çünki hazırda klinikalar, apteklər insanlarla doludur. İnsanın yediyi birbaşa səhhətinə təsir edir. Hippokratın dediyi kimi, biz nə yeyiriksə, oyuq. Heç bir qanun yoxdur ki, ölkədə qidanın keyfiyyətini tənzimləsin. Dövlət orqanları bəzən rayonlardan gətirilən 20 ton əti müsadirə edir. Lakin soruşmurlar ki, bunu hara aparırsan. Deməli, buna tələb var ki, təklif də ortaya çıxır. Məlumatlar var ki, murdar olmuş heyvanların ətlərini şadlıq evlərinə verirlər. Lakin bu hansı şadlıq evləridir, bununla maraqlanan yoxdur Anormal vəziyyətdir".

**Eyyub Hüseynov əhaliyə səslənərək, onları ehtiyatlı olmağa çağırdı:** "Elə restoranlar var ki, onların mətbəxi açıqdır. Türkiyədə əksər restoranların monitorlarında mətbəx əks olunur. Yaxşı olar ki, insanlar açıq mətbəxi olan restoranlara üstünlük versinlər. Yedikləri ətin mənşəyini soruşsunlar, sağlamlıq sertifikatını tələb etsinlər. Hərçənd ki, o sənədlər də məhsulların sağlamlığını təmin etmir. Restoranlar da çalışmalıdırlar ki, istehlakçılarla onlar arasında şəffaf mühit yaransın".

**Tibb elmləri doktoru Adil Qeybulla isə "Yeni Müsavat"a açıqlamasında vurğuladı ki, ət məhsullarının təmiz və təzə olmaması insan səhhətinə böyük ziyan vura bilər:** "Əvvəla, hər bir ət məhsulu baytarlıq xidmətinin nəzarətindən keçməlidir. Burada ən önəmlisi heyvanda xəstəliyin, zooloji infeksiyaların olub-olmamasıdır. Brüselyoz, toksoplazma və sair kimi infeksiyalar var, bu həmin ətdən insana da keçə bilər. Bundan başqa, ətin nə dərəcədə təzə olması da önəmlidir. Vaxtı keçmiş ət mikroblar üçün qida mənbəyidir və laboratoriya şəraitində ətin bulyonundan mikrobları artırmaq, onların növünü müəyyən etmək üçün istifadə olunur. Mikroblar ət üzərində çox tezliklə artıb-çoxalırlar. Ətin saxlanma şərtləri pozulduğu halda, orada hər cür mikrooqranizmlər inkişaf edə bilər. Bu da insan orqanizmində toksik infeksiyalar yarada, qida zəhərlənmələrinə yol aça bilər, o cümlədən botulizmə gətirə bilər. Ona görə də ət məhsullarında keyfiyyət parametrlərinə çox ciddi fikir vermək lazımdır".

**A.Qeybulla ölmüş heyvan ətlərinin yeməklərə vurulmasını istisna etmədi və bu durumun dəhşətli xəstəliklərə yol açacağını bildirdi:** "Lüləkababda ət qatqı məhsulu olduğu üçün şadlıq evlərinin əksəriyyətində ona mümkün olan hər cür əti qatırlar. Məlumatlar var ki, şadlıq evlərinə ölmüş heyvanlar gətirilir. Xarici ölkələrdə təbii fəlakət zamanı seldə boğulan heyvanlar Azərbaycana gətirilir. Eləcə də at əti, müxtəlif heyvanların ətləri istifadə olunur. Təəssüf ki, şadlıq evlərində yeməklərlə bağlı bu cür şayiələrin yayılması əsassız deyil. Ancaq bunlar müvafiq orqanların işləridir. İnsanlar buna nəzarət edə bilmir. Sadəcə olaraq, insanlar həmin qidanın keyfiyyətinin dəyişdiyini görə bilərlər. Amma hesab edirəm ki, ərzaq təhlükəsizliyi baxımından bu məsələyə çox ciddi nəzarət olunmalıdır. O qidalardan uşaqlar, hamilə qadınlar da istifadə edir. Onların da səhhətində hər cür problemlər yaşana bilər".

**Qeyd edək ki, restoranlar da bu sektorda belə halların olduğunu etiraf edirlər. "Neon" restoranının adının çəkilməsini istəməyən administratoru bildirdi ki, bu kimi hallar mövcuddur:** "Biz heç zaman müştəriyə keyfiyyətsiz məhsul təqdim etmərik. Heç vaxt da yeməklərimizdən şikayət gəlməyib. Lakin siz stolu 25 manat olan restorana da zəng vursanız deyəcəklər ki, Ağcabədidən əmlik quzular gətirilir. Heç kim öz malına pis deməz. Ancaq mən ad çəkə bilmərəm, bu antireklam olar".

❑ **Nərgiz LİFTİYEVA**

# 400 min manatlıq dələduzluğu keçmiş icra başçısının qardaşı edib

**Bakı şəhərində məcburi köçkünə qarşı 400 min manatlıq dələduzluq etməkdə ittiham olunan şəxs Cəbrayıl Rayon İcra Hakimiyyətinin sabiq başçısı Mahmud Quliyevin qardaşıdır.**

Bu barədə "Report"a M.Quliyevin yaxınlarından biri məlumat verib.

Məlumata görə, Cəbrayıl rayon sakini 64 yaşlı Saleh Əliyev hüquq-mühafizə orqanlarına müraciət edərək 2015-ci ilin mart ayında həmyerlisi, 54 yaşlı Səfərov Hümbət Nayfalı oğluna şadlıq sarayı satdığını, lakin əvvəlcədən razılaşdıqları 400 min manat vəsaiti ala bilmədiyini deyib.

Məlumata görə, Mahmud Quliyevlə Hümbət Səfərov doğma qardaş olsalar da, soyadları fərqlidir.



**M.Quliyev qardaşı ilə bağlı şikayətdən xəbərsiz olduğunu deyib:** "Hazırda xarici ölkələrdən birində istirahətdəyəm".

Faktla bağlı Cinayət Məcəlləsinin 178.3.2-ci (dələduzluq, külli miqdarda ziyan vurmaqla törədildikdə) maddəsi cinayət işi başlanılıb.

S.Əliyevin satdığı şadlıq sarayı Bakı şəhəri, Telnov küçəsi 3 B ünvanında yerləşir.

Qeyd edək ki, prezident İlham Əliyevin martın 3-də imzaladığı sərəncamla Mahmud Nayfalı oğlu Quliyev Cəbrayıl Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən, Akif İsmayıl Səlimov isə Laçın Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilib.

**Prezident Administrasiyası rəhbərinin müavini, regional idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri Zeynal Nağdəliyev məsələyə münasibət bildirib. Onun sözlərinə görə, əhalidən gələn şikayətlər, aparılan təhlillər göstərib ki, bəzi yerli icra hakimiyyəti orqanlarının rəhbərləri qeyd edilənlərdən nəticə çıxarmayıblar. Onun sözlərinə görə, Laçın və Cəbrayıl rayonlarının icra hakimiyyəti başçıları da məhz elə o səbəbdən vəzifələrindən azad ediliblər:** "Onlar öz fəaliyyətlərini Azərbaycan prezidentinin qarşımıza qoyduğu tələblər səviyyəsində qura bilməyib, vətəndaşların problemlərinə laqeydlik, biganəlik göstərib, insanlarla münasibətdə qeyri-səmimilik və kobudluq nümayiş etdirib, təvazökarlıqdan uzaq hərəkətlərə yol veriblər. Vəzifədən azad edilən icra başçıları amiranəlik, təkəbbürlük, qərəzçilik, tənqidə qarşı dözümsüzlük nümayiş etdiriblər və nəticədə rayonun problemlərindən uzaq düşüb, sakinlərin haqlı tələblərinə məhəl qoymayıb, əhali arasında nüfuzlarını itiriblər".

# Sürücüləri ən çox narahat edən məsələyə aydınlıq gətirildi

## Ərşad Hüseynov: "Elektron protokol dərhal tərtib edilməli və "ASAN ödəniş" sisteminə ötürülməlidir"



**"Sürücülərin son vaxtlar baş ağrısına çevrilmiş elektron protokol söhbətinə dəfələrlə qayıdası olacağıq, çünki bu sistem düz 2 ildir ki, normal işləmir".**

Musavat.com-un məlumatına görə, bu fikri ekspert **Ərşad Hüseynov** bildirib. O hesab edir ki, əsas problemlərdən biri elektron protokolun ödəniş sistemlərinə yerləşdirilməməsi və sürücünün cəriməni ödəyə bilməməsidir: "Hətta təbliğat aparılır ki, guya bu halda və ümumiyyətlə, elektron protokol olduqda sürücü DYP orqanına gedib, bunu təsdiqlətməlidir və sairə. Qanunvericiliyin bununla bağlı tələbi birmənalı və qətidir. Elektron protokol dərhal tərtib edilməli və dərhal "ASAN ödəniş" sisteminə ötürülməlidir. Bu, o deməkdir ki, sürücü qaydanı pozduqdan bir neçə dəqiqə sonra cəriməni ödəmək imkanına malik olmalıdır. Bütün dünyada bu sistem belə qurulub və bizim qanun da bunu belə təsbit edib. Düzdür, bu halda ödənişi etmək sürücünün öz seçimidir, çünki qanuna əsasən, hüquqi nəticə doğuran fakt elektron protokolun kağız daşıyıcıda sürücüyə çatdırılmasıdır. Yalnız bundan sonra müvafiq hüquqi proses başlayır: qərar qanuni qüvvəyə minir, onu ödəmənin müddətinin axımı başlayır, gecikmə olduqda hüquqi nəticələr meydana çıxır və s. Amma qanun deyir ki, sürücü qanuni qüvvəyə minməyən qərarı da icra edə (cəriməni ödəyə) bilər. Ona bu imkan yaradılmalıdır".

❑ **Əli RAİS**

# Partiyalar Novruz şənlikləri keçirəcəkmi?

## Siyasi təşkilatlar bununla bağlı xüsusi tədbirlər hazırlamayıb, bayram süfrələri isə olacaq

**Novruz bayramına sayılı günlər qaldı. Bu il Nazirlər Kabinetinin qərarına əsasən ölkə ərazisində 8 gün qeyri-iş günü elan edilib. Bayramla əlaqədar ölkəmizin hər yerində müxtəlif şənliklər keçirilir. Adətən siyasi partiyalar da bu ənənələrdən kənarda qalmır.**



Maraqlıdır, bəs bu il partiyalar Novruz bayramını necə qeyd edəcək? Qeyri-iş günlərində partiyalarda hansısa tədbirlərin, müşavirələrin keçirilməsi gözlənilirmi?

**ADP sədri Sərdar Cəlaloğlu** Novruz bayramının siyasiləşdirilməsinin tamamilə yanlış olduğunu dedi: "Novruz xalqın birliyini, həmrəyliyini əks etdirən bir bayram kimi qeyd edilməlidir. Buna siyasi don geyindirmək, siyasi təşkilatlar səviyyəsində keçirmək tamamilə yanlışdır. Novruz, Qurbanlıq, Ramazan bayramları ümummilli, siyasi olmayan bayramlardır".

**Partiya sədri yalnız bayram günlərində istirahət edəcəklərini bildirib:** "Mən özüm bu yaşa gəlib çatmışam, amma heç vaxt məzuniyyətə çıxmamışam. Çox nadir hallarda da istirahət günlərində istirahət etmişəm. Buna görə də qeyri-rəsmi iş günlərində də iş başında olacam. Bayram olmayan zamanlarda da partiya üzvlərinin böyük əksəriyyəti şənbə-bazar günlərindən asılı olmayaraq işə gəlirlər. Kimisi kitab yazır, kimisə də öz işləri ilə məşğul olur. Həmin günlərdə də kim istəsə işə gələ bilər. Amma bütünlükdə dövlətin qərarına uyğun olaraq partiyaların vətəndaşların hüquqlarını məhdudlaşdırma ixtiyarı olmadığından, biz də martın 19-dan 24-dək partiya üzvlərinin işə gəlməsini könüllü etmişik. Ayın 21-də rəsmi idarə heyətimizin iclası olmalı idi. Biz onu ləğv etmişik, bir sözlə, siyasi tədbir olmayacaq".

**KXCP-nin sədr müavini Xəzər Teyyublu isə bildirdi ki, partiyanın qərargahında bayram süfrəsi təşkil ediləcək:** "Hər il ənənəvi olaraq çalışırıq ki, milli bayramımız olan Novruzda bayram ovqatını özümüzdə saxlayaq, bayramı yaxınlarımız, doğmalarımızla qeyd edək. Əlbəttə ki, partiya səviyyəsində hər il olduğu kimi, partiyanın qərargahında aparat işçiləri, aktiv üzvlər üçün bayram süfrəsi açılacaq. Çalışırıq ki, ayın 22-dək istirahət edək. Martın 23-24-dən başlayaraq həmişə olduğu kimi, iş başında olacağıq".

**Ümid Partiyasının sədr müavini Taleh Əliyev bildirdi ki, yaşanan böhrana baxmayaraq partiya qərargahında bayram süfrəsi açılacaq:** "Yeni ilin gəlişi kimi xalqımızın ən qədim bayramı olan Novruzda insanlar öz arzularını, istəklərini dilə gətirərək bayramı qeyd edirlər. Deyə bilərəm ki, bu il qeyd edilən bayram əvvəlki illərdə keçirilən formada olmayacaq. Ölkədə baş verən ümumi böhran heç bir siyasi partiyadan, qurumdan yan keçmir. Amma bununla belə, ötən illərdə olduğu kimi, mərkəzi aparatda çalışan partiya üzvləri üçün şirniyyat süfrəsi təşkil ediləcək. 8 gün qeyri-rəsmi iş günü olmasına baxmayaq partiyamızın üzvləri yalnız bayram günləri evdə olacaq. Sonrakı günlərdə isə partiyada həmişə olduğu kimi, iş başında olacağıq. Həmin ərəfədə də hansısa toplantı və ya müşavirə keçirilməsi nəzərdə tutulmayıb. Adətən belə tədbirlər daha çox siyasi səbəblərlə əlaqələndirilir, növbəti və ya növbədənkənar təşkil edilir. Bu cür tədbirlər də əsasən aprel ayına düşür".

**Ana Vətən Partiyasının sədri Fəzail Ağamalı isə qeyd etdi ki, qeyri-iş günlərində partiyanın üzvləri istirahət edəcək:** "Doğulduğumuz gündən bu yaşımızadək ən müqəddəs bayram bahar bayramını böyük əhval-ruhiyyə ilə qeyd etmişik. Bu il də ənənəmizə sadiq qalacayıq. Novruz bayramı partiyada aparat səviyyəsində qeyd olunacaq. Eyni zamanda yaxın rayonlarda, Bakı şəhərində insanlarımızın iştirakı ilə süfrə açılması istisna edilmir. Bütün azərbaycanlı ailələr kimi biz də bahar bayramını sevinclə qarşılayıb yola salacağıq. 8 gün qeyri-iş günündə hər birimiz istirahətdə olacağıq, hər kəs üçün bu şans yaradılacaq. Partiyamız Azərbaycanın qanunları çərçivəsində yaşayan bir partiyadır".

Qeyd edək ki, "İlaxır çərşənbə" günü münasibətilə martın 15-də saat 19:00-da Heydər Əliyev Sarayının arxasında, Azərbaycan Dövlət Milli Dram Teatrının qarşısındakı ərazidə yeni salınmış şəhər mərkəzi parkında bayram karvanı ilə Atəşgahdan gətirilmiş odla tonqal alovlandırılacaq, konsert və atəşfəşanlıq olacaq.

Eyni zamanda Novruz bayramı ilə əlaqədar martın 19-da, saat 22.00-da Bakı bulvarında atəşfəşanlıq olacaq.

❑ **Xalidə GƏRAY**


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarn dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



**Montində, Nərimanov Məhkəməsinin həyətində 2 maşınlıq daş qaraj satılır.**

**Obyekt kimi də istifadə etmək olar. Pultla idarə olunan jalüz qapıları var. Tavanı lambrin, döşəməsi tametdir. Ayrılıqda da istifadəyə yarayır. Sahibindən satılır, qiyməti bazar qiymətindən ucuz. Sənədi var.**

Əlaqə nömrəsi (050) 264 49 99



**Elan**

**Amerika və Kanadada təhsil və səyahət üçün bizə müraciət edə bilərsiz.**
**e-mail: travelaz2016@gmai.com**
**whatsapp: +1 845 300 7030**
**Tel: +99451 635 2408**


## Bakıda qumarbazı qətlə yetirən gənc hava limanında yaxalandı

**Sabunçu rayonunda qətl hadisəsi törədən şəxs həbs edilib. Teleqraf.com xəbər verir ki, Sabunçu Rayon Polis İdarəsi əməkdaşlarının keçirdiyi əməliyyat nəticəsində martın 9-da İlham Ağayevi qətlə yetirən şəxs müəyyən edilib. O, Maştağa qəsəbəsi sakini, 1993-cü il təvəllüdlü Şəhriyar Abbasquliyevdir.**

Şəhriyar Abbasquliyev martın 12-də Heydər Əliyev adına Beynəlxalq Hava Limanında ölkədən qaçmaq istəyərkən saxlanılıb. Qeyd edək ki, qətl hadisəsi Maştağa qəsəbəsində qeydə alınıb. Qəsəbə sakini, 1986-cı il təvəllüdlü İlham Tahir oğlu Ağayev bıçaqlanaraq öldürülüb. Məlumata görə, qətlə yetirilən İ.Ağayev qumarbaz olub.

## Qazaxda qoca ər-arvadı baltalayıb öldürdülər

**Qazaxda ər və arvad baltalanaraq öldürülüb. Bu barədə APA-ya Qazax Rayon Polis Şöbəsindən bildirilib. Qeyd olunub ki, Nəriman Osmanov və Dünya Bakıxanovanın meyitlərinə baxış keçirilərkən onların balta ilə qətlə yetirildiyi müəyyənləşib. Hazırda hadisəni törədən şəxs və ya şəxslərin müəyyən edilərək tutulması istiqamətində zəruri əməliyyat-axtarış tədbirləri davam etdirilir.**

Xatırladaq ki, hadisə rayonun Cəfərli kəndində qeydə alınıb. Kənd sakinləri - 1939-cu il təvəllüdlü Nəriman Bayraməli oğlu Osmanov və onunla qeyri-rəsmi nikah münasibətlərində yaşayan, 1941-ci il təvəllüdlü Dünya Mehbulla qızı Bakıxanovanın üzərində kəsilmiş-deşilmiş xəsarətləri olan meyitləri yaşadıqları evdə aşkar edilib. Hadisənin kim tərəfindən və hansı məqsədlə törədildiyi hələlik məlum deyil. Faktla bağlı Qazax Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 120.2.7-ci (iki və daha artıq şəxsi öldürmə) maddəsi ilə cinayət işi başlanıb, istintaq-əməliyyat tədbirləri davam etdirilir.

## Sumqayıtda zavodda faciə: ölən var

**Sumqayıt şəhərində ölümlə nəticələnən bədbəxt hadisə baş verib. Daxili İşlər Nazirliyindən bildirilib ki, martın 13-də Sumqayıt şəhərinin H.Zeynalabdin qəsəbəsindəki "AzərTexnoline" MMC-də işləyən şəhər sakini Füzuli Kərimovun üzərinə dəmir boru düşüb. O, hadisə yerində ölüb.**

Faktla bağlı araşdırma aparılır.


## Müstəqil monitorinq nəticələrinə əsasən, "Nar" 4G (LTE) şəbəkəsi ölkədə ən yüksək göstəricilərə malikdir

**2015-ci ilin son rübündə mobil operatorların şəbəkə keyfiyyətinin müstəqil monitorinqinin nəticələrinə əsasən, "Nar" 4G şəbəkəsi ölkədə ən yüksək göstəriciləri nümayiş etdirmişdir. Müasir avadanlıqlar vasitəsilə keçirilmiş testlərə əsasən, "Nar" 4G (LTE) şəbəkəsi Abşeron yarımadası və Bakı şəhərində digər mobil operatorların şəbəkələrindən daha yüksək nəticələr göstərmişdir.**

**Cəmi 2 il ərzində şəbəkəsinin həcmini 2 dəfədən çox artırmağa nail olmuş "Nar" hazırda 2941 2G (GPRS/EDGE), 2086 ədəd 3G (HSPA) və 609 4G (LTE) stansiyası vasitəsilə abunəçilərə kəsintisiz və yüksəkkeyfiyyətli mobil rabitə və internet xidməti göstərir. Hazırda ölkədə heç bir mobil operatorun şəbəkəsi bundan yüksək göstəricilərə malik deyildir.**

**Gücləndirilmiş və genişləndirilmiş 4G şəbəkəsinin istifadəçilərinin sayı dinamik şəkildə artmaqda davam edir. Hazırda "Nar" 4G (LTE) şəbəkəsindən istifadə etmiş abunəçilərin ümumi son 3 ay ərzində 65% artaraq, 25000 abunəçiyə çatmışdır.**

**"Nar" öz abunəçiləri üçün mükəmməl şəbəkə və yüksəkkeyfiyyətli xidmət təmin etmək məqsədilə optimallaşdırma işlərini durmadan davam etdirir. "Nar" abunəçiləri yüksəksürətli 4G şəbəkəsindən sərfəli qiymətlərlə və eləvə hər hansı bir ödəniş etmədən yararlana bilirlər.**

**Mobil operatorun strateji hədəfi etibarlı və yüksəksürətli internet imkanını təkcə mobil telefonlara deyil, eləcə də evlərə və iş yerlərinə çatdırmaqdır. Artıq mobil və sabit şəbəkələrin təkmilləşdirilməsi üçün ciddi sərmayə yatırılmış və gələcəkdə bu sahəyə daha böyük məbləğdə investisiya ayrılması planlaşdırılmışdır.**

**"Nar" operatorunun şəbəkəsi haqqında əlavə məlumatı nar.az internet səhifəsindən öyrənə bilərsiniz.**

YENİ MÜSAVAT
N 59 (6380) 15 mart 2016









# İşarət dili ilə vine çəkən gənc: "Bunu ilk dəfə mən etmişəm"

**Məhdudiyyətli insanlar adətən cəmiyyətdən uzaqlaşır və özlərini həyatın bir hissəsi kimi görmürlər. Təbii ki, onların bu cür hiss etməsində bizim, məhdudiyyətsiz insanların da böyük rolu var. Onlarla ünsiyyət qurmağa çalışmır, təhsil almaları, peşə sahibi olmaları üçün şərait yaratmırıq.**

Məhdudiyyətli insanlar haqda fikirlərimi bölüşməyim səbəbsiz deyil. Çünki bu dəfə müsahibim eşitmə və danışma məhdudiyyətli Mahmud Səfərovdur. O, 1996-cı ildə Bakıda anadan olub. Məhdudiyyətli olmaq onda genetikdir, ata babasından keçib. Mahmud məhdudiyyətli olmasına baxmayaraq işarət dili ilə maraqlı vine-lər *(15 saniyə müddətində çəkilən komik videolara vine deyilir - red.)* çəkərək sosial şəbəkələrdə paylaşır. Onunla tanışlığımız da məhz sosial şəbəkə vasitəsilə oldu. Onun ərsəyə gətirdiyi vine-lər diqqətimi çəkdi, ilk dəfə idi ki, məhdudiyyətli insanın həyata bu qədər pozitiv yanaşdığının şahidi olurdum.

Özü də etiraf edir ki, məqsədi digər məhdudiyyətli insanların həyata baxışını dəyişmək, həm məhdudiyyətli, həm məhdudiyyətsiz insanlar üçün maraqlı videolar çəkərək onlar arasında körpü yaratmaqdır.

Maraqlı vine-lərin müəllifini və ailəsini daha yaxından tanımaq üçün əməkdaşımız Məhəmməd Türkmənlə onların Xırdalanda yerləşən evlərinə yollandıq. Burada bizi Mahmud və ailə üzvləri qarşıladı.

İlk dəqiqədən Mahmudun içindəki həyat eşqinin ailədən gəldiyi hiss edilirdi. Gülərüzlü ailə üzvlərinin həyəcanlı olduğun isə hiss etməmək mümkün deyildi.

**İlk olaraq söhbətə Mahmudun anası Şahanə Səfərova başlayır.**

"Mahmud anadangəlmə məhdudiyyətlidir. Qayınatam da eşitmə və danışma məhdudiyyətli idi. Lakin övladlarında bu hal yaşanmayıb. Mahmuddan başqa 3 qızım var, onlar anadan olan kimi eşidib-eşitmədiyini yoxlatdım. Onlarda hər hansı məhdudiyyət yoxdur. Mahmudun isə eşitmə və danışma məhdudiyyətli olduğunu 2 aylıq olan zaman bildim. Kənarda dayanıb oyuncaqla beşiyin dəmirinə vurdum, amma reaksiya vermədi. Məhdudiyyətli olduğunu biləndə ağladım, həkimlər anadangəlmə olduğu üçün müalicəsi olmadığını dedilər. Bu durumla barışa bilmirdim. Düşünürdüm ki, həyatda olmayanda uşağım köməksiz qalacaq. *(Gözləri dolan müsahibim bir neçə saniyə susduqdan sonra söhbətə davam edir)* Sanki sonra Tanrıdan vəh gəldi, bütün bədənim qurudu, ancaq danışa bilirdim. O an mənim üçün təkan oldu və oğlumun məhdudiyyətli olması ilə barışdım. Allaha söz verdim ki, daha ağlamayacağam. Mahmud səmimi, dünyagörüşlü, bacarıqlı uşaqdır. Allaha hər gün şükür edirəm ki, onun kimi övladım var. Düşünürəm ki, dili açılsa, bütün bacarıqları yoxa çıxacaq".

**Biz söhbət edərkən Mahmud gah anasına, gah da bacısı Aidəyə baxır. Aidə isə danışılanları ona işarət dili ilə başa salır.**

**Şahanə xanım onu da qeyd edir ki, ailəsi Mahmudu heç vaxt cəmiyyətdən məhrum etməyib:** "Mahmud üçün hər şəraiti yaratmışıq, təhsil vermişik. Heç vaxt istəməmişik ki, bizi övladımızı nədənsə təcrid etdiyimiz üçün qınasınlar. Oğlum eşitmə və danışma məhdudiyyətli ola bilər. Allaha şükür ki, gözləri görür, əli-ayağı, şüuru var, hər şeyə qadirdir. Onu cəmiyyətdən uzaq saxlamadıq, məktəbə qoyduq, futbola yazdırdıq. İki dəfə Avropaya gedib, yarışlarda iştirak edib. Vətənə, dinə bağlıdır. Slovakiyaya gedəndə ilk dəfə bizdən 15 gün kənarda qalmışdı, evə girib yeri öpdü. Bildirdi ki, Azərbaycanı çox sevir, xarici ölkələr daha səliqəli olsa da, vətəndən kənarda qala bilmir".

**Mahmudla ünsiyyət qurmaqda bizə bacısı Aidə Səfərova kömək edir. Müsahibim video çəkilişinə necə başladığından bəhs edir:**

"İnternetdə xarici ölkələrdə məhdudiyyətli insanların çəkdikləri videoları izlədim. Məndə də maraq oyandı. Nitq məhdudiyyətli gənclər arasında ilk dəfə mən işarət dili ilə vine-lər çəkirəm. Videoları bəzən tək, bəzən bacılarımın köməkliyi ilə hazırlayıram. Vine-lərdə səsləndirilən musiqiləri isə bacım seçir".

**Videoları çəkmək məqsədindən bəhs edən Mahmud qeyd edir ki, özü kimi insanların həyata baxışını dəyişmək, onlara stimul vermək istəyir:**

"Məhdudiyyəti olmayan insanların çəkdikləri videoları bizim kimilər anlamır. Mən istədim ki, hər kəs üçün maraqlı, işarət dili ilə başa salınan videolar çəkim. Əvvəllər jestləri çoxları anlamırdı. Mənim çəkdiyim videolardan sonra həm işarət dilinə maraq yaranıb, həm də insanlar bəzi jestləri öyrəniblər. İstəyirəm məhdudiyyəti olan insanlar daim pozitiv olsunlar. Onlar həyata məyus baxmasın, cəmiyyətdən təcrid olmasın. Bu videolara baxıb nümunə götürsünlər. Öz içlərindəki pozitivliyi, bacarığı üzə çıxarmağa çalışsınlar".

**O bildirir ki, çəkdiyi videolara görə artıq onu şəhərdə tanıyanlar da var:** "Az da olsa, insanlar məni tanıyır. Yaxınlaşıb görüşürlər. Onların isti münasibəti məni sevindirir. Həm də yeni vine-lər çəkməyə mənə stimul verir. Çəkdiyim videoları, "Mahmudsoy" adlı səhifəmi izləyən məşhurlar da var. Bu cür hallar məni sevindirir. İstəyirəm ki, izləyicilərimin sayı artsın və daha çox adam məni izləsin".

**Mahmud barədə fikirlərini bölüşən atası Nəsib Səfərov isə bildirir ki, oğlu vətənə çox bağlıdır. Hətta o, "Skype" vasitəsilə onunla əlaqə saxlayan məhdudiyyətli erməniyə dərs verib:**

"Məhdudiyyətli insanların dili beynəlxalqdır. Mahmuda başını qatmaq üçün kompyuter aldım, o da "Skype" vasitəsilə dünyanın başqa yerlərində yaşayan məhdudiyyətli insanlarla ünsiyyət qurur. Bir dəfə erməni onunla əlaqə saxlamışdı. Mahmud isə ona Xocalını xatırlatdı və millətimizin başına açdıqları oyunları faktlarla üzünə çırpdı. Mənim qardaşım şəhiddir. Mahmud erməniyə dedi ki, "mənim əmimi də siz öldürmüsünüz". O isə ermənilərin törətdikləri soyqırımla əlaqəsi olmadığını, günahsız olduğunu israrla bildirirdi. Mahmud isə Xocalıda yaşananları onun üzünə çırpdı. Sonda erməni yanındakı "skoç"u götürüb ağzına yapışdırdı. Ondan sonra heç vaxt oğluma zəng etmədi".

**Söhbətimizi bitirdikdən sonra Şahanə xanımın istəyi ilə birlikdə foto çəkdiririk. Yenidən onlara baş çəkəcəyimizi deyib ailə ilə xudahafizləşirik.**

❑ **Könül İBRAHİM**
**Foto: Məhəmməd TÜRKMƏN**

# Körpələr evindəki yeyintilər haqda yeni məlumatlar

## Tərbiyəçi metodistin bağça müdirəsi tərəfindən döyüldüyünü açıqladı

**Eşitmə Qabiliyyəti Pozulmuş Uşaqların Respublika İxtisaslaşdırılmış körpələr evi-uşaq bağçasında baş verənlərlə bağlı ötən saylarımızda yazmışdıq. Tərbiyəçi Zərqələm Alıyevanın bağça müdirəsi Sədaqət Cəfərovanın yeyintilərə yol verdiyinə dair iddialarını dərc etmişdik. Sonuncunun isə qarşılıqlı ittihamla çıxış etdiyini də diqqətinizə çatdırmışdıq.**

Z.Alıyeva yenidən redaksiyamıza məktub ünvanlayaraq bildirib ki, S.Cəfərovanın onun barəsində dedikləri cəfəngiyyatdır: "Ötən ilin iyuldan başlayaraq müxtəlif vasitələrlə mənə şər-böhtan ataraq, hədə-qorxu gələrək, işdən çıxardacağı ilə dəfələrlə təhdid edib. Körpələrin yeməyini oğurlayıb evinə aparması barədə yazılı müraciətdən sonra Sədaqət Cəfərovanın verdiyi açıqlamaya heç də təəccüblənmədim. Çünki Sədaqət Cəfərova hər zamankı kimi öz əməllərini ört-basdır etməkdən ötrü belə danışır. Deyir ki, mənə 2 ştat verilib ki, 400 manat əmək haqqı alım. Eyni zamanda guya mənə yardım olunması üçün Bakı Şəhər İcra Hakimiyyətinə müraciət etməsini söyləyib. Bağçada yaşayış üçün yer verilməsini tələb etdiyimi söyləyib, bağçanın qarşısındakı otaqda məskunlaşmış qaçqın ailəsini oradan çıxarmaq istədiyimi, dava-dalaş saldığımı bildirib.

Mənə bağçada iki ştat verilməsinin səbəbi mənimlə eyni qrupda işləyən tərbiyəçinin analıq məzuniyyətində olmasıdır, bu səbəbdən mən öz qrupumda iki ştat işləmişəm. Eyni zamanda 2014-cü ildə Bakı Şəhər İcra Hakimiyyətinin tərkibində fəaliyyət göstərən həmkarlar komitəsinə öd kisəsindən əməliyyat olunmağıma kömək edilməsi üçün müraciət etmişəm. Mənim 31 illik maaşımdan həmkarlar komitəsinə ayrılan vəsaiti nəzərə alaraq, Hacıbala Abutalıbov əməliyyat üçün 1200 manat yardım edilməsi barədə göstəriş verib.



Lakin mənə 1200 əvəzinə 500 manat pul verildi. Hacıbala Abutalıbov tərəfindən mənə edilən yardımın Sədaqət Cəfərova ilə heç bir əlaqəsi yoxdur. Bağçada yaşayış üçün yer verilməsini tələb etdiyim həqiqətə uyğun deyil. Övladlarım mənim hardasa qalmağıma və ya sığınacaq istəməyimə imkan verməzlər. Borclarıma gəldikdə isə mən Sədaqət Cəfərova kimi körpələr evindən oğurlanan pullarla övladıma 3 otaqlı ev almamışam, bağçanın musiqi zalından LCD televizoru oğurlayıb aparmamışam".

**Tərbiyəçi bildirir ki, bağça müdirəsinin nəvəsinə görə İdrak Liseyinə ildə 6 min manatı hansı hesabdan ödəməsi də araşdırılmalıdır:** "Sədaqət Cəfərovanın yeznəsi cəzaçəkmə müəssisəsində cəza çəkir. Onun qızı Eşitmə Qabiliyyəti Pozulmuş Uşaqların Respublika İxtisaslaşdırılmış körpələr evi-uşaq bağçasında tərbiyəçi vəzifəsində işləyir. Sədaqət Cəfərova bağçanın metodisti Şərəf Ağababa qızı Hacıyevaya şər-böhtan ataraq, dəfələrlə ərizə yazıb işdən çıxmasını tələb edib. Onu işdən öz xahişi ilə ərizə yazıb çıxmayacağı təqdirdə barəsində xoşagəlməz məlumat yayacağı ilə hədələyib, üstünə hücum çəkib döymək istədikdə işçilər araya girib. Sədaqət Cəfərova Şərəf Hacıyevaya etdiyi təzyiqlərin nəticəsində qızı Şəms Mirzəcanovanı metodist keçirib. İstəyir ki, müəyyən bir vaxtdan sonra qızını öz yerinə müdir vəzifəsinə keçirsin".

**Tərbiyəçi Heydər Əliyev Fondunun Prezidenti Mehriban Əliyevaya müraciət edərək bağçada baş verən hərc-mərcliyə son qoyulmasını xahiş edir:** "Bu cür qanunsuzluqlara yol verən, vəzifə səlahiyyətlərindən sui-istifadə edən, öz işçiləri ilə qul kimi davranan, rəhbərlik etdiyi müəssisəyə laqeyd yanaşan, eşitmə və nitq qüsurlu uşaqlara ögey münasibət bəsləyən bağça müdirəsinin əməllərinə son qoyulsun".

**Yazıda adı hallanan hər kəsi dinləməyə, mövqeyini dərc etməyə hazırıq.**

❑ **E.HÜSEYNOV**

YENİ MÜSAVAT

Son səhifə

N 59 (6380) 15 mart 2016



## İt toyuna 5 min qonaq qatıldı

Hindistanın şimalında yerləşən Uttar-Pradeş ştatında iki it üçün səs-küylü bir toy mərasimi keçirilib. Lenta.ru saytının xəbərinə görə, tədbirə 5 min nəfər qonaq qatılıb. Toyun daha şən keçməsi üçün di-cey də çağırılıb. Bundan başqa, it toyunda qədim hind ənənə və rituallarına əməl olunub və insanların nikah mərasimini xatırladıb. Mərasimdən sonra heyvanları güllərlə bəzədilmiş maşına mindirib aparıblar.



## At üçün yarış kostyumu hazırladı, 18 metr parça sərf olundu

Britaniyanın Qlosterşir qraflığında dizayner at üçün kostyum hazırlayıb. Hazırlanma prosesində Emma Sendhem Kinq adlı dərzi adi insan üçün lazım olandan 10 dəfə artıq parçadan istifadən edib. "The Daily Mail"in xəbərinə görə, üç hissədən ibarət olan kostyum Morstid adlı at üçün hazırlanıb. O, bu kostyumla martın 15-də baş tutacaq yarışda çıxış edəcək. Dizayner kostyumun hazırlanmasına 4 həftə vaxt sərf edib. Yerli mediaya açıqlamasında isə deyib ki, dərzilik karyerası boyunca ən çətin işi bu olub. At kostyumunun hazırlanması üçün ona Harris Tveed markalı parçadan 18 metr lazım gəlib. Xatırladaq ki, bu markalı parça Şotlandiyanın Harris adasının sakinləri tərəfindən əllə hazırlanır və dünyanın 40 ölkəsinə ixxal olunur, yetərincə bahalı parça sayılır.

# Dəvələr yarışdı, "Ginnesin Rekordlar kitabı"na düşdü

Qobi səhrasında (Monqolıstan və Çin) dəvələr arasında yarış keçirilib. 1115 heyvanın iştirak etdiyi yarış "Ginnesin Rekordlar kitabı"na salınacaq. "Asia Russia Daily" jurnalının xəbərinə görə, iştirakçılar 15 kilometrlik məsafəni qaçmalı idilər. Qalib gələn dəvə finişə 35 dəqiqə 12 saniyə ərzində çatıb. Yarış isə 68 dəqiqə davam edib. Yarış "Monqol dəvəsi - 999" tədbiri çərçivəsində baş tutub. Dəvələrin festivalı isə 1997-ci ildən bəri hər gün keçirilir. Nəşrin yazdığına görə, tədbir bu dəvə cinsinin keyfiyyətini artırmaq və yerli əhalinin turizmdən qazanması üçün keçirilir. Xatırladaq ki, bundan öncəki analoji tədbir Çinin şimalında yerləşən Daxili Monqolustan ərazisində keçirilib, ora 550 dəvə qatılıb.



# Qəfil varlanan adam.... dəli ola bilər

Bir anda çox böyük pullar qazanmaq beyni məhv edir. Amerikalı alimlər bu nəticəyə gəliblər. Onların fikrincə, bir anda böyük miqdarda lotereya udan şəxslərin beynində pulun də təsiri ilə ciddi dəyişiklik yaşanır, hətta həyatları alt-üst olur. Alimlər bunu sübut etmək üçün daha öncə Amerikada lotereyadan 558 milyon dollar udan Mark Hill və həyat yoldaşı Sindi üzərində araşdırma aparıb. "Discovery News"da yer alan xəbərə görə, Mark və Sindinin beyinləri hormon ifrazı nəticəsində yaşanan dəyişikliklərə görə yaxın zamanda normal bir beyindən fərqli reaksiyalar göstərməyə başlayacaq. İlk zamanlarda hədsiz miqdarda ifraz edilən dopamin adlı maddə daha sonra beyində qarmaşıq bir biokimyəvi təsir nəticəsində öz yerini gərginlik və depressiyaya verə bilir. Bu zaman iradəsi zəif olan adamların dəli olma ehtimalı da güclüdür. Alimlər onu da sübut edib ki, qısa vaxtda çox pula sahib olmaqla insan xoşbəxtlik yox, diqqət qazanır.





## Bu qadın hamını baş-ayaq görür

Bu gənc qadının elə bir xəstəliyi var ki, eşidənlər heyrət edir. Bojana Danilovic adlı qadın Serbiyanın Uzice adlı qəsəbəsində yaşayır. Daniloviçin görmə problemi tibb dünyasını şoka salıb. Gənc qadının gözləri hər normal insan kimi dünyanı düz formada beyinə ötürsə də, beyni gördüyü hər şeyi tərsinə çevirir. "Kosmik orientasiya fenomeni" adlanan bu vəziyyətdə yaşamağa çalışan gənc qadın yazıları tərsinə yazır, qəzeti tərsinə oxuyur. Hətta özünün özəl kompüter ekranı və klaviaturası olan qadın cib telefonu tipli bəzi alətləri tərsinə istifadə edir. "İnsanları başları üzərində dayanmış kimi yox, normal ayaqları üzərində görürəm. Mənə sürücülük vəsiqəsi verilmədi. Məktəbdə də problemlər yaşadım" deyən Daniloviç iş yerində özəl ekrandan istifadə edərək həyatını davam etdirir. Onun evində də özünə aid tərsinə çevrilmiş klaviatura və bir televizoru var.




**QOÇ** - İxtiyarınızda bir qədər mistik gün durur. Tanrıya xoş getməyən əməllərdən çəkinin. Ulduzlar gün ərzində büdcənizin xeyli ağırlaşacağını bəyan edir. Buna hazır olun.

**BUĞA** - Kifayət qədər səmərəli gündür. İşbirliyi qurduğunuz adamlarla perspektivli nəticələr əldə edə bilərsiniz. Ulduzlar daha çox maliyyə baxımından uğurlara yiyələnəcəyinizi bildirir.

**ƏKİZLƏR** - Sizə dəxli olmayan məsələlərə az müdaxilə edin. Onsuz da son məqamda yardımçı olduğunuz şəxslər özünüzə qarşı yönələcək. Günün ikinci yarısında yaxın qohumlara baş çəkin.

**XƏRÇƏNG** - Yersiz lovğalıq, mənəm-mənəmlik sizə başucalığı gətirən deyil. Bu amili nəzərə alıb ünsiyyətdə olduğunuz adamlara qarşı mərhəmətli davranın. Yeni əlaqələrdən çəkinməyin.

**ŞİR** - İnsanlarla münasibətdə vəziyyət heç də ürəkaçan olmayacaq. Ola bilsin ki, sizə qarşı təxribat da törədilsin. Hər halda, tədbirli olmağınız lazımdır. Axşam qonaqlıq görünür.

**QIZ** - Fəaliyyətə ara verməyiniz məsləhətdir. Yaxşı olar ki, ürəyinizə yaxın olan simsarlarınızla bir yerdə olasınız. Bu, daxili nisgilinizi azalda bilər. Ziyarətə getmək də olar.

**TƏRƏZİ** - Martın ən yaxşı günlərindən birini yaşayacaqsınız. Bu baxımdan fəaliyyət zəminində uğurlarınız daha çox olacaq. Sövdələşmələrdə qarşı tərəfin mövqeyini mütləq nəzərə alın.

**ƏQRƏB** - Bütün enerjinizi məhəbbət amilinə yönəldin. Xırda umu-küsüləri və konfliktləri qaydasına salmağa çalışın. Bunu etməsəniz, Göy qübbəsinin qəzəbinə gəlib xəstələnə bilərsiniz.

**OXATAN** - Fərdi fəaliyyət prinsipində müsbət dönüş yaratmaq istəyirsinizsə, bu təqvimdən maksimum istifadə edin. Əks təqdirdə yaxın günlərdə bu şansı itirəcəksiniz. Hamıya mehriban olun.

**OĞLAQ** - Xeyirxah Fikir, Xeyirxah Söz, Xeyirxah Əməl - ulu Zərdüştün bu tövsiyələri nə qədər ki, qəlbinizə hopmayıb, taledən mərhəmət gözləməyin. İndi seçim sizindir, başlamağa dəyər.

**SUTÖKƏN** - Səfər və qonaqlıq üçün ideal gündür. Əgər maddi durumunuz buna imkan verirsə, yola düşməyə dəyər. Yaxşı bilirsiniz ki, sizin üçün darıxanlar və yolunuzu gözləyənlər çoxdur.

**BALIQLAR** - Astroloji göstəricilər şəxsi münasibətlərinizi düzəltmək üçün gözəl imkan qazanacağınızı bildirir. Dəvətlərdən qaçmayın. Axşam dünyadan getmişlərinizə dualar oxuyun.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Qohumunun evini yığışdırdı, 200 min dollar tapdı



"Conston Reyt Kollektibls" şirkətinin sahibi Ceff Bidelman adlı amerikan kişi həyatının fürsətini yaxalayıb. Qohumlarından birinin 20 il əvvəl tərk etdiyi evi təmizləmək üçün yardıma gedən Ceff evin zirzəmisinə "əl gəzdirmək istəyəndə" olanlar olub. İçində köhnə dəmir pullar olan bir torbanı daşıyarkən yuxarıdakı divarlardan birində bir deşik görüb. Bu deşikdən şübhələnən amerikan birinci mərtəbədə axtarış aparanda qızıl pullar tapıb. Bidelman ümumən 8500 dollar tapsa da, pulların gerçək dəyəri 200 min dollara qədər artıb.

**Səhifəni hazırladı: ŞAHNAZ**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 4.750